42
Yeganə Kamal
şeir vaxtı

43
Məlihə Əzizpur
Təbriz eli

51
Nəsib Nəbioğlu
qürbət şeirləri

Müzakirə klubu **54**

61
Adil Mirseyid
çap olunmamış poema

65
Nuranə Nur
esse

69
Əbülfəz Ülvi
şeir vaxtı

71
hücrə

73
Vaqif Yusifli
resenziya

75
Ədalət Salman
şeir vaxtı

76
3 rəssamın 3 dünyası
sənət

82
Günel Eyvazlı
dərgidə kitab

Təsisçilər:
Azərbaycan Yazıçılar Birliyi və «Ulduz» jurnalının kollektivi

Baş redaktor
Qulu Ağsəs

Redaksiya heyəti
Təranə Vahid
(Baş redaktor müavini)
Həyat Şəmi
Elçin Mirzəbəyli
Xəyal Rza
Səhər
Xanəmir
Rəsmiyyə Sabir
Elxan Yurdoğlu
Nuranə Nur
Anar Amin
Elmar Vüqarlı
Sevinc Mürvətqızı
Qılman İman
Hafiz Hacxalıl
Nisəbəyim
Fərid Hüseyn
Məshəti Musa
Elşən Əzim
Seyfəddin Altaylı
(Türkiyə)
Xaqani Qayıblı
(Estoniya)
Baloğlan Cəlil
(Başqırdıstan)
Saodat Muxammadova
(Özbəkistan)
Nilufər Şıxlı
(Rusiya)

Bədii redaktor
Ədalət Həsən

Ünvanı: Az-1000, Bakı, Xaqani küçəsi, 25
ulduz_dergisi@mail.ru
dursul@mail.ru
www.ayb.az
Telefon: 498-72-43
Çapa imzalanıb: 14.12.2015
«Ulduz» jurnalı redaksiyasında yığılıb səhifələnib. «Təhsil Nəşriyyat-Poliqrafiya» müəssisəsində çap olunub.
Sifariş. № 128, Tiraj: 300
Qiyməti: 2 man.

1967-ci ildən çıxır
Şəhadətnamə № 238

Nömrənin eksperti:
Şirindil Alışanlı

«AZƏRMƏTBUATYAYIMI» AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

«Ulduz» jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon «Mətbuatyayımı» şöbələrinə müraciət etməyiniz kifayətdir.

«QAYA» MƏTBUAT YAYIMI

«Ulduz» jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon «QAYA» mətbuat yayımı şöbələrinə müraciət etməyiniz kifayətdir.

«EKSPRESS» MƏTBUAT YAYIMI

«Ulduz» jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon «EKSPRESS» mətbuat yayımı şöbələrinə müraciət etməyiniz kifayətdir.

Jurnalın

1 aylıq abunə qiyməti – 2.00 man.

6 aylıq abunə qiyməti – 12.00 man.

Bakı şəhərində abunə yazılmaq istəyənlər:

440 – 27 – 85
440 – 39 – 83
440 – 46 – 94

564 – 63 – 45
598 – 35 – 22
456 – 67 – 13
564 – 48 – 96

437 – 28 – 10
408 – 17 – 51

nömrəli telefonlara zəng edə bilərlər.

ISNN 0134-522 İNDEKS AZ 1000 2 AZN

EKSPERT

HƏRƏNİN ÖZ ULDUZU... VƏ HAMININ BİR «ULDUZ»U

Nizami CƏFƏROV

("Ulduz"un noyabr sayına baxış)

Gülşən Əliyeva - Kəngərlinin «Hər çapında xüsusi çəki sərgiləyən jurnal»ını oxuya-oxuya düşünürdüm ki, mən «Ulduz»un növbəti sayına onun qədər qayğılı, mərhəmətli yanaşmayacağam, bir az kəskin danışacağam. Ona görə də mülahizəm, fikrim, mövqeyim kiminsə (xüsusilə, təbii ki, müəlliflərin) xoşuna gəlməsə, xətrinə dəysə, məndən inciməyin… Bu sözləri, sadəcə, zövqü köhnəlmiş (ancaq başı daşdan- daşa dəymiş, təcrübəli) bir ədəbiyyatşünas deyir. İnciməkdənsə çalışın ki, bunu xüsusilə gənclərə deyirəm, gələcək yazılarınızla oxucularınıza mənim düz dediyimi yox, məhz düz demədiyimi sübut edəsiniz…

…Müşfiq Xanın özüylə söhbəti "məhz özüylə söhbəti" idi, hekayəsini isə oxuyub keçdim...

…Pərvanə Rəhimlinin «Dönüş»ündə mövzu var, problemin həllinə cəhd var, ancaq nəticə (nə demək istədiyi) yoxdur. Dil üslubu obrazlıdır («kənd də qaranlıqda dağ ətəyinə səpilmiş bir ovuc işıldaböcəyinə bənzəyirdi», «qarının səsindəki gizilti və titrəyiş içinə elə sığal çəkdi ki, ayaq üstə səndələdi», «əsgər kimi addımlayan kəfkirli saatın tıqqıltısı» və s.), ancaq elə ifadə qüsurları (məsələn, «su arxlarındakı qurbağalar») da var ki, şübhə yaradır. Təhkiyəsi impulsivdir…

…Nazilə Gültacın "yorğun şeirləri içərisində aşağıdakı misralar diqqətimi çəkdi:

Ümidlərim
başıma
çələng qoyub,
arzularım
yaxasına
çiçək taxıb
səni gözləyir,
xoşbəxtliyim…

…Sadıq Elcanlının üç hekayəsi mənə «ustad dərsləri»ni xatırlatdı: «Yovşanlı yamac…» da, «Susqun səsin soyuğu» da, «Quzey qarının qarısı» da istedadlı (və peşəkar) yazıçı qələminin məhsuludur. Ancaq etiraf edim ki, Sadıq Elcanlının ideya-estetik təfəkküründə bir lənglik, həddindən artıq etnoqrafik dərinliklərdən gəlmək inersiyası var… Hərdən onun qəhrəmanları insan ruhunun arxeologiyasına o qədər enirlər ki, adama elə gəlir, bir daha qayıtmayacaqlar… Klassika klassikadır… Nə deyəsən?..

…Tatyana Uvarovanın rusca şeirlərini İbrahim İlyaslı azərbaycancaya elə çevirib ki, orijinalından da yaxşıdır. Ancaq mən hansısa qadın şairin hansısa kişi şair tərəfindən tərcüməsinə birtəhər baxıram…

…Ümumiyyətlə, istedadlı (və halal) şair Əbülfət Mədətoğlunun «söz oynatmalar»ı xoşuma gəlmədi. Yalnız bir ifadə - obrazından başqa…

Dan üzünün adamıyam –
Süz ver, bir az işıq içim!

…Rene Genon – Əbdül Vahid Yəhyanın «Quşların dili» yazısını oxuyandan sonra Leyla Camalın esselərinə göz gəzdirəsi oldum...

…Həm Bob Marleyin, həm də Stephen Frunun aforizmlərinin tərcümələri, mənim ingilis dilini bildiyim səviyyədə, kifayət qədər uğurludur (çevirəni: Pəri Mirəliyeva)… Ancaq müəlliflərin hərəsi dərginin bir sayında getməli idi…

…Əli Aslanoğlunun:

Qüdrətinə heyran oldum, İlahi!
Bu gözəli necə seçib yaratdın?..
Eşq badəsin sevənlərə vermişdin,
Yoxsa bunu özün içib yaratdın?!.

– bəndiylə başlayan qoşması gözəldir, çünki İlahidən gəlir. Yerdə qalanlarını «özü» yazıb.

…Nərgizin «Kölgə»si bədii kəşfdir. Ancaq elə bil hansı dildəsə düşünüb azərbaycanca yazır…

…Qəşəm Nəcəfzadə "Hücrə"də daha bir gənc yazarı təqdim etməyə çalışıb...

…Çinarə Nüsrətlinin uzun-uzadı «debüt»ü («Şaxta həkim»), etiraf edim ki, məni yordu. Hiss eləyirdim ki, nə isə demək istəyir. Ancaq mətləbi o qədər uzatdı ki, dözmədim. Və müəllifdən acizanə üzr istəyib keçdim «9x9»a…

…Anar Gülümsoyun bəlağəti (və fətahəti!) üzdəndi…

…Şəfa Vəli dərindi, özü də çox dərindi. Həm suallara cavablarında, həm də şeirində:

Hər səs gələn tərəfin
Yolçusu sevilməz ki.
Payız boyda qəhərin
Sarısı silinməz ki.

Saçlarını yolmağa
Başlayıbdı ağaclar.
Bu mövsüm Xan bağında
Oturmağa ürək var?

…Gərək mən də tez qaçım.
Bakı, Qazax… ya səbr.
Durum qapını açım,-
Bu, sənsən, oktyabr?..

…Elnur Abdiyev həyatını, taleyini ucuz obrazlarla proqramlaşdırmaq istəyir. Məncə, dəyməz…

…Tural Adışirin suallara cavablarında «mən, mən…» deyir.

…Ruslan Ələkbərli hələ bəhrələnir...

…Tural Sahab iddialıdır… Onun şeirlərini oxumaq istərdim, ancaq hamısı «Sevgili nağılı»na oxşamasın…

…Furqan Sadiqin səmimiliyi, təvazökarlığı xoşuma gəldi. Şairlik, bəlkə də, burdan başlayır…

…Vüsal Oğuz bu gün ədəbi tənqidin olmamasından gileylənir, sonra da «yarımçıq qalan bir neçə yazım var. İnşallah, onları da tamamlayıb oxucuların ixtiyarına verəcəm. Amma onu da etiraf edim ki, istədiyim əsəri hələ də yaza bilməmişəm. Bəlkə də, heç vaxt yaza bilməyəcəm» deyir… Yazıq ədəbi tənqid neyləsin? Vüsalın yazılmamış, yaxud heç vaxt yazılmayacaq əsərləri haqqında nə desin?..

…Məhsəti Musa «mən ədəbiyyatda uçmağı bacarmadım» etirafını edir, ancaq səbəbini açıq demir, hansısa mücərrəd «azadlıq»dan danışır. Suallara cavabları son dərəcə savadlı, məntiqli və səmimidir… Etiraf edim ki, «Qırmızı köynəyi sevə- sevə almışdılar sənə…» şeiri məni kövrəltdi. Və ürəyimdə müəllifə «sən yaxşı yazmaya bilməzsən, nə olar, yaz» - dedim, - «nədən istəyirsən yaz»…

…Yorulmaz xanım tədqiqatçımız Sona Xəyal Vahidin gənclik şeirlərini araşdırır. Allah köməyində olsun!..

…Mətanət Ulu Şirvanlı «Avtobus sərgüzəşti» həyat hekayəsində həyat həqiqətinin üzünə dik baxmağa çalışır. Və baxır…

…«Sən həmişə bizimləsən, «Boy çiçəyi»… yazısında unudulmaz sənətkarımız İlyas Əfəndiyevin məşhur əsərinin Şuşa Dövlət Musiqili Dram Teatrındakı tamaşası barədə söhbət açılır. Hicran Hüseynova ilə tələbə-teatrşünas Əli Hacılının söhbəti… Fikrimcə, normal söhbətdir…

…Xanım Mehdixanlının «debüt»ü «Lovğa qapı»sı bütün sadəlövhlüyü ilə birlikdə maraqlıdır…

…Elşad Ərşadoğlunun «dərgidə kitab»ı - «Hörümçək zaman»ı, heç şübhəsiz, istedadlı bir qələm (və ürək!) adamının əsəridir. Hər şeirində az və ya çox, sözün böyük mənasında, Poeziya var…

Hamı, hər şey gəlir, gedir,
Ömrümüzü yolur gedir.
Yaxşı- pis məhv olur, gedir,
Qalan boş şeydi, boş şeydi.

Ömür icarə verilir,
Verən haqq, alan bəndədir.
Hər bir hüquq verəndədir,
Alan boş şeydi, boş şeydi.

…Ustası, xamı uduzur,
Arzunu, kamı uduzur,
Savaşda hamı uduzur,
Fərqi yox, qələbə- filan
Çalan boş şeydi, boş şeydi…

Ancaq Elşadın həm mövzuları çoxşaxəli, miqyaslı deyil, həm də Qarabağın bəzi muğam oxuyanları kimi özünü elə «sıxır» ki, səsi- sözü içində qalır.

Eyni bir şeirdə elə bənzətmələri, metaforaları var ki, təzədir, törədicidir…

Kövrək kişi,
həlim kişi,
qəmgin kişi,
gərgin kişi…
Dastan, nağıl, bayatılı sinəsi
Akademiyanın
Folklor İnstitutu qədər
zəngin kişi…
Elələri də var ki, gəlişi gözəldir…
Elə qocalmışdı ki…
Bir vaxt Dünya savaşında
faşistlərə əsir düşməyən kişinin
bədənini qırışlar
əsir götürmüşdülər…

Ən təhlükəlisi odur ki, Elşad Ərşadoğlu bütün ömrü boyu ümid verə-verə elə bu cür yaza…

Və nəhayət, Vaqif Səmədoğlunun misraları, Pərviz Seyidlinin fotoları…

…İndi ya sən öldür məni, ya da mən səni…

Özüylə söhbəti...

Rübabə SAHİB

Az qala günün iyirmi saatını sənlə danışıram. Ömrüm-günüm, qulağını səsimə kirayəmi vermisən? Bircə cüt cavab versən, dünya yerindən oynamaz ki?! Səsimmi adiləşib, salamlarımmı?

... Sənin "hey-hey"lərindən imkan var ki, danışım?! Bu qədər "hey-hey"i hardan yığıb gətirirsən?! Üzlü qonaq kimi getmir ki getmir. Məcbur susub gözləyirəm, bəlkə, mənim tələtümlərimi də görərsən, mənə də bir çay qaşığı zaman ayırıb dinləyərsən deyə. Salamına cavab vermirəm, çünki adamlara verdiyin salama bənzəyir.

Deyəsən, məndən öyrənmisən şikayətlənməyi? Sual verməyə peşiman oldum. Yəni bu qədər yorulmusan mənim "hey-hey"lərimdən?

Səndən yorulsam, susmağı özümə peşə seçməzdim. Sənin durulmağını gözləmək az qala bir igidin ömrüdür. Elə tələtümlüsən ki, bəzən qorxuram. Əsib-coşursan, dünyamı başıma yıxırsan, amma sənə qarşı həmişə laldinməzəm. Qeybdən bir səs daima mənə diktə edir ki, sənincün göndərilmişəm. Mən sənin ərki-nazınam. Və missiyamı təhvil alacaq kimsəni gözləyirəm ömür yükümün astanasında.

Bəs o kimsə gəlməsə, nə edəcəksən? Sonsuzadək susa biləcəksənmi? Bəlkə, bir gün səbr kasan dolacaq və sən də vulkan kimi püskürəcəksən. Taleyimi məhvərindən qoparacaqsan. Bəlkə də, susacaqsan, mənsə səni ömür boyu yük karvanı kimi yoracağam və bu şıltaqlığım səhvlərimin boyunu birə min artıracaq, Tur dağına qədər "ucalacağam". Eeee! Yenə bəlkə? Mənim bəlkələrdən zəhləm gedir axı. Konkret olaq.

Dəli ceyransan dəə. Dəpdəli! Hələ anlamamısan ki, O kimsə gəlsə də, səni heç kimə əmanət edə bilmərəm. Çünki fani olan faniyə əmanət edilməz. Mən sussam da, hayqırsam da, sən ömrün boyu taleyinin aqoniyasını yaşayacaqsan. Xatırlayırsansa, sənə bir şans verilmişdi. Taleyini bir arzuyla yazmalıydın. Sən də ömrümü kamilləşərək yaşamaq istəyirəm - dedin. Bəs bilmirdin ki, kamilləşmək üçün çoxlu səhvlər etmək lazımdır?! Hər səhvə görə silsilə imtahanlar vermək isə ən ağır yükdür. Bax buna görə susuram mən. Sənin yükünün nə qədər ağır olduğunu hiss etdiyimçün. Bir gün sən məndən gedəcəksən, amma mən səni əsla tərk etməyəcəm.

Elə danışırsan ki, sanki hər hərəkətim yanlışdır. Heçmi düzüm, doğrularım yoxdur? Əməllərimin hamısını bəndə tərəzisinə qoydun lap! Sən də getdikcə çölümdəkilərə bənzəyirsən, deyəsən.

Yox, yox! Doğruların gözlərinə yansıyır, sözlərinə hopur, hərəkətlərinə təkan verir.

Yəni düzlərini çox xərcləyirsən. Yanlışlarını isə yorğan sırıyıb ürəyinin üstünə örtürsən. Sevgini paylaşırsan, nifrətini isə tapılmaz hind qumaşı kimi saxlayırsan. Əslində, təkcə qələmi götürməyin kifayətdir ki, bütün yalan-yanlışların yox olsun. Gəlsənə, yenə həmişəki kimi "Nonstress time" (stressis zaman) keçirək. Məsələn, mən sənə o xumarlandığın istiliyi, sevdiyin qoxunu verim, sən də başla yazmağa...

...və yazısı

BU "BAŞ" O BAŞ DEYİL...

Əziz oxucu, Xalq yazıçısı Elçinin yenicə çapa hazırlanmış "Baş" romanını mən də əlyazmadan oxudum. Və oxuduqdan sonra roman haqqında fikirlərimi sizinlə bölüşmək qərarına gəldim.

"Baş" romanı ilk baxışda mürəkkəb konstruktiv quruluşu olan tarixi roman səciyyəsi daşıyır. Əslində isə tarixi etüdlərdən əsərə beynəlmiləl kalorit qatmaq üçün istifadə olunub desək, yanılmarıq. Müəllifin özünün də romanın əvvəlində qeyd etdiyi kimi, buradakı tarixi hadisələr yazıçının hiss və duyğularının, düşüncələrinin ifadəsi, tarixi qəhrəmanlar isə qeyri-tarixi qəhrəmanlar səviyyəsində "özününküdür". "Tarixçilər bu romandakı isimlərin hamısı ilə, buradakı məktublarla, ayrı-ayrı tarixi epizod və məqamlarla bağlı arxivlərdə axtarışlar aparmasınlar, çünki heç nə tapmayacaqlar. Romanda, olsun ki, tarix ilə üst-üstə düşməyən detal və ştrixlərə də fikir verməsinlər və bu baxımdan müəllifin təskinliyi ondadır ki, burada tarixlə üst-üstə düşən və müəllifin fikrincə tarixilik baxımından əhəmiyyətli olan məqamlar da, güman ki, az deyil". Buradan göründüyü kimi, müəllif tarixi hadisə və olaylara öz yaradıcılıq idilliyası fonunda yanaşsa da, açmaq istədiyi tarixi ştrixlər də var və yeri gəldikcə o faktları da poetik süzgəcdən keçirərək romana daxil etmişdir.

"Baş"da müəllifin əsl qayəsi tarixi gerçəkliklə müasir dünyanın hüdudundakı sirat körpüsündə insanı həyatın ağrılarını, onu doğuran səbəbləri və onun dəyişilməzliyi gerçəyini çatdırmaqdır. Romanın lap əvvəlində yazıçı Ənvər Məmmədxanlıdan ("Həyatım ağrıyır") və Arif Abdullazadədən ("Bir də bu dünyaya gəlməyə tövbə") gətirdiyi sitatlar əsərlə ilkin hissi tanışlıq mərhələsidir . Asanlıqla anlamaq olur: bu ifadələrlə müəllif oxucunu başa salmağa çalışır ki, əsərdə qəhrəmanlar cismani ağrılarını deyil, ruhi-mənəvi – əsl həyat ağrısının nə olduğunu öyrənir və bu dünyaya bir daha gəlməyə qorxurlar. Hər qorxu mütləq bir günahın meyvəsidir. Deməli, insanların qorxusu günahları, yanlışları qədərdir. Yanlışlar silsiləsinin başı isə xəyanət, yalan və riyakarlıqdır ki, əsərdə yazıçının bədii qayəsi də bu miqyasda belə əks olunub: "Başın sahibi indi cəhənnəm alovlarında yanırdı – buna şübhə ola bilməzdi və bu da onun öz əməllərinin nəticəsi idi - sən öz yurd-yuvandan çıxıb gəlib, başqasının torpağında qan tökəsən, ev yıxasan, kəndi, şəhəri topa tutub, yetim-yesirin çörəyinə bais olasan və bunlara görə cavab verməyəsən? - Bu, mümkün olan iş deyil, çünki göydə hər şeyi görən və hər şeyin qiymətini verən var, dünya özbaşına deyil".

Mütləq ölümdən qaçış yoxdur qənaətini yenə də dilə gətirən Elçin, "Baş"da hətta ölüm yaxınlaşanda insanın ruhi-mənəvi təlatümlərini fəlsəfi-psixoloji ampluada izah edir. Knyaz Sisianovun Babua Arçili xatırlayıb, göyə baxaraq "sifətindəki ləzzətli bir təbəssümlə əlini yuxarı qaldırıb yelləməsi", podpolkovnik Elizbar Eristova şəxsi suallar verməsi, Elçinə görə, ölüm yaxınlaşanda insanın başqalaşmasının əlamətidir. "Ən yaxın generallarıyla, zabitləriylə belə yalnız rəsmi davranan, onların şəxsi həyatı ilə qətiyyən maraqlanmayan knyaz Sisianov o 8 fevral səhəri, elə bil başqa adam olmuşdu ...".

Əsərdə Onun – Başın şəffaflıq və çəkisizlik içindəki ruhunun maddım-maddım geri sayım dönəmi romanın əsas hərəkətverici qolunu təşkil edir. O, qarabasma kimi hər yeri gəzir. Maraqlı məqam odur ki, Elçin onu nə ölən insanın ruhu kimi gəzdirir, nə əlil arabasına qoyub daşıyır, nə də uşaq kimi əlindən tutub ətrafda baş verənləri izah edir. O öz-özünə "dığırlanır". "...Onun hissləri bir çəkisizlik, boşluq içində idi, yox, bu hisslər çəkisizlik içində deyildi, çəkisizlik elə bu hisslərin özündə idi, çünki bu hisslər daxildə deyildi, daxildən gəlmirdi, çünki daxil yox idi, cismani

heç bir şey yox idi, bu hisslər bütün ətrafa yayılmışdı, əslində, burada (harada?) ətraf da yox idi, ətraf hər tərəf idi və hər tərəf ancaq şəffaflıq idi, bu hisslər o şəffaflıq içində bir tərəfdə idi, ona görə də o, görünən o məkanda hər tərəfdə hər şeyi görürdü, ONUN üçün qarşı, arxa yox idi, əslində, tərəf də yox idi, tərəflər olmayan bütöv bir şəffaflıq idi və onda elə bir hissiyyat vardı ki, O bütöv şəffaflığın ortasındadır...". Kimdir O?, Nədir?. O, knyaz Pavel Sisianovun başıdır. Bədənsiz başın hiss etdikləri, ömrünün ötəninə qayıdaraq gördükləridir. Bəs çəkisizlik başın bədəndən ayrı ağırlıqsızlığıdırmı? Şəffaflıq boşluğunmu əksidir?

Burada (romanda) çəkisizlik və şəffaflıq anlayışları maddi və mənəvi-dialoji kostansiyadır. Bildiyimiz kimi, ruh da, duyğu da bədəndə olur. Ətrafda və özlüyündə baş verən hadisə və olaylara reaksiya və təsir gücü ruhun və duyğunun tədqiqat obyektidir. Deməli, bədənsiz baş özlüyündə çəkisi olmayan fizioloji aktdır. Bu çəkisizlik başda robot reaksiyası formalaşdırdığı üçün faktlar olduğu kimi geriyə sayım dönəmi keçir. Heç nə təhrif olunmur. Beləliklə, şəffaflıq təmin olunur. Müəllifin əsər boyunca davamlı diqqət çəkdiyi şəffaflıq və çəkisizlik palitrası fəlsəfi ampluada haqqın (Sirri-Xudanın) öz yerini bulması meyarıyla ölçülür. Sisianov kəsdirdiyi başların günahını başının eyni cür kəsilməsiylə ödəmiş olur. " Başın boğazını xirtdəkdən aşağı kəsmişdilər və boğazın laxtalanmış qanı quruyub siniyə yapışmışdı. Boğaz hələ əyilməmişdi, dik durmuşdu və baş da boğazın üstündən açıq gözləri ilə dik baxırdı. Onun sağ gözü bərəlib, az qala hədəqəsindən çıxacaqdı, sol gözü isə büzüşüb alacalanmışdı, ağzı azacıq açılmış, dodaqları yüngülcə sol tərəfə əyilmişdi və ... Yəqin, hər dəfə başı saçından tutub qaldırdıqları üçün knyaz Sisianovun adda-budda ağarmış qara və qıvrım saçları pırpızlaşmış, uzun bakenbardlarının tükləri ölüşkəyib solmuşdu və elə bil o saçlar da, bakenbardlar da Başın özününkü deyildi, onları sonradan Başa yapışdırmışdılar".

Roman innovativ sujet xəttinə və mürəkkəb kompozisiyaya malikdir. XIX əsrin əvvəlləri - 1803-1807-ci illərdə Azərbaycanda xanlıqların parçalanması, Gürcüstanda çar üsul-idarəsinin məhvi və Rusiyanın tabeliyinə keçirilməsi, eləcə də Azərbaycanı Rusiyanınkılaşdırmaq uğrunda Pavel Sisianovun Cənubi Qafqazda ruslaşdırma siyasəti, Qacarların (Fətəli şahın və vəliəhd Abbas Mirzənin) Azərbaycanı ələ keçirmək meyli, Rusiya-Osmanlı münasibətləri, Fransa və İngiltərənin Rusiyaya qarşı maraqlarını Elçin gərək tarixçi, gərəksə tənqidçi, gərəksə də əsl yazıçı təxəyyülü ilə sujetləşdirmişdir.

Romanda diqqət çəkən məqamlardan biri də budur ki, yazıçı yanlış siyasi maariflənmənin avropalaşma meylinə absurd təsirlərini, əxlaqi çürümənin millətin etnik sivilizasiyasını "heç"ə endirəcəyini və nəticə etibarilə xaotik (mixed) genefond yaranacağını Sisanovun Mariyadan Michael adlı oğlunun olması və bunun rus deyil, fransız olaraq böyüməsi, Aleksandrın ata-baba irsinin kimlərdən gəldiyinin bilinməməsi və s nümunələrlə təsdiqləyir. Bununla belə, əsərdə hadisələr əsasən Rusiyanın - Sisianovun fonunda cərəyan etsə də, Azərbaycançılıq tendensiyası, türkləşmə meyli və Qarabağ mövzusu romandan ana xətt kimi keçir. Bir yazıçı-siyasətçi kimi Elçin "Baş" romanında dövlətin dayanıqlılığının təməl prinsiplərini də özünəməxsus şərh edir: "...Onlar burasını da görürdülər ki, rus ordusu daha müasirdir, daha intizamlı, idarəçiliyi daha mükəmməldir və Abbas Mirzə nə qədər bacarlıqlı olsa da, özünü oda-közə vursa da, rus ordusu ilə bacarmır".

Hüseynqulu xan, Mahmud bəy, Münşi Hacı Həsənağa, dilmanc Şərif bəy, Molla Müzəffər ağa, Hacı Muxtar bəy və digər qəhrəmanlar da müəllifin həssaslıqla seçdiyi, zaman-zaman öz münasibətini onların təşvişlərinə əlavə etdiyi personajlarıdır. Hətta Pantera (Qarabağın cins atı (Elçinin heyvani obrazları insaniləşdirməsi yaradıcılığının sentimental məziyyətlərindəndir)) da sahibiylə səssiz danışmaq gücünə malikdir.

"Baş" romanının təkcə bədii çəkisinə - müasirliklə tarixin vəhdətində gələcəyin sxemini vermək gücünə görə çeşidli təhlil predmetinə çevriləcəyi gerçəyini hələ çap olunmadan onunla bağlı ədəbi sferada çoxsaylı yazıların yazılması əyani təsdiqləyir.

Ardı var...

ANA TORPAQ TUTAR MƏNİ

Bu tale dərdimi çəkməz,
Yorulanda atar məni.
Ömür-gün də naşükürdü,
Əzrayıla satar məni.

Üz tutubdur ölümgilə,
Dönüşü yox bilə-bilə,
Tələsərək son mənzilə
Aparır bu qatar məni.

Bəxt salıb məni kəməndə,
Döndəribdir zəif bəndə,
Qocalıb əldən düşəndə
Ana torpaq tutar məni.

İSTƏYIRƏM

Bir səma istəyirəm,
göyləri buludsuz.

Bir günəş istəyirəm,
işığı tükənməyən.

Br zirvə istəyirəm,
enişi olmayan.

Bir zaman istəyirəm,
insanı qocaltmayan.

Bir rüzgar istəyirəm,
yer üzündəki bütün pislikləri
uçurub apara bilən.

Bir yağış istəyirəm,
dünyadakı bütün dərdləri yuyub aparsın.

Bir vicdan istəyirəm,
bütün haqsızlıqlara sinə gərən.

Bir adam istəyirəm,
Adam kimi adam.

Rəsmiyyə SABİR

XATIRLAMIRAM

Unutdum
Sənlə bağlı hər şeyi.
Xatırlamıram.
İlk dəfə rastlaşanda
əlində tutduğun çəhrayı rəngli
çətiri belə unutdum.

Unutdum,
xatırlamıram.
Həyətinizin baxçasındakı
üçillik salxım söyüdləri.
(onlar mənə hüzür verirdi)

Unutdum,
xatırlamıram.
Hirsləndiyin zaman
sol qaşının ucunda
yaranan kiçicik çöküntünü.
Unudum,
xatırlamıram
bahar nəfəsli səsini.
Biz kəlməsi əvəzinə
Mən və Sən
deməyini belə.
Unutdum,
xatırlamıram.
Unutdum.
Unutdum,
Unutdum.
Unutdum Səni və Məni.
Ovutdum icimdə
ağlayan həzin bir nəğməni.

Ales BADAK 1966-cı ildə Belarusun Brest vilayətinin Lyaxoviç rayonunun Türklər kəndində anadan olub. Belarus Dövlət Universitetinin filologiya fakültəsini bitirib. Belarus Yazıçılar İttifaqında, "Byarozka", "Polimya", "Molodost", "Neman" kimi ədəbi jurnallarda işləyib. Hazırda Minskdə "Mastaçkaya Literatura" nəşriyyatının direktorudur.

Ales Badak bir neçə bədii kitabın müəllifidir, onun "Adi gün", "Kədərli günəş kölgəsinin arxasında", "Sürətli əsa" nəsr kitabları Belarusda populyardır. O, həm də uşaqlar üçün şeir və nəsr kitabları yazır və 2014-cü ildə çapdan çıxan "8-ci sinfin tənha şagirdi tanış olmaq istəyir" povesti böyük maraqla qarşılanmışdır.

Ales Badak Belarus Respublikasının "Qızıl kupidon" ədəbi mükafatının, Rusiyanın Konstantin Simonov mükafatının, habelə Dövlətlərarası "MDB Ulduzları" mükafatının laureatıdır. Onun aşağıdakı hekayəsini "Ulduz" jurnalının oxucularına təqdim edirəm.

Kamran NƏZİRLİ

Ales BADAK

YAĞIŞDAN QURTULAN GÜN

hekayə

- Yağış yağır, – nəhayət, uzun sükutdan sonra arvadı fikirli-fikirli dilləndi.

O, başını qaldırıb gözlərini yuxulu-yuxulu elektrik qatarının pəncərəsindən bayıra dikdi, doğrudan da, pəncərə şüşəsindən titrəyən yöndəmsiz damlalar axırdı. Dönüb qızına tərəf baxdı. Qızı küncə qısılıb qarşı tərəfdə oturmuşdu, dinmirdi, sevimli "Barbi"sini dizlərinin üstünə qoyub hər şeyə laqeyd kimi görünürdü.

O, bu "susqunluq"dan qorxurdu, lakin uşağı danışdırmaq da istəmirdi – bəlkə, qızı nəsə yaxşı bir şeyi xatırlayır?

- Gərək avtobusla gedəydik, vaxtında çatardıq, yağışa da düşməzdik... – arvadı təəssüflə bildirdi.

Əlbəttə, kəndə getmək üçün elektrik qatarını o, təklif elədi; başqa cür olsaydı, gərək arvadının da yaxşı tanıdığı həmin yeri ötüb keçəydilər, bununla belə, yenə deyinir, danışmasa olmaz. Belədi də – canavar kimi ulamaq istədisə, gərək bütün aləm də onun kimi ulasın.

Kişi yenə qızını süzdü, onun baxışları uşağın sol qaşının üstündəki nazik çapıq yerində ilişdi.

- Katya, yemək istəyirsən?– arvadı soruşdu.

Qızı başını yellədi.

- Andrey, bəs sən?

O da başını eynilə Katya kimi yellədi.

- Özünüz bilərsiz, - deyə arvad köks ötürdü, sonra da buterbrodları gizlətdi.

Yarım saatdan sonra onlar kimsəsiz kiçik bir stansiyada idilər; stansiyanı sıx, qalın və qaranlıq meşə əhatələmişdi. Yağış, demək olar ki, kəsmişdi. Andrey bir əlinə yekə yol çantasını aldı, o biri ilə qızının əlini tutdu. Dəmiryolundan qayınanasıgilin kəndinə

dümdüz cığır uzanırdı. Cığır əvvəlcə şose yolu kəsirdi, sonra isə təpəcikdən üzüaşağı kənd yoluyla birləşirdi.

Bir neçə maşını buraxıb şosse yolu keçəndə qızı atasının barmaqlarını möhkəmcə sıxdı, elə bil kişinin qolunu cərəyan vurdu, bütün bədəni gizildədi və bir qədər əvvəl döyüntüsü belə eşidilməyən ürəyi titrəyib yenidən sakitləşdi.

Qayınanası xalis arvadına oxşayırdı. Hərdən arvadına əsəbiləşəndə sanki dərviş kimi xəyalına güc verir, onu təsəvvüründə canlandırırdı. Qayınanasının balaca bir həyəti vardı və o, çəpərin ağzında qonaqlarını görəndə sevincindən ohuldadı, su ilə dolu vedrəni yerə qoyub onları qarşılamağa yürüdü. Birinci qızını qucaqlayıb öpdü, sonra kürəkəni qucaqladı, amma öpmədi, sadəcə qurumuş dodaqlarını yüngülcə onun yanağına yapışdırdı. Kürəkən isə heç bunu da etmədi. Sonra arvad nəvəsinə sarı əyildi və birdən qız üz-gözünü turşutdu, buxağı əsdi.

- Sən ki mənim əziz nəvəmsən!

- Ana! - arvadı narazı-narazı səsləndi. - Ona həyəcanlanmaq olmaz! Axı mən səndən xahiş eləmişdim...

- Aha, aha... - arvad qəflətən geri çəkildi, elə bil qorxdu.

Arvadı süfrə açmaqda anasına kömək elədi. Sonda stola özləriylə gətirdikləri bir şüşə vermut qoydular.

- Katya, nə yeyəcəksən? - arvadı soruşdu.

- Heç nə. Sonra yeyərəm. Televizora baxmaq olar?

- Bax, - arvadı ah çəkdi. - Heç olmasa peçenye götür.

Qız mətbəxdən çıxanda qayınana boğuq səslə soruşdu:

- Hə, deyin görüm nə olub axı? Bir əməlli-danışın...

O, ayağa durdu.

- Sən hara? - arvadı soruşdu.

- Siqaret çəkməyə...

Arvadı heç vaxt onun gözünün içinə "günahkar sənsən!" deməzdi. Ümumiyyətlə, qadın həmişə özüyçün danışardı, ürəyində deyərdi bunu, amma o, hər iki halda, danışanda istər-istəməz kişinin günahı ortaya çıxırdı: "Əgər mən evdə olsaydım... əgər bacımgilə getməsəydim... mən heç vaxt uşağı buraxmazdım..."

"Buraxardın!" Əri dəfələrlə bunu arvadına demək istəmişdi. Özü də qışqırıb demək istəmişdi. "Onlar təkcə mənim dostlarım deyil, həm də sənin dostlarındır! Və kimin ağlına gələrdi ki, belə şey baş versin!"

Lakin o, heç vaxt arvadının üstünə qışqırmayıb, hətta özünü belə müdafiə eləməyib. Və başa düşürdü ki, o bədbəxt hadisədən sonra qızından söhbət gedəndə arvadı əsəbiləşir, deyinir, belədə ürəyini boşaldır və sakitləşir, rahatlıq tapır. Əgər o da söz qaytarsa, susmaq haqqında razılaşmanı pozmuş olar. Və bu zaman arvadı elə bütün günahları onun üstünə ata bilər.

Nəhayət, bəlkə elə çığırıb-bağırmaqları, qışqırmaqları yaxşı olardı? Ürəklərini boşaldardılar, soyuyardılar. Belədə ağrı-əzab arvadından əl çəkmir, artıq ikinci həftədir onun içini gəmirir və görünür, bunun heç sonu da olmayacaq - elə bu yağış kimi, onları hər yerdə izləyən sısqa yağış kimi! Elə bil yağış da onlarla birgə doğulub, həyatlarının bir parçasıdı. Bir sözlə, yağış da onların ovqatı kimiydi, elə hey tökür, dəyişməz olaraq qalırdı.

Kişi dəfələrlə o dəhşətli günü xəyalında canlandırmışdı: budur, yenə xəyalən məktəb illərindən dostluq elədiyi Alik Jdanoviçin təptəzə çəhrayı fordunda oldu. İndicə maşına oturacaqlar -Alik, onun arvadı Marina və Katya. Katya qabaq oturacaqda, Alikin yanındadır. Bu dəfə bir göz qırpımında onlar artıq şəhər ətrafında olurlar.

- Heyf, atan bizimlə gəlmədi, - Alik deyir, - mən sənə elə bir yer göstərəcəyəm ki, orda əllə balıq tuturlar, amma öz aramızda qalsın, yaxşı?

- Atam gələ bilmədi, onun kinostudiyada mühüm bir görüşü var, - Katya cavab verir.

- Katenka, bazar günləri rejissorlar da gərək istirahət eləsin, - deyə Alik guya məsləhət verir, lakin qeyri-ciddi söyləyir bunları. - Və ümumiyyətlə, əsl sənətkar üçün

təbiətlə görüşməkdən vacib şey ola bilməz, düz demirəm, hə?

O, Katyaya göz vurur və sürəti artırır.

Bir dəqiqə keçir, iki dəqiqə ötür və birdən... budur o müdhiş, nəhs yer. Qabaqdan gələn furqon ağ folksvageni ötərkən yolu ortadan ayıran xəttin soluna keçir. Ford cəld sağa döndərir. Katya qışqırır. Maşın yamaca düşüb aşır və cevrilərək böyrü üstə ağaca çırpılır...

O bütün bunları görür: İlahi, gör neçənci dəfədi görür, elə bil həmin anda o da onlarla birlikdə olub. Görür ki, qızı oturacağa sıxılıb, Alik onu qucaqlayıb oturacağa sıxıb. Beləliklə, Alik onun qızını ölümdən qurtarmışdı; qızın gözləri bərələ qalıb, qız Alikin qan içində olan gicgahına baxır və qışqıra bilmir, qorxudan heç ağzını da açа bilmir, qolları isə ölü kimi Alikin maykasına ilişib; qız elə hey baxır, baxır, Alikin gicgahından isə qan axır, qırmızı qan; qızı nə Marinanın qışqırığını, nə də "Təcili yardım"ın sirenasını eşidir...

Andrey siqaret kötüyünü küçəyə tulladı və kötükdən çıxan ağ tüstü bir andaca yağış suyunda yox oldu.

Yağış ikinci gün də yağdı, üçüncü gün də tökdü. Hətta kəsəndə belə göy üzü yenə tutulmuşdu, sanki yağış yenidən güc toplayırdı.

- Kənddəki yağış şəhər yağışına bənzəmir, - əri fikirli-fikirli dilləndi. -Cansıxıcı deyil, elə bil daha diridir...

- İlahi, görəsən, yağışın axırı olmayacaq?! - arvadı ah çəkdi. Arvadı üçün yağış hər zaman sadəcə yağış olub, adi su - özüylə soyuq və palçıq gətirən su! O, elə hər şeyə bu cür yanaşır, hər şeyə! Hər gün belədir! Artıq yeddi ildir! Yeddi ildir ki, bir yerdə yaşayırlar. O, buna necə dözüb? Axı o, nəyə ümid edir belə?

- Axı sən nəyə ümid edirsən?

Bir dəfə elə Alik də ona bu sualı vermişdi, hələ heç Svetayla evlənməmişdi onda.

- Düşünürsən ki, Zoluşka şahzadə xanıma dönə bilər? Sən romantiksən, sən gərək müharibədən film yox, nağıl çəkəsən! Sən dünyadakı bütün qadınları xoşbəxt eləmək istəyirsən və başa düşmürsən ki, bəzən bir nəfəri belə xoşbəxt eləmək üçün ömür çatmır. Gücün çatan işdən yapış. Və eləsini də seç ki, hər halda, onu xoşbəxt eləmək üçün sənə mane olmasın...

Alik ona xəbərdarlıq eləmişdi, lakin özü bundan sığortalana bilmədi, bir gün ona zəng vurub yoğun səslə dedi:

- Lələ, mənə sənin antikvariatın lazımdı...

Antikvar saxta olsa da, əntiqəydi, qədim boyunbağı kimi görünürdü. O, bu boyunbağını ilk tammetrajlı filmindən xatirə kimi saxlamışdı; bu filmdə müasirlik də, müharibə də, Napoleonun Beryozindən geri çəkilməsi səhnələri də vardı... Filmin süjeti Napoleonun xəzinələri ətrafında qurulmuşdu, onun ləl-cəvahiratları arasında bu boyunbağı da vardı...

- Maraqlıdı, de görüm şahzadə xanımlar üçün nəzərdə tutulmuş daş-qaşları taxa bilən qadınları harda görübsən?

- Təsəvvür elə ki, Mərkəzi univermaqda. O, mənim gözümün qarşısında əyilib vitrinə baxanda dərhal düşündüm ki, ondan yaxşı natura çıxar. Təsəvvür elə ki, qadın əyilib özünə saat brasleti seçmək istəyirdi...

Alik peşəkar rəssam idi; bütün gözəl qadınlar onun gözünə hər şeydən əvvəl gələcək rəsmləri üçün natura kimi görünürdü.

- Yəqin, o qadını dilə tutmaq və natura üçün razı salmaq sənincün çətin olmadı?

- Onun nişanlısı var, özü də pozada duranda mütləq gərək nişanlısı yanında olsun.

Andrey razılaşdıqları kimi emalatxanaya bir qədər gec gəldi. Çox da hündür olmayan kilkəbaş oğlan özünü kresloda taxtda oturan kraliçalar sayağı əzib-büzən lüt qızın qabağına çalağan kimi atıb onu qarşıladı; lakin Andrey qızın gözqamaşdırıcı ağ bədəninə baxmağa macal tapdı, bir anlıq gözləri qızın üzündə ləngidi; qızın təbii gözəlliyi əzəli qadın sirriylə tamamlanırdı, hətta qırx yaşlı qadında olan cazibə kimiydi.

Alik ondan boyunbağını aldı və öz mənzilinin açarını dostuna uzadaraq göz vurdu. Alikin mənzili onun emalatxanasıyla eyni binada yerləşirdi.

- Evdə gözləyə bilərsən?

Andrey mənzilə getməmiş yaxınlıqdakı qastronomdan iki şüşə şampan şərabı aldı, apelsin, banan götürdü, sonra qayıdıb satıcıdan xahiş elədi ki, bir dənə də araq versin...

İki aydan sonra Andrey Svetayla aralarında ciddi münasibət yarandığını dilinə gətirəndə Alik ondan soruşdu:

- Sən nəyə ümid edirsən?

- Axı sən özün onun portretini çəkəndə onda şahzadəlik görürdün,- deyə Andrey dalğın-dalğın cavab verdi.

- Həmişə insanın yalnız özü real olur, kölgəsi yox! Rəssamlar isə çox vaxt kölgəni çəkirlər.

- Əgər incəsənət real həyatda görünən əlçatmaz şeylərin ifadəsidirsə, onda belə sənətin dəyəri nədir?..

Tutqun və rütubətli bir səhər idi; göyün üzü qara buludlarla doluydu, sanki elə indicə göy üzü buludların ağırlığına tab gətirə bilməyəcək və onlar yerə tökülməkdi. Bağdakı otlar teyxa su içindəydi və ayaq basan kimi yağış suları adamın ayaqlarına sıçrayırdı, elə bil suyun içində yeriyirdin. Andrey çox çalışdı ki, qızıyçün heç olmasa bir ovuc çiyələk yığsın, mümkün olmadı - əlinə gah çəhrayı-yaşıl, gah da çürümüş çiyələklər keçirdi. Birdən qəflətən geri çəkildi: yaşıl yarpaqlar arasında islanmış qaranquş balası gördü və ətcəbala qara bapbalaca ürkək gözlərini Andreyə dikdi.

- Sveta!

Andrey arvadını çağırdı və otluğun arasını əliylə yoxladı. Və indi aydın gördü ki, iki qaranquş ətcəbalanın başının üstündə həyəcandan çığıra-çığıra uçur. Yerə düşmüş yuvalarından bir parça yarımdairəvi torpaq qalağı qalmışdı, elə bil divara hörülmüş bir neçə cərgə muncuq idi.

- Nə var? - arvadı soruşdu.

- Bura bax.

Andrey yarpaqları araladı.

- Yazıq, - deyə arvadı ətcəbalaya sarı əyilib şəfqətlə dilləndi.

- Bəlkə, o, tək deyil? Adətən qaranquşlar dörd-beş bala çıxardır.

Başladılar axtarmağa, lakin heç nə tapmadılar.

- Görünür, pişik yeyib. - Arvadının səsində təəssüf hissi duydu.

- Bizim pişik? - kişi qeyri-ixtiyari soruşdu. Bu sualın heç yeri də deyildi.

- Get özündən soruş! - arvadı zəhərli cavab verdi. - Gedim Katyanı çağırım.

- Amma o biri balalar barədə ona bir söz demə.

Avtoqəzadan sonra ilk dəfəydi ki, Katya gülürdü. Yox, bu, hətta gülüş də deyildi- qızın yalnız dodaqlarının qıraqları qaçdı, gözləri isə gülmürdü! Onun baxışları sevincdən təəccüb doğdu; bu, qəflətən və yaxşı baş verdi. Balaca quşcuğaz qorxmuşdu, üzülmüşdü və birdən-birə adi oyuncağa döndü. Lakin bircə dəqiqəlik, çünki qız:

- O, burda yaşayır? - deyə soruşdu.

Andrey arvadına çöndü və cavab verməzdən qabaq bir qədər susdu.

- Yox, yuvasında.

- Bəs yuvası hardadı?

- Ordaydı, bax, damın qırağında. Amma yerə düşüb, dağılıb.

- Dağılıb? Bəs indi o, harda yaşayacaq?

Yaşamaq! Onun üçün yaşamaq necə də sadə bir şeydi!

- Bəlkə, onu açıq yerə gətirək, hə? - arvadı inamsız təklif etdi. - Bəlkə, qaranquşlar onu burda yemləyəcəklər?

Andrey başını buladı.

- Çətin. Sən yerdə qaranquş görmüsən heç? Bəs pişikləri fikirləşmirsən? Elə bağdan çıxan kimi onun başının üstünü alacaqlar.

- Gəl onu evə aparaq! - Katya ucadan təklif elədi.

- Bəs onu necə yedizdirəcəyik? Axı o, lap körpədir.

- Birtəhər çəmin taparıq!

Çox keçmədi ki, arvadı ölü milçək gətirdi, onu quşçuğazın dimdiyinə dürtdü, lakin ətçəbala ölü milçəyi, deyəsən, möhkəmcə sıxdı, vəssalam.

- Görürsən, səni öz anası kimi qəbul eləmir, - kişi istehzayla güldü.

- Al, özün ver. Amma sən qaranquşa yox, daha çox qartala oxşayırsan.

Bunu ərinin burnuna görə deyirdi.

Andrey quşcuğazın qabağında əllərini sanki zarafatla yellətdi və görünməmiş hal baş verdi: quşcuğaz dimdiklərini geniş araladı, gözlədi, yox o gözləmirdi, o, yemək tələb edirdi!

Qaranquş balasının sonrakı taleyi həll olundu.

Onun üçün tort qutusundan yuva düzəltdilər. Qayınananın deyinməsinə baxmayaraq, köhnə balışlardan birini yırtıb toyuq tüklərini çıxartdılar, onları qutunun içinə yığdılar. Quşcuğazı qutuya qoyub üstünü əsgiylə örtdülər. Ev soyuq olmasa da, ətcəbala qurumurdu ki, qurumurdu. Qabağına oyuncaq boşqabın içində ölü milçəklər qoydular, amma quşcuğaz onları görmədi. Katya buna görə hətta sevindi. Qız israrla dedi ki, yalnız o özü toppuş əllərini quşcuğazın dimdiyi qarşısında yellədəcək, bu qara canlı məxluqcığaza görə məsuliyyət daşımaq onun xoşuna gəlir. Bu hərəkətlə quşcuğazı çox asanca aldatmaq olur, hər dəfə dimdiklərini geniş aralayır. Qız dirildi, sanki hərəkətə gəldi, başladı tez-tez gülümsəməyə.

Neçə gün idi ki, günəş görünmürdü, görünür, havanı kimsə lənətləmişdi. Onlar evdəki milçəklərin, demək olar ki, hamısını tutdular və qaranquş balasını islanmış çörəklə birlikdə yemlədilər.

Bir dəfə yatmazdan qabaq axşam Katya soruşdu:

- Nə üçün ətcəbala hələ də islaqdır?

Atası susdu, anası cavab verdi:

- Bilmirəm. Sabah fenlə qurulamağa çalışarıq.

Lakin gecə quşcuğaz öldü. Bunu səhər bildilər. Katya hələ də yatmışdı. Sanki quşçuğaz da yatmışdı, lakin onun xırda başı əyilmişdi, boynu gözlənilmədən çox uzanmışdı.

- Aman Allah! - Andrey qızını durquzmamaq üçün yavaşça yataq otağından mətbəxə keçdi.

- Bəs indi neyləyəcəyik? - arvadı soruşdu.

Əri çiyinlərini çəkdi.

- Qızı birtəhər hazırlamaq lazımdı...

- Sən ona həqiqəti söyləmək istəyirsən? Bilirsən nolar? Bu qədər həngamədən, sarsıntıdan sonra bu xəbər ona daha bir zərbə olacaq.

- Bəs ona nə deyək?

- Bilmirəm... Deyək ki, qaranquş balası uçub getdi...

- Bura bax, uşaq sən deyən də sadəlövh deyil.

- Onda deyərik ki, qorxduq ki, ətcəbala ölsün, buna görə də onu başqa yuvaya qoyduq.

- Bəs niyə qabaqcadan ona heç nə deməmişik? Onu özümüzlə aparmamışıq?

Arvadı başladı narahat olmağa. Əsəbiləşirdi. Elə bil əri yalandan, onun acığına hər sözünə etiraz edirdi.

- Yaxşı, özün bir şey fikirləş! - deyə arvadı acıqla bildirdi.

- Məncə, biz ona həqiqəti deməliyik.

- Nə?

- Yaxşı olar ki, düzünü deyək.

- Yaxşı olar? Yenə özünə qapılsın, yenə bütün günü ağzına su alsın, hə? Yaxşı olar? Bu da sənin həkimlərin! Qızınızı kəndə aparın! İşə bax da!

- Axı niyə belə danışırsan?

Andrey çalışırdı ki, mülayim olsun, mübahisə etmək istəmirdi, hətta gülümsəyirdi, lakin məhz bunu etmək lazım deyildi.

- Sənə nə var, gülməli gəlir sənə! Sən elə həmişə beləsən, daşdan səs çıxar, səndən yox! Əlbəttə! Axı sən yalnız özün barədə düşünürsən: bircə qızın səndən inciməsin, nə bilim bircə...

- Bəsdi.

- Nə bəsdi! Sən ki onu yalnız bazar günləri görürsən!

- Mənim işim olur!

- Əlbəttə, işin olur! Sənə iş, mənə də uşaq! Gəlirsən, uşaqla şirin-şirin danışırsan, sən olursan yaxşı, olursan ən sevimli! Ata, olar? Olar. Bu olar? Olar. O olar? Olar. Hər şey olar! İstəyirsən yad adamlarla balıq tutmağa

getmək? Buyur, get! Qızım, get! Onu nə üçün buraxdın? Nə üçün sən özün onunla getmədin?

Hiss etdi ki, içində nəsə sıxıldı, bax elə bu dəqiqə içində partlayış baş verəcək, açılıb çölə tökülləcək. Əvvəl-axır içindəki şey partlamalıydı, çölə çıxmalıydı. İndi bu hissi həmişəkindən daha çox anlayıb yaşadı. Bədbəxtlik onları birləşdirmədi, sanki rentgen kimi onların qəlbinin şəklini çəkdi, qoydu ortalığa – açıq-aşkar bilindi ki, onlar biri-birindən hələ də uzaqdılar, bir-birlərini axıradək başa düşmürlər.

O, nəyə ümid edir? Bəs o, özündən on yaş kiçik olan bu kənd qızından nə istəyirdi? Rejissor arvadı olmaq ilk vaxtlar qadına maraqlıydı, sonra gördü ki, yox, çox çətindi. Ona yaddır, nəhayət, onun bir vaxtlar möcüzə kimi təsəvvür etdiyi həsəd aparılası aləm deyil. Lakin məgər buna görə o günahkardır? Qadını təntənəylə gətirdiyi bu aləm çoxları üçün əlçatmaz və sirli görünürdü; bu aləmdə aktyorlar, artistlər, rəssamlar yaşayırdı; burda təkcə bayramlar olmurdu, həm də adi həyat olurdu, adi günlər, cansıxıcı yeknəsəklik və tənhalıq baş alıb gedirdi, daim maddi çətinliklərlə yaşamalı olurdular... bütün bunlara görə günahkar odur məgər?

Birdən qapı açıldı və ayaqyalın, topuqlarına qədər uzun rəngli gecə xalatı geyinmiş qızı yavaşca mətbəxə girdi. Onun balaca ovcunda sinəsinə sıxdığı qaranquş balası vardı, quşcuğazın xırda başı əyilmişdi.

- O ölüb, - qızı astadan bildirdi.

Pəncərə şüşəsində atılıb-düşən milçək göründü, sükutu milçəyin vızıltısı pozdu.

- Onu dəfn eləmək lazımdı, - qızı, nəhayət, dilləndi və bu anda uşaq valideynlərinə yaşından tamam böyük kimi göründü, özləri isə qızla müqayisədə başlarını itirmiş sadəlövh uşağa döndülər.

Xoşbəxtlikdən səhər yağış kəsmişdi və təxminən saat onda onlar beli götürüb bağa getdilər. Qayınana bağda alaq vururdu, onları gördü, belini dikəltdi, amma bir söz demədi: bəlkə də, onlar uzaqda idilər, ona görə heç nə demədi, bəlkə də, hər şeyi başa düşmüşdü. Qız bağın qırağında qəbirin yerini özü göstərdi, onu qazmağı isə atasına etibar etdi. Təəccüblü olsa da özünü sakit aparırdı, ancaq toyuq tükləri arasında yatan quşcuğazı qutudan çıxarıb qəbirə qoyanda gözləri kədərli görünürdü.

- İstəyirsən sənə tutuquşu alaq? - anası qızından soruşdu.

- Yox, - uşaq yavaşca cavab verdi.

- Niyə?

- Biz harasa getməli olsaq, yazıq tək-tənha qalar, o da ölə bilər.

Ertəsi gün hava açıldı. Günortaya yaxın qərb tərəfdə göy üzü duruldu; sanki hansısa gözəgörünməz əl boz qara bulud topasını çəkib araladı, gün işığı göründü.

Qaynana qonşu uşağının əlindən tutub içəri gətirdi.

- Elə hər gün məndən soruşurdu ki, Katya nə vaxt gələcək. İndi isə utanır gəlməyə...

Oğlanın adı Anton idi. O, Katyadan bir yaş kiçik idi. Onlar ötən il, Katyanın Minskiyə qayıtmasından bir gün qabaq tanış olmuşdular,.

- Gedək, sənə qaranquş balasını harda basdırdığımızı göstərim!- qız oğlana dedi.

Anton heç nə demədi, sadəcə itaətlə qızın dalınca düşüb getdi.

Andrey siqaret götürdü. O, həyətdə siqaretini sümürə-sümürə bağın qırağına tərəf baxırdı. Uşaqlar quşcuğazın qəbrinin böyründə çömbəlib oturmuşdular. Katya oğlana çox ciddi şəkildə nəsə danışırdı, gah əllərini açır, gah da yuxarı qaldırırdı. Anton da əllərini dizlərinin üstünə qoyub sakitcə qulaq asırdı. O, qızı dərhal böyük kimi qəbul eləmişdi və görünür, qız nə arzulasaydı, onu dərhal yerinə yetirməyə hazır idi.

Siqaret kötüyü çəmənliyə düşdü və bir andaca günəş şüalarının işıqlatdığı qızılı su hörümçəkləri həyəcanla dağılışdılar.

İlahi, o, bu mənzərəni çoxdan idi ki, görmürdü...

Tərcümə etdi:
Kamran Nəzirli

İsikava TAKUBOKU
(20.02.1886 — 13.04.1912)

İsikava Takuboku yeni yapon şeirinin yaradıcısı sayılır. Yaponiyanın ən sevimli şairlərindən biri olan İsikava Takuboku cəmi 27 ildən az ömür sürsə də, onun şeirləri, romanları, məqalələri və gündəlikləri XX əsr yapon ədəbiyyatının qızıl fonduna daxil olub.

İsikava Takuboku Yaponiyanın uzaq şimalında yerləşən İvate əyalətində Sibutami kəndində doğulub. Atası buddist məbədində ruhani olub. Morioka qəsəbəsində məktəbdə oxuyarkən Yesano Xirosinin şeirlərinin təsiriylə özünü ədəbiyyata həsr etməyi qərara alıb. Burada o, "Yeni poeziya cəmiyyəti" (Sinsiya) üzvləriylə tanış olub. Bu cəmiyyətin rəhbəri Yesano Xirosi, ruhu isə onun arvadı, məşhur şair Yesano Akiko idi.

1902-ci ildə 16 yaşlı İsikava Tokioya yola düşür, amma burdan İvateyə qayıtmalı olur. Bu vaxtlar o, yeni formalı şeirlər (sintaysi) yazmağa başlayır. Bu şeirlər o zamann ən yaxşı ədəbi jurnallarından biri bütün Yaponiyanın oxuduğu "Yeni poeziya cəmiyyəti"nin orqanı olan "Medzö"da ("Dan ulduzu") çap olunur. Bu yeniyetməlik ehtirasıyla yazılmış romantik şeirlər sonradan toplanaraq 1905-ci ildə "Canatma" adıyla nəşr olunur.

Bundan sonra İsikava yenə Tokioya yollanır, burada yeni bir ədəbi cərəyan olan naturalizmin nümayəndələri ilə tanış olur və o ruhda nəsr yazır. Bu zamanlarda Takuboku qəzet müxbiri kimi Xokkayado adasına gedir, lakin pulsuzluq və adada yayılan vərəm xəstəliyi onu Tokioya dönməyə məcbur edir. Romantik üslubda yazdığı şeirlərini jurnallara təklif edir, lakin onu çox az çap edirlər. "Subaru" jurnalında bir neçə dəfə çap olunur, bu şeirləri də sərt tənqidə məruz qalır.

Bundan sonra o yenə ənənəvi tanka janrında yazmağa başlayır. Köhnə formaya tamamilə yeni nəfəs gətirərək gündəlik həyatın kədər və iztirablı yaşantılarını qələmə alır. Bu dövrün şeirləri 1910-cu ildə "Bir ovuc qum" adıyla çap olunur. Nəhayət, şairi "Asaxi Simbun" qəzetində korrektor kimi işə götürürlər və ilk dəfə olaraq maaşla işə düzəlir. 1909-cu ildə o, poeziya haqqında öz təcrübəsinə əsaslanaraq yazdığı müasir poeziyanın prinsiplərini şərh edən "Yeməli şeirlər" adlı esse çap etdirir.

1912-ci ildə İsikava Takuboku kasıbçılıq içində vərəm xəstəliyindən dünyanı tərk edir. Şairin vəfatından sonra onun "Kədərli oyuncaq" adlı ikinci tanka kitabı çapdan çıxmış və yapon oxucularının sevimli kitabı olmuşdur. Orda müəllifin son illərdə və aylarda yazdığı şeirlər toplanmışdır.

İsikavanın 1909-cu ildən başlayaraq yazdığı "Latın qrafiksında yazılmış gündəlik" Yaponiyada çox məşhurdur. Şairin ölümündən sonra bütün Yaponiyada İsikava Takubolunu sevənlər klubu yaranmış və hələ indi də fəaliyyətdədir.

Beləcə, sağlığında layiqli qiymətini almasa da, Takuboku İsikava ölümündən sonra nəinki Yaponiyanın, dünya poeziyasının klassiklərindən biri kimi təsdiqini almışdır. Isikavanın şeirləri yapon miniatürlərini xatırladır. Bu qısa, yığcam şeirlərdə sözə son dərəcə qənaət və ehtiyatla yanaşma var. Bir neçə cizgi ilə bitkin bir lövhə cızmaq, lirik qəhrəmanın duyğularını oxucuya ötürə bilmək poetik ustalıqdan irəli gəlir. Əksər şeirlərindən həzin bir kədər süzülən şair, sanki poetik duyğuları dərinlik və genişliyiylə zamanın damla tutumunu okean qədər genişləndirməyə can atır. Qısa ömründə əbədiyyətin yaşantısını duymağa cəhd edir. Isikavanın şeirlərində duyulan tragizm, səma əlçatmazlığıyla torpaq yaxınlığı kimidir.

Onun şeirlərindən nümunələri Sultan Mərzilinin tərcüməsində oxuculara təqdim edirik.

YENİ PAYTAXT

Tezliklə dünyada hərb olacaq, hərb!
Səməndər quşutək odlar içindən
Qanadlanıb dərd
Dəstə-dəstə uçan gəmilər ilə
Silib şəhərləri döndərər külə!
Çox uzun sürəcək, o hərb, çox uzun!
Yanıb məhv olacaq yarıdan çoxu
İnsanlardan kül və sümük qalacaq.
Sonda amma,
Sonra amma,
Eh, harda bəs sonda
Biz salarıq nə vaxt
Yeni şəhər, ya paytaxt
Tarixin xarabalığında,
Uydurmada,
Bəlkə, sevgi sorağında?
Yox, yox! Yerdə,
Yalnız burda, bu yerdə!
Bu sərhədsiz fəzaların havasında,
Bu hüdudsuz maviliyn səmasında!

AEROPLAN

Bax orda
Uca mavi səmada
Bu gün yenə uçur aeroplan.

İşdən yalvar-yaxarla
Bir gün qalan bir uşaq
Dincəlmədən çalışır
İngilis dilini kitabdan
Öyrənmək üçün
Vərəmli anasıyla
Yaşadığı daxmada...

Çoxdandır yapışır
Ağırlaşan göz qapaqları
Yorğun gözlərinin üstündə...

Bir bax, yenə orda,
Uca mavi səmada bu gün
Uçur yenə aeroplan.

***

Ey alov kimi al rəng!
Dünyamız necə şevinclidir
Al rəngə boyananda!
Çiçək, qadın və bayraq,
Bir də tökülən al qan!
İntəhasız geniş çöllərdəki qürub,
Döyüşdən sonrakı dəniz dalğası!

TANKA (BEŞLİKLƏR)

***
"Yalnız bunun üçünmü
Ölmək?"
"Yalnız bunun üçünmü
Yaşamaq?"
Burax, burax bu boş söhbəti...

***
Qəlbim rahat olsun deyə!
Düşündüm gümanımda -
Elə bir iş tapasan,
"Fərəhindən ölməsən
Onu bitirən anda"...

***
Bir yaş damlası
Düşdü,
Nəm çəkdi qumlar.
Damla yaşda
Nə boyda ağırlıq var!

***
Elə bil hardasa
Ahəstə ağlaşırlar
Cırcıramalar...
Ruhumda mənim
O cürə kədər var.

***
Ah, necə qəmlisiniz siz,
Ey cansız qumlar!
Ovcumdan qaçaraq
Astadan pıçıldaşaraq
Axırsız barmaqlarımın arasından...

***
Yüz dəfə
Sahilin qumlarına
"Böyüklük" heroqlifini yazdım
Və ölüm fikrini başımdan atıb
Yenidən evə döndüm.

***
Qumlu təpədə
Uzandım uzun zaman
Üzüm üstə,
Uzaq ağrısını xatırlayaraq
İlk məhəbbətin.

***
Göz yaşları, göz yaşları...
Sizdə nə möcüzə vardır!
Göz yaşıyla yuyulan
Qəlb
Yenə sevincə hazırdı.

***
Ey vətən göyləri,
Sən nə uzaqsan!
Tək-tənha
Ən uca dama qalxdım
Və kədərlə endim aşağı.

***
Uzun bir
Öpüşlə
Ayrıldıq biz.
Bayırda geçə yarıdır,
Dan yeri işıqlanır.

***
Payız səması
Bu başdan o başa bomboş...
Kölgə də görünmür heç.
Sən necə tənhasan, səma!
Kaş bir qarğa uçaydı!

***
Şimal sahilində
Dəniz qoxulu küləklər
Dəstələnib uçan yerdə
Sən yenə gül açdınmı bu il,
Həmərsin kolu?!

***
Yerlə göyün arasını
Doldurub daşır
Ay işığıyla,
Kədərim,
Bu payız gecəsi.

***
«Demək, daha siz
Yaşamaq istəmirsiz?!» -
Soruşdu ciddi həkim.
Susdu, ona
Cavab vermədi qəlbim.

***
Yad ellərdə
Dağlar oğlu necə ki
Xatırlar öz dağlarını,
Eləcə qəmli-qəmli
Düşünürəm səni...

Tərcümə:
Sultan Mərzili

NƏSR

HİMNƏ OYNAYAN GƏLİN

Ramilə QURBANLI

Onu ilk dəfə görəndə çox gənc idim. O da gənc idi, bəlkə də, həmyaşıd olardıq. Masmavi gözləri vardı, boyun-boğazına, üz-gözünə kortəbii dağılmış saçları qızılı rəngə çalırdı. O qədər gözəl idi ki, xəyalən saçlarına, üz-gözünə, üst-başına əl gəzdirib, sığal verəndən sonra qarşımda qənirsiz gözəl bir cuvanəzən dayanırdı. Qızlığı ilə gəlinliyini ayırd etmək çox çətindi, ağappaq baldırları, yarıaçıq sinəsi, çılpaq bədənə geyindiyi nimdaş don, əslində, çox şey deyirdi… həm də bunlar hamısı hələ heç nə demək deyildi...

Həmyaşıdımın adamı valeh edən gözəlliyinə qibtə edir, ağılsızlığına yanırdım. O gözəllik ki küçələrdə onun düşməninə, qatilinə çevriləcək, İlhai, onu bu bədbəxtə niyə verirdin? - deyə öz aləmimdə Tanrıya sual edirdim.

90-cı illərin ortalarında Bakıda metro stansiyalarda tez-tez Azərbaycanın himnini oxuyub oynaya-oynaya qatardan-qatara keçən bu gənc qadın uzun müddət fikirlərimə hakim kəsildi. Hər gün metroya düşəndə gözüm onu axtarırdı, heç nə, sadəcə ona baxıb, taleyi, həyatı, gözəlliyi haqqında özüm üçün nağıllar uydurmaq mənə maraqlı idi. Və uzun illər keçəndən sonra bu marağımın niyə ona yaxınlaşıb söhbət edəcək qədər olmadığı üçün özümü qınayacam. Sonsuz kədər hopmuş mavi gözləri gözlərim önündən çəkilməyəcək, hər yerdə, hər vaxt onu axtaracam, bəlkə, bir gün qarşıma çıxar - deyə ümid eləyəcəm.

Qadının perronda qol qaldırıb oynamağına yığışıb baxırlar, əl çalır, gülür, ələ salır, bir az da havalandırırdılar. Hərdən düşünürəm ki, indiki yaşımda-başımda olsaydım, yaxınlaşıb onun qolundan tutub çəkərdim kənara, belə eləmə, deyərdim, dərdi ilə maraqlanardım, qayğı göstərərdim. Bəlkə, heç dəli deyildi, özünü dəliliyə vurmuşdu, belə yaşamaq ona daha rahat idi bu "dəli" cəmiyyətdə?..

Eh, nə bilim, indi də o qədər küçələrə düşən, küçələrə düşmə ərəfəsində olan, içindən hayqıran kəslər var ki ətrafda, onlar üçün neyniyə bilirəm ki, baxıb köks ötürməkdən qeyri…

Və bir gün təsadüfən mənə belə bir hekayət, həyat hekayəti danışdılar.

Hekayət elə-beləcə də başlayırdı: yadınızdadır, 90-cı illərdə metroda himnə oynayan bir qadın vardı…

…Onu hospitala gətirəndə hələ nəfəs alırdı. Lay divar kimi oğlandan qalan gəlib-gedən zəif nəfəs idi, o da hospitalın qapısından xərəkdə içəri keçər-keçməz dayandı. Bütün vücudunda tanınılası bir yeri qalmamışdı, param-parça idi insan övladı. Sifəti heç görünəsi halda deyildi, onu daşıyanların da fikrindən "bunun yaşamağındansa, ölməyi yaxşıdır" – deyə ağrılı bir fikir keçmişdi.

İllərin həsrətindən sonra sevgilisinin vüsalına qovuşmuşdu. Döyüşlər başlayandan cəbhəyə gəldiyi üçün qız onu çox gözlədi. Hər dəfə bir-iki saatlıq komandirdən icazə alıb, görüşünə gedəndə, qız gözlərinin yaşını sel kimi axıdırdı: "Anam deyir, adam nə qədər nişanlı qalar, camaatın üzünə baxa bilmirəm".

Axır ki, toy günü təyin olundu. Döyüşlərin ortasından çıxıb, bəy masasına oturmalı oldu oğlan. Toydan sonra cəmi üç gün evdə qala bildi, dördüncü gün silahını götürüb, döyüş yoldaşlarının yanına tələsdi, onlar orda döyüşürkən yumşaq yorğan-döşəkdə xumarlanmağı özünə haram bildi.

Bu gün, yəni tanınmaz hala düşmüş meyidi meyitxanaya düşən gün toylarından 20 gün keçirdi. Hospitalın qarşısında əlixınalı gəlin fəryad qoparmışdı. Kimsə ona ərinin şəhid olmasını çatdırmışdı: "Verin, aparım" – deyə qışqırırdı. Elə bil ətrafda hər kəs onun nakam, vüsalının yalnız dadına baxmağa macal tapdığı sevgisinin düşməni idi.

Şəhidi ona vermirdilər. Tabut hazırlanmalı, meyidi qoyub, tabutu mismarlamalı, üstündə də bir-neçə əsgərlə ailəsinə təhvil verilməlidir ki, açmağa qoymasınlar, ailə əzizini bu halda görməsin.

Gəlinin qışqırığı birdən-birə azaldı, kəsildi və həzin-həzin musiqiyə çevrildi. Oxuyurdu, əllərini açıb havaya Azərbaycanın himnini əvvəlcə həzin, sonra bütün səsi ilə ifa edirdi, təntənəli, pafoslu. Hərdən nəfəsi avazıyır, sonra elə bil yenə, təzə nəfəs gəlirdi ona.

Şəhid evinə aparıldı, onu dəfn elədilər, gəlini isə hospitalın qarşısından aralamaq olmadı, bayaqdan "verin" - deyə fəryad qoparan gəlin, ərinin nəşi qoyulmuş tabuta gözucu nəzər yetirib öz "işinə" davam etdi. Gecə-gündüz oturub himn oxuyurdu. Hərdən uzun-uzadı susur, sonra yenə təkrar oxuyub, qol açıb oynayırdı. O torpaqlar yağmalanın-caya qədər…

Metroda gördüyüm, gözəlliyinə heyran olub, ağılsızlığına yandığım həmin o gəlin imiş, hospitalın qarşısında himnə oynayan gəlin.

Onu ilk dəfə görəndə çox gənc idim. O da gənc idi, bəlkə də həmyaşıd olardıq. Masmavi gözləri vardı, boyun-boğazına, üz-gözünə kortəbii dağılmış saçları qızılı rəngə çalırdı. O qədər gözəl idi ki, xəyalən onun saçlarına, üz-gözünə, üst-başına əl gəzdirib, sığal çəkəndən sonra qarşımda qənirsiz gözəl bir cuvanəzən dayanırdı. Qızlığı ilə gəlinliyini ayırd etmək çox çətindi, ağappaq baldırları, yarıaçıq sinəsi, çılpaq bədənə geyindiyi nimdaş don, əslində, çox şey deyirdi… həm də bunlar hamısı hələ heç nə demək deyildi...

"Ulduz" jurnalı ilə AYB Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzinin birgə layihəsi

Müsabiqə yekunlaşdı (informasiya dəstəyi: ayb.az).

Nobel mükafatçısı, tanınmış Polşa şairi Çeslav Miloşun "Ars poetica" şeirini yeddi müəllif dilimizə çevirdi.

Şair-tərcüməçi Səlim Babullaoğlunun ekspert rəyini oxuculara təqdim edirik.

"Ulduz" jurnalının baş redaktoru Qulu Ağsəsə
və müsabiqədə iştirak edən bütün həmkarlarımıza!
Hörmətli baş redaktor!

Əvvəla, sizə təşəkkür edirəm ki, Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzi ilə birgə layihə kimi "tərcümə müsabiqəsi" keçirmək təklfini verdiz və sevinirəm ki, müsabiqə yekunlaşdı. Eyni zamanda müsabiqədə iştirak edən bütün həmkarlarımıza dərin təşəkkür edirəm.

Tərcümə sənəti ilə bağlı məşhur fikirlərdən biri budur ki, tərcümə - itkilər sənətidir. Bu sənət, xüsusən bədii mətn ikinci dildən çevrilirsə, daha böyük itkilər sənətinə çevrilmiş olur. Əlbəttə, biz müsabiqə üçün başqa mətn, yaxud rus şairlərindən birinin şeirini və ya hekayəsini seçə bilərdik, onda tərcüməçilər orijinaldan tərcümə etmiş sayılacaqdılar. Amma... İcazə verin, bu məqamda sizə niyə məhz bu şeiri və bu şairi seçdiyimizi izah edim. Bunun çox adi səbəbləri var. Müasir dünya ədəbiyyatı tarxində şairliklə bağlı, şeirlə bağlı fundamental, xalis şeirlər çox azdır. Əksəriyyəti ya səthidir, ya da poeziyadan daha çox nəğmədir. Əlbəttə, müsabiqə iştirakçiları mətnlə tanışdırlar və artıq bilirlər ki, görkəmli polyak şairi Çeslav Miloşun çevirdikləri şeirinin mətləbi həm bizim klassik şeirimizdə, həm də bütövlükdə klassik Şərq poeziyasında çox işlənmiş, çək-çevir edilmiş həmin mətləb haqqındadır. Nizaminin "şeirlərin ən yaxşısı onların ən yalançısıdır", Füzulinin "aldanma ki, şair sözü, əlbəttə, yalandır" və bu kimi başqa misallar yadınızdadır. "Ars poetica" ("Poeziya sənəti") şeiri məhz XX əsrin böyük bir şairinin, Qərb şairinin dilindən o böyük sələflərini və mətləbi dəyərli təsdiqdən başqa bir şey deyil. Amma onun dili, üslubu yenidir, çağdaş insanın, bizim daha çox həmmüasirimiz olan insanın danışıq və düşüncə tərzindədir.

***

Ədəbiyyat üzrə Nobel mükafatı (1980) Miloşa belə bir formulə, izah ilə verilmişdi: "çağdaş dünyada konfliktlər arasında param-

parça olan insanın gücsüzlüyünü, acizliyini qorxmaz öncəgörənliklə ifadə edən poeziyaya görə".

Bu gün də dünyamızın səhnəsi o qədər ürəkaçan deyil, həmin şeirin yazıldığı tarixdən (1968) bu yana ötən 3 il əskiklə yarım əsr ərzində dünyamızın səhnəsi daha ürəkağrıdıcı olub,insanlar fərd olaraq daha da gücsüzləşib, tənhalaşıblar.

Biz indi az qala III dünya mühairbəsinin astanasındayıq. Yazılmış bu qədər gözəl şeirlər, çəkilmiş gözəl rəsmlər, bəstələnmiş gözəl musiqilər, ağız dolusu danışdığımız elmi-texniki tərəqqi, görəsən, dünyanı və insanı niyə xilas etmir?

Bəlkə, o şeirlər və musiqilər dediyimiz, sandığımız qədər də gözəl deyilmiş? Bəlkə, biz yalan danışmışıq? Bəlkə, biz idarə olunmuşuq? Bəlkə, biz sevgi adıyla ehtirası, xeyirxahlıq adıyla gücü, alicənablıq adıyla miskinliyi vəsf etmişik. Bax, Miloşun şeiri bu haqdadır. Uzun ömr yaşayan (1911-2004), 1951-ci ildə vətənindən mühacirət edən şair 40 yaşından sonra daha çox mənəvi, dini və metafizik problemlər ətrafında düşünürdü. Çünki o anlayırdı poeziya – xilas edə bilmir. "Dini traktat" adlı poetik şedevrlərinin birində o niyə "dini-metafizik mövzulara yuvarlandığını" belə izah edirdi: "Belə bir traktatı cavan adamın yaza biləcəyini düşünmürəm. Amma onu da düşünmürəm ki, bunu ölüm qorxusu diktə edir. Coxlu cəhdlərdən sonra bu eləcə bir minnətdarlıqdır, həm də əsrimizin poetik dilinin mübtəla olduğu dekadansla vidalaşmadır. Bəs, niyə dini? İlk olan elə birinci də olmalıdır çünki. Birinci olan isə həqiqətdir. Və poeziya özünün şəffaf şüşəyə çırpılan hürkmüş quş davranışıyla sübut edir ki, biz fantasmaqoriya ilə yaşaya bilmirik..."

5 il əvvəl Miloşun "Ars poetica" ("Poeziya sənəti") birinci dəfə oxuyanda və tərcümə etmək qərarı verəndə çaşmışdım. Necə ola bilərdi ki, katolik və xrisitian mənsubu bir şairin şeiri "Quran" surəsi və ayələri ("Şüəra", 26/ 221-227) ilə bu qədər birəbir üst-üstə düşürdü? Yaddaşımızı "Quran"la təzələyək:

221 – (Ey müşriklər!) Şeytanların kimə nazil olduqlarını sizə xəbər verimmi?

222 – Onlar hər bir yalançıya, günahkara nazil olarlar.

223 – (Şeytanlar mələklərdən oğrun-oğrun) eşitdikləri (adda-budda) sözləri onlara təlqin edərlər. (Yaxud kahinlər şeytanların uydurmalarına qulaq asarlar). Onların əksəriyyəti yalançıdır!

224 – (Müşrik və kafir) şairlərə gəlincə, onlara yalnız azğınlar uyar!

225 – Məgər görmürsənmi ki, onlar hər bir vadidə sərgərdan gəzib-dolaşırlar? (Hər tərəfə meyil edir, birini yalandan mədh, digərini isə əbəs yerə həcv edirlər!)

226 – Və onlar etmədikləri şeyləri deyirlər! (Onların dediklərinin əksəriyyəti yalandır!)

227 – Ancaq iman gətirib yaxşı işlər görən, Allahı çox zikr edən və zülmə uğradıqdan sonra intiqamını alanlardan başqa!

İndi isə Miloşun şeirinin bir neçə məqamına baxaq:

"Odur ki, poeziyanı gözəgörünməzlərin (ruhların) diktə etdiyini söyləyənlər doğru deyir,

"və yəqin, onlar mələkdi" deyə düşünməklə hərçənd ki, mübaliğə edirlər..."

***

"Ağıllı adam da cinlərin meydanı olmağa razı olarmı;
özlərini sənin içində evlərindəki kimi hiss edirlər..."

Və nahayət, şeirin sonu:

"Bütün bu dediklərim, razıyam, şeir deyil,
Şeirlər nadir hallarda və istənilmədən yazılır,
çox böyük təzyiq altında və ümidlə ki,
bədxah yox, xeyirxah ruhların ötürücüləri olacaqlar..."

Görürsüz, Miloş sonuncu bəndin ilk misrasında "bütün bu dediklərim, razıyam, şeir deyil..." deyə yazır. Yox, bu qətiyyən

təvazökarlıq deyildi, Miloş tərəfindən öz yazdığının şeir, lap dəqiqi isə poeziya olmamasını söyləmək sadəlöhvlük olardı; o, fikir dəryasının elə bir dərinliyində üzürdü ki... Çeslav Miloş bunu, yəqin, ona görə yazırdı ki, o, şeirinin bədxah qüvvələrin ötürücülüyü ilə yazılan, bəh-bəh və sürəkli alqışlarla qarşılanan əksər şeirsəl mətnlərlə eyni sırada dayanmasını istəmirdi və dayanmadığını bilirdi (!). Başqa tərəfdən forma-metrika baxımından da Miloşun şeiri başqa ölçülü şeir idi.Yeri gəlmişkən, elə bu yerdə də şeir haqda düşüncələri saxlayıb müsabiqəyə təqdim edilmiş şeirlər haqda bəzi fikirlərimi bölüşmək istəyirəm.

Əvvəla, çox vacib bir qeyd: siz də bilirsiz ki, ya zəlzələdən, ya vəlvələdən təqdim edilmiş şeirin son 3 sətri təqdim edilməmiş, "düşmüşdü". Və həm baş redaktor, həm mən bu səhvi düzəltməyə çalışdıq, bu haqda sizlərə yenidən bilgi verildi. Bu bir az da özünəməxsus testə çevrildi. Yəni tərcüməçilərin heç biri özünə əziyyət verib internetdə Miloşla bağlı axtarış aparmayıb, şairin həm tərcümə etdikləri şeirinin tarixçəsi, həm də başqa əsərləri ilə tanış olmayıblar. Bunu etsəydilər: a) həmin şeirin başqa tərcümələri ilə tanış olacaqdılar; b) "düşmüş" 3 sətri görəcəkdilər....

Başqa tərəfdən, "bütün bu dediklərim, razıyam, şeir deyil..." deyən şairin şeirini nə qədər ustaca olsa və qulağa xoş gəlsə belə, heca və qafiyə ilə tərcümə eləmək doğru deyil. Bunu etməməklə tərcüməçi müəllifin "bütün bu dediklərim, razıyam, şeir deyil..." deyişinin ən az forma (l) tərəfinə əməl etmiş olacaqdı.

"Ars poetica" ("Poeziya sənəti") sərbəst şeirdir. Verlibrdir. O cür də tərcümə edilməlidir. Müsabiqəyə təqdim edilən tərcümələrn 3 variantı nə qədər istedadlı olsa belə (Nəsir Əhmədli, Həyat Şəmi və Nilufər Şıxlının tərcüməsində) hecaya və qafiyəli şeirə cəhddir, bu isə tərcümə üçün əsas götürülmüş mətnə "sadaqət"prinsipinin pozlumasıdır. Amma buna rəğmən deməyi özümüzə borc bilirik ki, Nəsir Əhmədlinin tərcüməsi heca və qafiyə ilə edilmiş tərcümələrin ən istedadlısı, ən uğurlusudur. Əlbəttə ki, bir daha təkrar edirik, hər üç tərcümə maraqlıdır, məqamları ilə gözəldir.

Digər tərcümələrdə də bəzən qafiyəyə (daxili qafiələnməyə) cəhd olsa da, onları verlibr hesab eləmək olar. Xatirə xanımın, Əvəz Nəbioğlunun, Hicran Hüseynova və Könül Həsənqulunun tərcümələri bu mənada orijinala daha sadiqdirlər. Hicran Hüseynovanın tərcüməsi Miloşun ifadə etdiklərini daha anlaşıqlı və lakonik ifadəsiylə diqqət çəkir. Könül Həsənquunun tərcüməsi formal, orijinalın məzmununa, verlibrə sədaqət baxımından yaddaqalandır. Əvəz Nəbioğlu və Xatirə xanımın tərcümələri əvvəlki tərcümələr kimi yalnız orijinala, verlibrə "sədaqətli" deyil, həm də Miloş poeziyasına xas olan çoxsözlülük baxımından da dəyərlidir.

Fikrimcə, həm Əvəz Nəbioğlunun, həm də Xatirə xanımın tərcümələrini müsabiqənin ən uğurlu tərcümələri hesab eləmək olar.

Hörmətlə, Səlim Babullaoğlu

Чеслав Милош
(Польша)

Я всегда мечтал о форме более емкой,
которая не была бы ни слишком поэзией, ни слишком прозой
и позволяла бы объясниться, не обрекая кого-то
автора или читателя, на чрезмерные муки.

В самом существе поэзии есть что-то неприличное:
из нас возникает вещь, а мы и не знали, что она в нас есть,
и вот моргаем глазами, как если бы выскочил из нас тигр
и стоял на свету, обмахиваясь хвостом.

Поэтому правильно говорят, что поэзию диктуют духи,
хотя преувеличивают, что это, наверно, ангелы.
Трудно понять, откуда берется гордость поэтов,
если им стыдно бывает, что видна их слабость.

Разве разумный человек согласится быть царством демонов,
правящих в нем как дома, говорящих многими языками,
и как будто им мало украсть и уста и руку,
пробующих для своей корысти менять его жребий?

Поскольку все больное в наше время ценят,
кто-нибудь посчитает слова мои шуткой
или что я придумал еще один способ
восхвалять искусство с помощью иронии.

Было время, когда читали только мудрые книги,
что сносить помогают боль или несчастье.
Это, однако, не одно и то же,что листать тысячи сочинений
прямо из психиатрической больницы.

А мир на самом-то деле иной, чем нам кажется.
И сами мы иные, чем бредим в беспамятстве.
Вот и хранят люди честное молчание,
тем самым снискав уваженье родных и соседей.

Польза поэзии та , что она напоминает нам,
как трудно оставаться собой, тем же самым,
ведь дом наш открыт настежь, в дверях нет ключа, гости
невидимые все время входят и выходят.

Все, что я здесь говорю, согласен, не поэзия.
Стихи же писать можно лишь редко и нехотя,
под невыносимым нажимом и только с надеждой,
что мы не злых, а добрых духов проводники.

Xatirə Xatunun tərcüməsi
(qalib)

"ARS POETICA"
("POEZİYA SƏNƏTİ")

Mən
daha tutumlu bir forma haqqında
düşünmüşəm həmişə...
Nə çox nəzm,
nə də çox nəsr olan,
Nə müəllifi , nə də oxucunu
hesabsız işgəncələrə məhkum etmədən
anladılan...

Nəsə ədəbsiz bir şey var şeirin qayəsində,
və içimizdə
hələ bu vaxta kimi
varlığından xəbərimiz belə olmayan
nəsə bir şey baş qaldırar...
və biz gözlərimizi qırparaq
içimizdən sıçrayıb çıxan pələngin
işıqda dayanıb quyruğunu yelləməsinə
baxarıq...

Bəlkə, elə buna görədir ki, deyirlər,
şeiri ruhlar diktə edər.
Bəzən də mübaliğəyə vararaq,
bunu mələklərin etdiyini söylərlər.
Anlamaq çətindir,
bu qədər məğrurluq hardandı şairlərdə?
Amma utandıqları zaman
zəifliklərı bəlli olar.

Məgər şüurlu insan
onu öz evi kimi idarə edən
Və müxtəlif dillərdə danışan
şeytanlar səltənətində olmağa razılaşarmı?
və sanki onlara
dilimizdən və əlimizdən oğurladıqlarının
taleyini dəyişdirdikləri yetmirmiş kimi...

Nəzərə alsaq ki, bizim zamanımızda
ağrılı şeyləri dəyərləndirirlər,
o zaman mənim sözlərim
sizə zarafat gələ bilər.
və ya mən kinayənin köməyi ilə
sənəti təbliğ etməyin yeni üsulunu
tapmışam, - deyə düşünərsiz...

Vaxt vardı ancaq
ağrı-acını, bədbəxtliyi aradan qaldırmağa kömək edən
müdrik kitablar oxunardı.
Bu isə dəlixanadan yazılmış
minlərlə məktubu varaqlamaqla eyni şey deyildi...

Dünya isə, əslində, bambaşqa imiş...
biz də başqayıq..
yaddaşsızlıqdan sayıqlayaraq...
bax beləcə
yaxınlarının hörmət və etimadını qazanaraq susqunluğu qoruyur insanlar...

Şerin xeyri
bizə özün olmağın çətinliyini xatırlatmaqdır.
Axı bizim evimizin qapılıarı
taybatay açıqdır
və daim gözlə görünməyən qonaqlar
girib-çıxır bura...

Razıyam, bütün burda söylədiklərim poeziya deyildi...

Əvəz Nəbioğlunun tərcüməsi

"ARS POETİKA"

Mən nə çox poeziya, nə də çox proza olan
Daha tutumlu, dolğun forma arzulardım həmişə.
Kimisə - müəllifi, ya oxucunu sonsuz əzablara
Düçar etmədən imkan verə fikir söyləməyə.

Nəsə xoşagəlməz bir şey var poeziyanın varlığının özündə,
Içəridən - varlığından xəbərsiz olduğumuz bir şey çıxır.
Döyürük gözümüzü, elə bil içimizdən sıçrayan şir
Aydınlıqda dayanıb quyruğunu yellədir.

Odur ki, nahaq demirlər: poeziyanı ruhlar yaradır.
Əslində, şişirdirlər, sanki bu, şəksiz, mələklərdir.
Anlamaq çətindir hardan gəlir şairlərin vüqarı,
Zərifliyi görünəndə utanıb qızarırkən.

Ona öz evindəkitək hökm edən min dildə danışanların
Həm dilini, həm əlini qəsb etdikləri azmış kimi
Şansını öz xeyrinə dəyişməyə çalışanların
Iblislər şahlığı olmağa aqil razı olarmı məgər?

Nə qədər ki, günümüzdə ağrılar qiymətdədir,
Kimsə mənim sözlərimi bir zarafat biləcək.
Ya ironiya vasitəsilə sənəti tərif üçün
Mən daha bir üsul icad etmişəm.

Vaxt vardı, oxunardı yalnız müdrik kitablar,
Ağrı, yaxud bədbəxtliyi silməyə kömək edir deyə.
Bu, əlbəttə, birbaşa dəlixanadan gələn
Minlərlə sicilləməni vərəqləmək deyil.

Bizə göründüyütək deyil, əslində, başqadır dünya,
Və biz özümüz də başqayıq, huşsuzluqda sayıqlamırıq.
Bax buna görə adamlar qoruyur ədəbli sükutu,
Bununla qazanırlar doğmaların, qonşuların hörmətini.

Poeziyanın xeyri odur- bizə "özün" olmağın
Necə çətin olduğunu xatırlatmasıdır.
Bununla belə, taybatay açıqdır bizim ev, açar yox qapılarda,
Gözəgörünməz qonaqlar hər vaxt girib-çıxırlar...

Burda nə ki söylədim, sizinlə razıyam, poeziya deyil.

Hicran Hüseynovanın tərcüməsi

ARS POETİKA

Daha dolğun bir forma axtarmışam həmişə -
nə həddən çox poeziya, nə həddən çox nəsr ola...
Oxucunu, ya yazarı əzab vermədən anlada.

Bir yaramazlıq var şeirdə nəsə: sanki daxilindəki pələng
şəstlə irəli atılır, quyruq bulayır
və sən xəbərsizdin indiyədək bu gücdən;
gözlərini döyürsən...

Yaxşı deyirlər ki, şeiri dedirdən ruhlardı,
düzdü, "yəqin, məələklərdi" deyəndə də şişirdirlər...
Amma bu da anlaşılmazdı: zəifliyi görünən an
xəcalət çəkən şairlər vüqarı hardan alır?

Razı olarmı ağlı olan,
razı olarmı qəlbinə hakim olan, neçə dildə danışan,
əlini, dilini, qismətini acgöz niyyətiyçün oğurlayan
iblislər şahı olmağa?..

İndi ki xəstələrə qiymət var bizim günlərdə,
yəqin, mənim də sözümü zarafat sayar kimsə...
ya da,.. ya da başqa bir yol bilirəm-
tərifləyək sənəti istehzayla, rişxəndlə.

Vaxt vardı ki, ağrını, bədbəxtliyi qoparan
o müdrik kitabları oxuyardılar ancaq.
Bu, eyni deyil hər halda
ruhi xəstəxanadan gələn minlərlə uydurmayla.

Kainatsa başqa cürdü, baxma,
bizə belə gəlir, elə biz də bir başqayıq,
huşsuz vaxtı sayıqlayan həmin sərsəmlər deyilik.
Susur,danışmır adamlar yadlar,doğmalar eşqinə...

Qapılar taybatay açıq-biri girir,biri çıxır hər zaman, görünmədən...
Ah,necə çətindi bu halda özünlə olub da baş-başa qalmaq...
Bunu xatırladır bizə poeziya, bax, budur onun xeyri...

Bütün bu dediklərimsə, razıyam, şeir deyil.

Nəsir Əhmədlinin tərcüməsi

"ARS POETICA"
("POEZİYA SƏNƏTİ")

Mən elə bir əsər sorağındayam,
Şeirlə hekayə dursun yanbayan.
Elə bir sadəlik marağındayam,
Nə yazan incisin, nə də oxuyan.

Şeir doğulanda incidir bizi,
Çıxır bətnimizdən üzündə qürur.
Heyrətlə döyürük gözlərimizi,
Sanki önümüzdə bir pələng durur.

Şeiri yazdıran şeytandır, şeytan,
Bir çoxları onu mələk sanırlar.
Bəzən utanırlar yazdıqlarından,
Bəzən də fəxr edib lovğalanırlar.

Kim istər, içində iblis gizlənsin,
Şeytana verilsin hökmdar taxtı?!
Sözü, əmələri daim izlənsin,
Yenidən yazılsın yazılmış baxtı?!

Sanmayın, zarafat etməkdir peşəm,
Pisə "yaxşı" deyib düşmüşəm dilə,
Ya da yeni üsul icad etmişəm, -
Öyürəm sənəti kinayə ilə.

Bir vaxt oxunurdu yaxşı kitablar,
Ağrılar, acılar çıxırdı candan.
Indi də minlərlə gözəl kitab var,
Dəlilər evində yatır haçandan.

Başqa cür görünür bizə bu dünya,
Tamam başqa cürük biz özümüz də.
Kim ki dinməz durur üzündə həya,
Hörmət sahibidir o, gözümüzdə.

Şeirin faydası bundadır yalnız, -
Deyir: "Fərd olmağın çətinliyi var.
Daim açıq olur qapılarınız,
Hey gəlib-gedirlər gizli qonaqlar".

Bilirəm, həqiqi şeir deyil bu,
Şair yaza bilməz əzab çəkməsə.
Bütün şairlərin birdir arzusu:
Xidmət etməsinlər təki İblisə.

Həyat Şəminin tərcüməsi

POEZİYA

Daha tutumlu bir yazı, daha da yığcam,
Nə çox poeziya olsun orda, nə də proza.
Yazmaq istədiklərimi bir yerə yığacam,
Nə oxuyan əzab çəksin, nə də ki yazan.

Nə qədər çirkinlik yağır şeirin üzündən,
Qaynağı bizdədir, heyhat, biz bilmirik bunu.
Açırıq gözlərimizi, şirə dönür həyat,
Bərk-bərk tuturuq dünyanın əyri quyruğunu.

Düz deyirlər, poeziya - ruhların diktəsi,
"İlham pərisi" adında uydurmalar da var...
Hardan gəlir şairlərə bunca qürur hissi?
Zəif görünər üzləri, bir az utansalar...

Ağlı başında olanın nəyinə gərəkdir,
İblislərin çarlığında yaşamaq istəyi?
Burda hər gün oğurlanan söz dolu ürəkdir...
Dəyişər sözə aldanan şairin taleyi.

Xəstələr nə qədər hörmət, dəyər sahibidir?
Kimsə mənim sözlərimi zarafat bilməsin,
Mən daha yeni bir üsul düşünmüşəm, budur:
İroniya qaldıracaq bu zərif sənəti.

Bir zamanlar yalnız müdrik kitablar var idi,
Bu kitablar qoruyardı bizi bəlalardan...
Lakin bu, o demək deyil, məcburuq oxuyaq
Dəlixanalardan çıxmış dəli misraları.

Bizim düşündüyümüzcə deyil heç də dünya,
Bəzən sayıqlamalarla itirdik qayğını,
Susmaq qızıldırsa, yəqin, bununla qazandıq
ən yaxın dostdan, qohumdan hörməti, sayğını.

Poeziyanın faydası, əlbəttə ki, vardır,
Dəyişməyək özümüzü, özümüzdə qalaq,
Gözəgörünməz qonaqlar hər gün girib-çıxır,
Evimizin qapıları açarsız və açıq.

(Razıyam, bu yazdıqlarım,
şeriyyatdan uzaq, canım!)...

Nilufər Şıxlının tərcüməsi

"ARS POETİKA"

Mən hər zaman arzu edib o üsluba can atdım ki,
Nə həddən-ziyadə nəzmə, nə də nəsrə bənzəməsin.
Ürəyimi boşaltmağa imkan verən bir yol açsın,
Nə müəllif yorulmasın, nə oxucu inciməsin.

Poeziya məfhumunun mahiyyəti açıq-saçıq:
İçimizdən yaranır o, biz bilmədən, biz duymadan.
Sanki bir göz qırpımında pələng kimi əl-qol açır,
Quyruğunu oynadaraq, çəkinmədən gur işıqdan.

Odur, deyirlər ki, şeiri yazdıran uca ruhlardır,
Hətta bəzən şişirdərək mələklərə şam edirlər.
Qəribədir, şairlərdə bunca qürur haradandır,
Faş olan zəifliklərilə utanc duyurlarsa əgər?

Söylə, axı ağlı olan bəsləyərmi öz canında
Varlığına hökm eyləyən yüz dil bilən iblisləri?
Sahib çıxmaq azmış kimi dodağına, əllərinə,
Keflərinə düşən zaman dəyişdirirlər zərləri...

Bəlkə, kimsə bir zarafat biləcəkdir sözlərimi,
Bu zamanın adamları pis şeyi də yaxşı bilir.
Ya da, bəlkə, düşünəcək, elə bu da bir üsuldur,
İstehzayla, məzhəkəylə incəsənət vəsf edilir?!

Zaman vardı, zövq alaraq gözəl müdrik kitablardan
Sinə gərib çətinliyə dağıdardıq acıları.
Onlar hara, bunlar hara... - bu indiki qalaq-qalaq,
Bir zülmlə vərəqlənən dəlixana yazıları!

Amma həyat bambaşqadır – görünməyən, bilinməyən!
Elə biz də - Biz deyilik - xəyallarda sayıqlayan!
Qohumların, qonşuların hörmətini qazanmaqçün
İnsanlar da ayrılmayır qoruduğu lal sükutdan.

Şeiriyyatsa hər bir zaman bizə Bizi xatırladır,
Olduğuntək qala bilmək çox çətindir lap əzəldən!
Çünki könül məskənimiz - açarsız bir qapı kimi...
Aman yoxdur görünməyən qonaqlardan və get-gəldən!

...Burda hər nə demişəmsə, çox uzaqdır şeiriyyatdan...

Moskva

Könül Həsənqulunun tərcüməsi

Ars Poetica

Daha həcmli quruluş arzulamışam həmişə.
Belə ki, nə aşırı poeziya olsun, nə də aşırı proza,
Anlaşılsın rahatlıqla və heç vədə
Müəllifi, oxucunu düçar etməsin əzaba.

Bir ədəbsizlik vardır poeziyanın mahiyyətində:
Elə şey törədir bizdən, heç ummazdıq ki, bu varmış bizdə,
Ardınca lal-mat dayanıb döyürük gözlərimizi,
İçimizdən işıqlığa quyruğunu yelləyən pələng çıxarmış kimi.

Odur ki, düz deyirlər, poeziyanı məhz ruhlar edir diktə,
Baxma ki, çoxları uydurub ruhun adını mələk qoyur.
Anlamaq olmur şairləri zəifliyini ar biləndə,
Axı hardandır onlarda bu qədər qürur?

Arif insan istərmi məgər meydan olsun iblislərə,
Gəzsinlər onu öz evi kimi iblislər, yüz dildə danışsınlar içində,
Dilini, yazan əlini oğurlasınlar, bu da azmış kimi
Öz qərəzlərinə fəda edib dəyişsinlər də onun taleyini?

Madam ki, dəyər verirlər bu gün hər nasaz sözə,
Mənim bu sözlərimi zarafat sanacaq kimsə,
Yaxud düşünüləcək, daha bir üsul icad etmişəm ki,
Məzəmmətlə mədh edim incəsənəti.

Vaxt vardı ancaq müdrik kitabları oxuyardılar,
Dərdlər ovunardı o an, qəm olardı tar-mar.
Bu, indiki kimi deyildi ki,
Oturub vərəqləyəsən dəlixanada yazılan min şeiri.

Göründüyü kimi deyil dünya, əslində.
Sayıqladığımız kimi deyilik, fərqliyik biz özümüz də.
Beləcə qoruyur insanlar öz aralarında dürüst sükutu,
Bununla da rəğbət qazanırlar, doğrusu.

Daim olduğumuz kimi qala bilməyin çətinliyini
Bizə xatirlatmasındadır poeziyanın xeyri.
Axı evimiz də açıqdır taybatay, açar yoxdur qaplarda,
Qeybdən enən qonaqlar girib-çıxırlar rahatlıqla.

Razıyam, burda dediklərim deyildir poeziya.

ROMANTİK DÜŞÜNCƏLƏR POEZİYASI

Asif RÜSTƏMLİ,
professor

Qədim və zəngin ənənələrə, çoxqatlı ədəbi yaradıcılıq üslubuna, poetik düşüncələrin forma və məzmun vəhdətinə, müasirlik duyğusuna köklənən Azərbaycan poeziyasının çağdaş reklasasiyasını iddia etmək, sabahına, gələcəyinə skeptik yanaşmaq, fikrimcə, mümkünsüzdür. İstedadla yazılmış hər bir bədii nümunə, şeir parçası milli ədəbi xəzinəmizi, könül dünyamızı zənginləşdirən mənəvi sərvətdir. Həcmindən, vəznindən, janrından asılı olmayaraq hər bir xalqın möhtəşəm ədəbiyyat sarayı nadir ədəbi əsərlər üzərində ucalır. İzzəddin Həsənoğlu (XIII əsr) "Apardı könlümü bir xoş qəmərüz canfəza dilbər" qəzəli ilə Azərbaycan ədəbiyyatı tarixində yaşamaq hüququ qazanıb. Şairlərimizdən hər birinin elə şeiri var ki, onun yaradıcılıq rəmzi, həyat manifestidir. Abbas Səhhətin "Vətən", Cəfər Cabbarlının "Ana", Səməd Vurğunun "Azərbaycan", Mikayıl Müşfiqin "Yenə o bağ olaydı", Rəsul Rzanın "Rənglər", Əli Kərimin "Qaytar ana borcunu" şeirləri Azərbaycan ədəbiyyatının inciləridir.

Sabir Abdinin bədii yaradıcılığına bu aspektdən yanaşdıqda, əsərlərini çağdaş ədəbi tənqidin xəlbirindən keçirdikdə üst qatda bütün parametrləri – sənətkarlıq, mövzu və məzmun etibarilə duruş gətirən, bənzərsiz düşüncə tərzinin özəlliklərini, fərdi yaradıcılıq üslubunun palitrasını, fəlsəfi fikrin çoxqatlılığını özündə ehtiva edən, populyarlıq Olimpində aktuallığını qoruyub saxlayan, sevilən bir şeirini xüsusi vurğulamaq istəyirəm: - "Mənə dəniz verin!"

Üç min illik oğuz-türk poeziyasında belə açıq təmənnada olan, kövrək, həzin hisslərini böyük səmimiyyətlə dilə gətirən, umacağını oxucuya cəsarətlə ünvanlayan və romantik düşüncələri poetik ifadə tərzində yuvalanan, şəkillənən, bəlkə də, ilk şairdir Sabir Abdin... Sənətkar üslubunun başlıca göstəriciləri – obrazlılıq və emosionallıq keyfiyyəti ilə şərtlənən "Mənə dəniz verin!" şeiri ilk kəlməsindən son nöqtəsinədək məcazlarla, rəmzlərlə zəngindir. Burada hər hansı fikrə müstəqim mənada yanaşmaq, ilk baxışdan aşılanan düşüncəni reallıq kimi qəbul etmək,

mənanın, mahiyyətin daha dərin qatlarına enmədən səthi dəyərləndirməyə cəhd göstərmək oxucunu yanlış yola yönəldə bilər. Bütövlükdə nəzər saldıqda Sabir Abdinin şeirlərində romantizmin ədəbi-estetik əsası olan bədii ideallaşdırma məcrasında müstəsna obrazlar yaratmaq səriştəsi güclüdür. "Mənə dəniz verin!" şeirinin fəlsəfi universallığından və bəşəri həqiqətlərindən söz açmamışdan öncə onun müəllifi haqqında bir neçə məqamı vurğulamaq yerinə düşərdi.

Sabir Abdin 1962-ci ildə Bakı şəhərində anadan olub, Bakı Dövlət Universitetinin məzunudur (1988). Orta məktəb illərindən bədii yaradıcılıqla məşğuldur. İlk şeiri 1978-ci ildə Yardımlı rayonunun "Yeni kənd" qəzetində dərc edilib. Əsərləri, müxtəlif illərdə müxtəlif mətbu orqanlarında dərc edilib. Son illərdə çap olunan "Demə, mənə heç nə demə" (1997), "Qınamasın bu yurd məni" (1998), "Mənə dəniz verin" (2002), "Sənə məktublarım" (2007) və "Sizsiz, Sizinlə..." (2010) kitabları çağdaş poeziyasevərlərin və ədəbi tənqidin rəğbətini qazanıb. Onun şeirlərinin mətni əsasında tanınmış bəstəkarlardan Nadir Əzimov, Vüqar Camalzadə, Vüsal Qurbanov, Rauf Məmmədov, Sahil Əliyev və b. 100-dən çox mahnı bəstələyib.

Sabir Abdinin söz dünyası ilə ilk tanışlığım 1997-ci ildə şair, publisist Rəşad Bəydəmirlinin təsisçiliyi və baş redaktorluğu ilə çıxan "Nəsimi" qəzetinin redaksiyasında olub. Bu mətbuat orqanının redaksiya heyətinin üzvü olduğuma görə və redaksiya iş yerimin bir neçə addımlığında yerləşdiyindən o vaxtlar qəzetə tez-tez baş çəkirdim. Bir gün Rəşad mənə İlyas Tapdığın yazdığı "Uğurlu yol"u və Sabir Abdinin şeirlərini təqdim etdi.

İlyas Tapdığın təqdimatında o vaxtadək tanımadığım gənc şair Sabir Abdinin yeni şeirləri marağıma səbəb oldu. Ən başlıcası bu şeirlərdəki bənzətmələr orijinal, bənzərsiz idi. Səriştəli deyim tərzi, poetik obraz yaratmaq bacarığı ədəbiyyata istedadlı, yeni qələm sahibinin gəldiyindən xəbər verirdi. Onun təzə-tər şeirlərini mətbuat orqanlarında izləməkdən zövq alırdım. Bir gün mavi ekranda mavi dənizin qırçın dalğalarının fonunda bariton səsli müğənni Eyyub Yaqubovun həzin, titrək ifasında "Mənə dəniz verin" adlı lirik mahnını dinlədim: "Mənə dəniz verin, tənha qalmışam..."

Düşüncənin, hiss və duyğuların çatdırılmasında, dərkində, sevilməsində səs və musiqinin imkanları, şübhəsiz ki, hüdudsuzdur. Söz, səs və ritm tandeminin möcüzələr yaratması sənətin bədii gerçəkliyidir. Bəstəkar və müğənninin birgə yaradıcılığında səs və ritm amili hisslərə nəvaziş göstərməkdə səlahiyyətlidirsə, mahnı mətni duyğu və düşüncələrin xidmətində müsəlləhdir. Bu baxımdan, bütün romantiklərin əsərlərində olduğu kimi, Sabir Abdinin "Mənə dəniz verin" şeirində də azadlıq ehtirası, duyğu selinin intəhasızlığı obrazlı biçimdə öz əksini tapır.

Mənə dəniz verin, isinim bir az,
Onun gözlərinə qarışam, bəlkə...
Tapım sularında göz yaşlarımı,
Orda taleyimlə barışam, bəlkə...

Bu poeziya nümunəsində "dəniz" deyiləndə konkret Xəzər və ya bir başqası nəzərdə tutulmur. Dənizin əlamət və keyfiyyətlərinin məcmusu – böyüklük, dərinlik, saflıq, şəffaflıq, mehribanlıq, duyğusallıq, kimi mənəvi dəyərlər toplusu qabardılır. Sabir Abdinin "dəniz"i müqəddəs ziyarətgah, xatirələr ocağı, ümid, güman yeridir. Çünki həsrətin, intizarın od vurub köz kimi yandırdığı lirik qəhrəmanın göz yaşlarından yaranan bu tənha dənizdə o özü "isinmək" istəyir. Realist düşüncə müstəvisində dəniz "isinmək" üçün seçilmiş məqbul məkan deyil. Romantik fikir prizmasından yanaşdıqda isə deyim, ifadə tərzi uğurludur. Lirik qəhrəmanın tənhalığı, həsrəti biganəlik zülmətinə qərq olmuş mühitdə heç kəsi maraqlandırmır. Donuq baxışların, sırsıralı, sazaqlı sözlərin, soyuq münasibətlərin bürküsündə boğulan, buz qatlarında donan qəhrəmanın dənizdə

"isinmək", gur sulara, dalğalara qarışmış göz yaşlarını tapmaq istəyi və bu kədərli taleyilə barışmaq ehtimalı romantik düşüncənin ən poetik nümunəsidir.

S.Abdin bir-birinə bənzəyən bu biganə, boz, yovuşmaz şəhər adamlarını mənəvi konturları, məxməri qəddarlıqları ilə oxuculara belə təqdim edir:

Bu şəhərin adamları
Bir ürəkdə, bir biçimdə.
Danışırlar qərib dildə,
Xıncımlanır söz içimdə.

"Yorulmuşam" şeirindən gətirilən sitatın son beytində "qərib dil"in milli düşüncəni öz içimizdə "xıncımla"dığını, məhv etdiyini müəllif böyük səriştə və eyni zamanda həyəcan hissi ilə vurğulayır, diqqəti çox ciddi milli problemə yönəltməyə cəhd göstərir.

Sabir Abdinin yaradıcılığında "dəniz" və "göz yaşı" məfhumları təşbeh, istiarə məqamlarında daha çox görüntülənir. Bu baxımdan, şairin "Göz yaşın" lirik şeiri xarakterikdir:

Bu göz yaşın dənizdi,
Məni sənsiz anacaq.
Sənsiz qalan göz yaşım
Gözlərində yanacaq.

Göz yaşımla həsrətin
Dənizində üzərəm.
Dalğasında, suyunda
Gözlərini gəzərəm.

Bənzəyən və bənzədilən tərəf statusunda "dəniz"in bir obraz kimi poetik misralarda yer alması müəllifin eyni kəlməyə məhrəmliyilə şərtlənir. İstinad edilən misralarda "dəniz" miqyas ölçüsü anlamını daşıyır və göz yaşının bolluğunu, çoxluğunu, həsrətin böyüklüyünü, intəhasızlığını rəmzləndirir.

Şərq ədəbiyyatında, Azərbaycan poeziyasında gözələ "bağışlanan" hədiyyələrin dəyərini, miqdarını dəqiqləşdirmək, səxavətliliyin nisbətini, postulatını müəyyənləşdirmək mümkünsüzdür. Məsələn, Hafiz Şirazi gözəlin bir cüt xalına Səmərqənd və Buxara şəhərlərini bağışlayır, Əli Kərim ilham pərisinə "Qayıt, sahmana sal bu kainatı" – deyə müraciət edir. Sabir Abdin isə öz poetik ampluasına sadiq qalaraq "Sənə dəniz bağışlaram" söyləyir.

Sənə dəniz bağışlaram, -
Özüm dəniz oldum, bəlkə.
Ömrün sənsiz günlərinə
Dalğa-dalğa doldum, bəlkə.

"Sənə dəniz bağışlaram" şeirində müəllif assosiativ təfəkkürün rasional imkanlarından yetərincə bəhrələnsə də, "Mənə dəniz verin"lə müqayisədə poetik reklasasiya hadisəsini müşahidə edirik. Bu da təbiidir, çünki mövzunun arealı geniş, müraciət dairəsi fərqli və zəngindir.

Sabir Abdinin poeziyasında "dəniz" metaforalı, "dəniz" məcazlı misralara tez-tez rast gəlmək olar. Mövzudan, ovqatından, məqamdan asılı olmayaraq dəniz ovqatlı poetik düşüncələr insan ruhunu bəzən coşdurur, dalğalandırır, yerindən oynadır, bəzən də şaqraq, oynaq ləpələrin lətif təbəssümünə, həzin, şirin pıçıltısına qonaq edir: "Coşdu dəniz kimi məhəbbətimiz" ("Səni sevəndən"), "Coşan dənizlərə bağışla məni" ("Bağışla məni"), "Dəniz bir kimsəyə danışa bilməz" ("Özümdən küsəndə, səndən küsəndə"), "Gen qaçıram dənizdən də, sularında batammadım" ("Yorulmuşam"), "Elə bil dənizdə bəxtin güləcək", "Dəniz dalğalanır, dəniz ağlayır", "Birləşib üfüqlə dəniz bu yerdə", "Dəniz laylasıyla oxşasın səni" ("Dəniz ömrü"), "Bu gecə, uzun gecə... Yadıma dəniz düşüb. Bu dəniz hardan gəlib, yuxuma sənsiz düşüb?" ("Bu gecə, uzun gecə"), "Bu göz yaşı bir ümman, dəniz olar sən demə" ("Göz yaşın"), "Su çiləyər bir dəniz sənin nəmli gözlərin" ("O qatarın dalınca baxma"), "Mavi gözlü dəniz kimi, sahilə üz tutar səsin" ("Sənin səsin") və s. misraların nəbzində elə bil dənizin dalğaları

döyünür, dənizin ləpələri tora düşmüş balıq kimi çırpınır, dənizin qüdrəti şahə qalxır.

S.Abdinin yaradıcılığında dəniz anlayışı ilə paralel ay, günəş, ulduz, göy, gecə, payız, yağış, külək, yarpaq, yuxu, qəm, göz yaşı və s. romantik istilahlardan da səmərəli, əhatəli, yerli-yerində istifadə olunur. "Mən gözlədim, sən gəlmədin" şeiri poetik mənzərənin orijinallığı və cazibədarlığı yönümündən diqqəti özünə çəkir:

Gecə küsdü, ay da batdı,
Dərd yuxuma haram qatdı,
Ürəyimi qəm oyatdı,
Mən gözlədim, sən gəlmədin.

Alman romantizm epoxasının təsviri incəsənət sahəsində görkəmli nümayəndəsi Kaspar David Fridrixin "Dumanlı dənizin səyyahı" (Hamburq 1818) adlı mənzərəsini daha yaxından seyr etdikcə Sabir Abdinin "Mən gözlədim, sən gəlmədin" şeirini yazarkən bu dahi rəssamın əsərindən təsirləndiyini, həmin ovqata kökləndiyini güman edirsən. Hər iki sənətkarda və əsərdə birləşdirici xüsusiyyət eynidir: bəşərilik millilikdən üstün təqdim edilib. Sənətin bu keyfiyyətinin təzahürü, şübhəsiz ki, ilk növbədə romantik düşüncənin təqlididir.

Şair bəzən iki misra ilə də yaddaqalan portret, bədii peyzaj yaratmağı bacarır:

Getmisən, hər gecə xatirələri
Üstümə örtürəm tellərin kimi.
Yağışlar, küləklər döyür qapımı,
Sənin o titrəyən əllərin kimi.

"Bilirəm getmisən, bilirəm yoxsan" şeirindən götürülən misralar ifadə tərzi baxımından yeni və orijinaldır. Tellər kimi üstə örtülən, içində isinilən xatirələr sevdalı illərin, günlərin nişanələri, ən şirin yadigarlarıdır.

Sənsiz yaxam qalıb vaxtın əlində,
Bir günüm min günə bərabər oldu.

Nə qədər gözəl və dəqiq deyimdi: "Sənsiz yaxam qalıb vaxtın əlində." Ümumiyyətlə, yaxası vaxtın əlində qalmayan bir kimsə varmı? Vaxtın əlindən yaxa qurtarmaq mümkündürmü? Buna heç ehtiyac duyulurmu?

Xalq deyim tərzinin tamam fərqli üslubda, yeni yanaşmada poeziyaya gətirilməsi sözün poetik duyumunu fəlsəfi qatlarını birmənalı olaraq ədəbiyyatın gündöyəninə çıxarır. Sabir Abdinin yaradıçılığında romantik düşüncənin ənginliklərinə, bədii fikrin, obrazlı məcazların incəliklərinə daha yaxından bələd olduqca onun sənətkarlıq məziyyətlərinin, poetik xüsusiyyətlərinin ciddi, sistemli araşdırmaya möhtac qaldığı özünü qabarıq büruzə verir.

DEBÜT

AYDAKI DALĞALAR

"...Buralarda daha parlamır ay işığı
Günəşimizə qar yağdı..."

Orxan CUVARLI

Bir yer bu qədər dəyişərmi? Uca tikililər boyu getdikcə ensizləşən yola baxa-baxa bunu fikirləşirdi. Düz qırx il əvvəl ilk dəfə addımladığı bu kələ-kötür yolda hər dəfə köhnə həyəcanla addımlayırdı, həmişə dəyişiklikləri müşahidə edirdi. Bircə qəmbərlər heç dəyişməmişdi. Elə bil addımlarını tısbağa çanaqlarına atırdı - əvvəl də bundan xeyli eymənirdi. Dəyişən tikililər idi. Bax bu sağ tərəfdəki işıltılı vitrinlər heç yox idi. Bir qədər düşünəndən sonra əvvələr buranın yeraltı bistro olduğunu dumanlı şəkildə xatırladı. Düşünməyə davam etdikcə yaddaşının dərinliklərində nələrinsə qığılcımlandığını, get-gedə daha aydın xatırlamağa başladığını hiss edirdi. Azmı xatirə vardı o məkanda? Bura adətən onların ehtiraslı və upuzun gecələrinin başlanğıcı olurdu. Həmişə gecikirdi. Ensiz, taxta pillələri məğlub edib içəri daxil olanda onun düşüncəli, nigaran siması küncdəki tozlu masadan boylanırdı. Bir-birini görən anda hər ikisinin üzündə güllər açırdı, qayğılı cizgilər yox olurdu. Bundan sonra eyni şeylər təkrarlanırdı. O, əlindəki siqareti tələm-tələsik kötüklərlə dolu külqabıya basdırırdı. Ayağa qalxıb onun zərif addımlarıyla üç-dörd metrlik məsafəni bitirməyini intizarla gözləyirdi. Möhkəm qucaqlaşmadan görüşün ilk mərhələsinin bitdiyini bilmək olardı. Bu tozlu masa məkanın ən solğun masası idi. Ahəstə musiqi sədaları, süd rəngli abajurdan süzülən titrək işıq bistronun əskiliyini ört-basdır edirdi. Nədənsə həmişə bura gəlirdilər. Digər kafelər bu izahsız məhrəmliyi yaşada bilmirdi. İçəri girər-girməz naməlum, ad verə bilmədiyi nəşə içini limhəlim doldururdu. Bəlkə də, onların təzə-təzə daddığı hisslər bu köhnə məkanın fonunda daha cazibədar idi. Buraları gözəlləşdirən onların ən nəcib duyğuları idi, yoxsa nəmiş, dörd-beş masalıq, miyanə otaq niyə ikisini də bu qədər cəlb etsin? Qonaqları pilləkənin önündə, kiçik arakəsmənin arxasında barmenin donuq, parıltısız gözləri qarşılayırdı. Üzündəki qırışları gizlədən saqqalı, uzun, kürən saçları qədər şişmanlığına uymayan qıvraqlığı ilə də diqqət çəkirdi. Baxışlarındakı astagəllik məkanla həmahəng idi. Vecsizliyi işinə də təsirsiz ötüşmürdü. Qonaqları diqqətlə dinləyib, könülsüz halda sifarişləri hazırlamağa başlayırdı. Heysiz nəzərlərini içkiyə olan təşnəliyi tamamlayırdı. İfadəsiz, xumar gözləri iş müddətində içki yasağına uymadığını ələ verirdi. Gecəyarıya , bəzən də sübhə qədər bu rütubətli otağın sakinləri boşalan içki şüşələri, dəfələrlə siqaret

kötükləriylə aşıb-daşan külqabılar, bükülüb zibil qabına tolazlanan siqaret qutuları, qədəh çıqqıltıları, şən, bir o qədər də sərxoş çalarlarla zəngin qəhqəhələr və bu səsləri xəfif şəkildə eşidilməz edən həzin musiqilər idi.

***

- Bağışlayın, necə kömək edə bilərəm?

Qızın şux səsinə xəyaldan ayıldı. Diqqətlə bu çəlimsiz, məsum təbəssümlü qızı nəzərdən keçirdi :

- Nə? Üzr istəyirəm, eşitmədim, - səbəbini bilməsə də səsi titrədi və bundan xeyli pərt oldu. Tez-tez olurdu bu. Danışdığı yerdə səsi qırılırdı.

- Necə kömək edə bilərəm? - qız oxşar mimikayla, eyni tonda təkrarladı.

İndi başa düşdü. Neçə dəqiqədir gözünü vitrinlərdən ayırmamışdı. Heç mağazaya haçan girdiyini də yadına sala bilmədi. Qızın gözlərindəki sönüklük handan-hana diqqətini reallığa qaytardı. Satıcının pillə-pillə artan marağını duydu :

- Narahat olmayın, mən sadəcə baxırdım, - dedi. Bu dəfə qızın təbəssümünə uyğun təbəssümlə, səsi titrəmədən.

Əvvəllər fayton arabalarının etinasız cingiltisiylə pozulan sükut indi maşınların mühərrik səsində itib-batırdı. Yola xeyli baxandan sonra küçəylə üzüaşağı addımlamağa başladı. Qala mazğalını xatırladan dəlikləri çıxsaq, bu binaların doğma fasadları da əvvəlki deyildi. Hərdən insanlarda tapa bilmədiyi doğmalığı binalarda, səkidə, divarlarda axtarırdı. Bu küçə boyu uzanan divarlar, işıq dirəkləri ona yaxınlarının əsirgədiyi hissləri yaşadırdı. Bəlkə, gəncliyində bu fikrə ondan çox gülən, inanmayan olmazdı. Necə yəni, isti insan nəfəsində tapmadığı şeylər soyuq daş parçalarında nə gəzir? Amma bu sual indi heç bir təəccüb doğurmurdu. İllərin ötməyinə təəssüflənmək... Bu lazım deyil. Bəlkə də, o itkilər, sarsıntılar bəzi qazancların müjdəçisidir. Buna hardasa həyatın sədaqəti, vəfa borcu da demək olar. Nəyə lazım idi bu vəfa? Bəlkə, çox vacib idi? Bu sual haqda düşünmək indi maraqlı deyildi. İndi daha vacib şeylər var. Belindəki ağrıya, istiyə dözə-dözə, təpərsiz ayaqlarını sürüyə-sürüyə küçənin sonuna çatmaq.

***

- Bəlkə qalxaq? - müəmma ilə soruşdu.

İçki indi-indi təsirini göstərirdi. Onun sərxoşluğunu gözlərindən anlayırdı; qızartılı gözlər, gülümsər çöhrə, alnının qırışları, itaətkar səsi... Kaş bütün kişilər sərxoşkən belə olaydı. Qəfil sualdan üzündəki cizgilər bir anlıq ciddiləşdi. Ciblərini döyəclədi. Sərxoşlara xas, bir az da məzəli yerişlə barmenə yaxınlaşdı, uzun müddət söhbət etdilər. Bistroda qalan sonuncu qonaq onlar idi. Həmişə belə olurdu, buranı ən son onlar tərk edirdi. Barmenin xırıltılı qəhqəhəsindən sağollaşdıqlarını anladı. Gecə uzunu dinib-danışmayan barmenin sevinci sonuncu qonaqların da getməyinə görə idi. Hər dəfə bura gələndə bu işin ağırlığını bir daha dərk edirdi. Ani, amma gözlənilən səsə diksindi.

- Hə, gedək?

Bistronun istiliyindən küçənin ayazına çıxanda xoş bir gizilti bədənini qıdıqladı. Soyuq dəcəl uşaq kimi, dalğa-dalğa canına yeriklədi. Yağış narın-narın səpələnirdi. Saatdan xəbərsiz idi, heç öyrənməyə cəhd etmədi. Gödəkçəsinə bürünüb ona qısıldı. Bu təmasla kişi hökmranlığının astanasına qədəm qoyurdu. Bu anın saflığı yağ kimi canına yayıldı. İndi əsməcə də yerini ilıqlığa buraxırdı. Qol-boyun getdikləri bu küçə kaş qurtarmasın... Qısıldıqca onun ürək döyüntülərini hiss edirdi. Soyuqdan qıpqırmızı rəng alan burunlarını kənardan görsə, uğunub gedərdi. Payızın şıltaqlıqlarına öyrəşmişdi. Lap uşaqlıqdan bu fəsli çox sevirdi; dəyişkənliyini, şəhərə gətirdiyi xoş görkəmi. Payız Tanrının yer üzünə lütfüdür. Bu dahiyanə fikri onunla bölüşməyə tələsdi:

- Payız Tanrının yer üzünə lütfüdü.

- Oho, fəlsəfə?

Narazılıq əlaməti kimi incik, bir az da şeytani ədayla başını yellədi.

- Bu fəsli uşaqlıqdan sevirəm. İstiyə heç dözümüm yoxdu. Bizim qəsəbədə istiyə

həsrət idik. Bəlkə də, ona görədi. Soyuğa öyrəşmişəm.

- Soyuq adama niyə xoş gəlsin ki? Bax özünəqapalı insanlar da belədi. Təkliyə, tənhalığa öyrəşəndən sonra insanlardan qaçmağa başlayır. Sən demiş, öyrəşir buna. İnsanlara, onlarla ünsiyyətə heç dözümləri olmur. Təsəvvür elə, insanlar istidi, tənhalıq soyuq. Qəribə bənzətmə olsa da, bu belədi, əzizim.

- Özün mənə filosof deyirsən.

- Mənim fəlsəfə məzunu olduğumu unutmusan?

- Bir dəqiqə e, bu gəlişigözəl sözləri hardan öyrənmisən? Həm də sən niyə tənha olasan axı? Bəs mən nəyinəm sənin, niyə məni görməzdən gəlirsən? - axırıncı sözdə səsi lap kövrəldi.

- Bu danışdıqlarım köhnə təəssüratlardı, əzizim. Xoş deyilsə, danışmayım.

- Yox, danış.

- Hə, nə deyirdim?

- Tənhalıqdan danışırdın.

- Hə, tənhalıq. Əslində, təklik insana çox şey öyrədir. Daha doğrusu, özünü tanımağa başlayırsan. Özünlə hesablaşmağa, çək-çevir eləməyə çox vaxtın olur.

- Sənə nə öyrətdi?

- Mənə öyrətdiyi çox şey oldu. Məsələn, öyrəndim ki, sevgini də, nifrəti də qənaətlə xərcləmək lazımdı. Bədxərclik eləyəndə hisslər də iflasa uğrayır.

- Mənəvi böhran?

- Mənəvi böhran, hisslərin fiaskosu, fanilik embarqosu, ruhi katarsis...

- Yenə başlama qəliz-qəliz danışmağa. Hamı sənin kimi filosof deyil ki. – bu yerdə söhbətə yüngülvarı məzə, şirinlik qatmaq istədi. Çünki onun çətinliklə danışdığını hiss edirdi.

- Gəl bu haqda danışmayaq .

İndi zarafat da ona xoş gəlmirdi, danışmaq istəyirdi. Heç vaxt demədiklərini yağışın altında, üzü arabir zil qaranlıqda görünməz olan, arabir səkidəki işıq dirəklərinin ölgün, sarı işığıyla aydınlanan sevdiyi qadına danışmaq. Danışdıqca onun üz ifadəsini görmək istəyirdi. İşıqlığa çıxanda üzündəki təəccübü, gözlərindəki boşluğu lap aydın görürdü. Qapqara, işıldayan gözlər... Elə ki qaranlığa girirdilər, o gözlər, o parıltı yoxa çıxırdı, zülmətə qərq olurdu. Bu müəmmaların içindən onun səsini güclə eşitdi:

- Yaxşı, yaxşı, bağışla. Səni güldürmək istədim. Danış.

- Başlayırsan gülməyə, ürəyindən gələn kimi yox, özünü məcbur hiss etdiyin kimi davranmağa. Özündən başqa heç kim hissiyyatsızlaşdığını, ikiüzlüləşdiyini hiss eləmir.

- Çox çətindi bunlar?

- Çətin olmaz? Hər şeyi içində saxlayırsan, üstü kif atır, çürüyür. Amma səni də çürüdür.

- Bəs axırı?

- Bir gün ummadığın, gözləmədiyin bir vaxtda o qaysaq, o köz qopur, ağzını möhkəm-möhkəm bağladığın o böyük lağım açılır, illərlə ürəyində basdırdıqların gün üzünə çıxır. Yenə səni incidir, başqa heç kimi.

- Zamanla düzəlir?

- Vaxt keçdikcə danışmaq istəyirsən, amma boğazından yuxarı qalxmır sözlər. Elə bil nəyəsə ilişir, ya da tükənir.

- Ya da içindən gəlmir.

- Hə, o da var.

- Bəs bunun sonu yoxdu?

- Nə yaman son həvəskarısan. Sonu odur ki, əvvəllər əlçatmaz gördüyün şeylər, səndən dabanına tüpürüb qaçan fürsətlər zamanla ayağına gəlir. Amma onda da sən istəmirsən. Bəlkə də, istəyə bilmirsən. Əlinin tərsiylə imtina edirsən.

İkisi də diksindilər. Qaranlıqda əl boyda, qapqara bir şey qabaqlarından qaçıb keçdi, zülmətdə seçə bilmədilər. Səkinin qırağında kimsə sərələnmişdi. Bir az da yaxınlaşanda tünd araq qoxusu ikisini də vurdu. Şüşəni möhkəm-möhkəm sinəsinə sıxıb yuxuya getmişdi.

- Əcəb bəxtəvər adamdı. Belə şeylərdə xoşbəxtliyini tapır.

- Bir şüşəlik romantika! Özü də bu havada.

- Deyəsən, özümüzdən xəbərin yoxdu.

Ürəkdən güldülər. Bəlkə də, dünyanın ən xoşbəxt anı bu idi. Ona daha da möhkəm

qısıldı. Qaranlıq döngədən sağa buruldular. Otelə az qalmışdı.

***

Mağazadan çıxdığı bir neçə dəqiqə olardı. Üzüaşağı enirdi. Bürkü nəfəs almağını daha da çətinləşdirirdi. Qəfil gülmək tutdu. Həmin gecə sərxoşun tirtap uzandığı yerdən keçirdi. Gözü indi o əyyaşı axtarırdı. Görsə, necə sevinərdi! Nə də olmasa, o günün parçalarından, şahidlərindən biri idi. Lap onları görməsə də, söhbətlərini eşitməsə də, orda idi. Onda nə demişdi? Bir gün yaralarının közü, qaysağı qopur, içində saxladığın, gizlətdiyin lağım aralanır. İlahi! Onda necə də anlaya bilməmişdi onu. Hələ araya zarafat salıb kefini açmaq istəyirdi, söhbəti dəyişməyə çalışırdı. Kaş heç danışmazdı, susardı, onu dinləyərdi. Niyə imkan vermədi rahat danışsın? Görəsən, nə idi onu bu qədər sıxıb-sıxcalayan? Bəlkə, daha vacib şeylər danışacaqdı? Axı belə olanda adam danışmaq istəyir, heç susmaq istəmir. İndi o özü də danışmağa bir adam axtarırdı. Lap o sərxoş olaydı burda. İçkisini içəydi, yerə yıxılaydı, amma olaydı. Ən azından qulaq yoldaşı tapardı özünə, dərdləşərdi. Lap o olmasa belə, o qabaqlarından keçən, görə bilmədikləri o pişik, ya it, ya da qeyri bir məxluqat olaydı burda, nolardı ki? Körpünü görər-görməz gülümsədi. Uzaqdan əzəmətli görünürdü. Dənizin havası adamı vururdu. Məhəccərə dirsəklənib bir xeyli gözüyumulu dayandı. Suyun əsrarəngiz sehri yorğunluğunu canından çıxarırdı. Dalğaların mülayim, ürəkoxşayan ləngəri. Ölənə qədər burda dayanmağa razı idi. Yaşı ötdükcə özünə qapanırdı, qaradinməz olurdu. Gənclikdəki coşqusu, çılğınlığı indi ətalətə, süstlüyə tabe olmuşdu. Dənizlə səmanın birləşdiyi uzaq nöqtəyə zilləndi. Günəşin qürubu, üfüqdəki çəhrayı təbəqə. Yəni daha bir məğlubiyyət. Günəşin ömründən xərclənən daha bir gün. Uşaqkən də daldaya çəkilib günəşin batışını izləyirdi. Onda burdakı kimi dəniz yox, dağlar uzanırdı. Duyğusallıqdanmı, ya öləziyən şəfəqin təsirindənmi ağlamsınırdı. Uşaq sadəlövhlüyü ilə bu qürubun sonuncu olduğunu, daha Günəşin doğmayacağını fikirləşirdi. Gözlərini açdı. Otelə - daha doğrusu, qocalar evinə baxmaq istəmirdi. İndi bura mehmanxana deyildi - bir neçə il qabaq öyrənmişdi bunu. Öpüşdükləri, sevişdikləri o otaqda indi kimsəsiz bir qoca yaşayır, yəqin. Qırıq-qırıq, qapqaynar pıçıltılara bürünən otaq indi hansısa qocanın iniltilərinə məhkum qalmışdı. Zaman keçdikcə səslər də öz təyinatını itirir. Arxaya dönməyə ürəyi gəlmirdi. Qorxurdu uşaqlıqdakı kimi yenə doluxsunar. Bu dəfə günəşin yox, arzuların qürubuna. Çətinliklə çevrildi. Alçaqmərtəbəli tikilinin ecazkarlığına - səmanın nəhayətsiz maviliyinin önünü kəsən şabalıdı, doğma divarlara qapıldı.

***

Hamamda su səsi kəsildi. Buğdayı sinəsi atılıb-düşürdü. Yerini rahatladı. Saçları hamar çiyinlərinə axdı. Boş qədəhini son damlaya qədər şüşədəki şərabla doldurdu Qədəhi boşalanda hamamdan çıxdı. Saçlarını qurulaya-qurulaya pəncərəyə yaxınlaşdı. Açıq pəncərədən ayın kövrək ziyası qaranlıq otağa, onun enli çiyinlərinə süzülürdü. Üzü görünmürdü, təkcə pırtlaşıq saçları seçilirdi. Gərilən əzələlərini burdan hiss etmək mümkün idi. Siqareti odladı. Alışqanın ani işığında gözləri parladı, yenidən görünməz oldu. Ölü sükut. Hər dəfə təkrarlanan hisslər içini çulğadı. Ona tərəf yeridi. Uzun müddət heç biri danışmadı. Sarıldı ona. Pəncərədən dənizə baxırdılar. Havada dənizin yüngül ətri duyulurdu. Ay dənizin üstünə işıq yolu salmışdı, dalğalar həlim görünürdü. Bir də uzaqdakı mayakın bulanıq işığı. Lap halə kimi.

- Dəniz gecə nə gözəl olur – uzun sükutu pozdu.

- Bir o qədər də vahiməli.

- Niyə?

- Bir dəfə boğulmuşdum az qala.

- Sənin də nə tələtümlü gəncliyin olub. Heç danışmamısan bunu.

- Hə, lap çoxdan olub. Üzməyi təzə-təzə öyrənmişdim. Evimiz dənizə yaxın idi. Gecələr

ləpədöyəndə uzanıb ulduzları sayırdım – tüstünü havaya üfürüb kötüyü aşağı tulladı.

- Aha.

- Bir dəfə atamla dalaşıb evdən çıxdım. Gecəyarı idi. Vurdum özümü dənizə.

Get-gedə daha maraqla dinləməyə başladı.

- Bir də baxdım sahil görünmür, su boy vermir. Onda dənizdən qorxmuşdum. Küləkli havada dalğalarla boğuşmaq lap çətin olur. Yaxşı ki, ay çıxmışdı. O zülmətdə boğulardım yoxsa.

- Necə oldu?

- Bir neçə dəfə batdım, gücüm tükənirdi. Amma ölüm qorxusu pis şeydi. Güc-bəla sahilə çıxdım. Nə qədər su udmuşdum.

Ona yazığı gəldi, lap möhkəm qucaqladı:

- Bəs evdəkilər?

Özümü evə çatdırdım. Hamısı dilxor oldu. Ciyərlərimə su dolmuşdu. Neçə gün yerimdən qalxa bilmədim.

Alnını tüklü çənəsinə söykədi. Yenə susdular. Bulud topaları Ayın qabağını kəsdi, otaq qaraldı.

***

Qocalar evinin ağır qoxusu içəri girən kimi onu vurdu. Bura heç gəlməmişdi, indi də tərəddüddə idi. Əlil arabasında oturan yaşlı kişi sakit görünürdü, yeməklə məşğul idi, ara-sıra göyərmiş dodaqlarından rabitəsiz sözlər çıxırdı. Gözlərində heç bir həyat əlaməti sezilmirdi. Bəlkə, otaqlarında qalan həmin o heysiz qoca elə bu idi? Bəlkə də... Baxıcı kasadakı həlməşik yeməyi qaşıq-qaşıq ona yedirirdi. Sulu yemək batıq çənəsindən yaxalığına süzülürdü. Bu mənzərə ürəyini bulandırdı. Bir qədər dəhlizi nəzərdən keçirdi. Divarlar rütubətdən qaralmışdı, dəhliz solğunlaşmışdı. Əvvəl bura otelin vestibülü idi. O qocanın oturduğu yerdə otaqların açarları asılırdı, qapıdan girən kimi xidmətçi oğlanın qırmızı pencəyi, qara şalvarı yorucu günü bir azca rəngləndirirdi. Otaq nömrələri də yadından çıxmamışdı: "30". Həm tanış olduqları gün, həm də onun yaşı.

Qoca və qadının bərəlmiş gözlərinin müşayiəti ilə ordan çıxdı. İndi bayaqkı bürküdən əsər qalmamışdı. Narın meh saçlarını sığalladı. Həmişə belə havalarda xatirələri təzələnirdi. Elə bil içinə ilıqlıq gətirən bütün o yaşanmışlar bir əsim yelə bənd idi. Beynində çoxdan yəqin etdiyi düstur hərlənirdi: "Sevgi ürəyində başlayır, dodaqlarında doğulur, əllərində böyüyür, ayaqlarında yorulur, beynində qocalır, ciyərlərində xəstəlik tapır, gözlərində ölür, qulaqlarında unudulur..." Görəsən, onların sevgisi indi hansı mərhələdə idi? Ölməyib, unudulmayıb... Yəqin ki, xəstəliyə yoluxub. Lap uzaqlarda bir gəmi fit verdi. Hava qaralırdı, evə getməliydi. Sahillə asta-asta evə qayıdırdı. Ay hələ çıxmamışdı...

Sakit SABİROĞLU

***

Mən sənə alacaqdım, qızım,
and içirəm babamın ruhuna,
nənəmin üz qoyduğu torpağa,
alacaqdım!
İzn vermədilər, quzum,
izn vermədilər pulum yetsin,
əl uzatdığın vitrinlərə əlim yetsin!
Sənin arzuların gözündə,
mənimki - «Mütləq bir gün alacam»-da qaldı!
Mənim umudlarım "alacam" adlı siyahıda,
sənin gözlərin evimizə qalxan surahıda
qaldı!
And içirəm, quzum,
and içirəm bizi Yaradanın cah-cəlalına,
o cah-cəlaldan istədiyin
ufacıq ayaqqabı,
bapbalaca bant,
qıpqırmızı don qədər
mənə düşmədi.
And içirəm sənin əziz canına!

***

Nə çox ilməsi var ömür hanamın,
Qarışmış rəngləri ovxarlayıram.
Yağışlar düşəndə yazıq babamtək
Mən də öz qıçımı ovxalayıram.

Ömrün bahar fəslin toxuduq getdi,
Gözdən dirənmişik qış aşrımında.
Ötən gəncliyimin təsəllisi var
Oğlumun qızımın addımlarında.

Yağar yavaş-yavaş payız yağışım,
Dəli sevdaların xatirəsinə.
Aşmış çəpərlərdə gözüm ilişər
Saralmış gəncliyin xəritəsinə.

Rəngdən-rəngə düşür
gözümdə ömrüm,
Sənsiz günlərimi qayçılayıram.
Ana, məzarına söykənib bu gün,
Sənə çatmağımı hesablayıram.

Yer də götürmüşəm ayağın altdan,
Ömür çürüdürəm can savaşında.
Gözünnən oxudum dönüklüyümü,
Dizimə sürtünən Alabaşın da!

DƏLİNİN TOYDA DÜŞÜNCƏLƏRİ

Allah, bu bəy də öləcək,
Gözlərin qapayacaqlar.
Bilmirəm nə vaxtsa harda,
Bunu da ağlayacaqlar.

Kəfən olacaq gəlinlik,
Saçı öləcək bu qızın.
Boşqabı qıran ayağı,
Əli öləcək bu qızın.

Bir oğul doğacaq bu qız,
Çiyninə mələk qonacaq.
Ata olacaq bu oğlan,
Məzara enəcək bir gün.

Gözləri gülür, şadlanır,
Hələ meyxoşdu bəyimiz.
Ölüm heç eyninə gəlməz,
Bəxtəvərdi gəlinimiz.

Öləcək bütün sevgilər,
Təzə sevgi doğmaq üçün.
Çıxıb TANRI dərgahındnan,
Sevənlərə baxmaq üçün!!!

***

Bakirə qızlar uçuşar,
Atların qanadlarında!
Quşlar nalını tökəcək
Bir eşqin budaqlarında!

Uçar, atlar çapıb gedər,
Gedər Tanrı dərgahına.
Quşların yalı tökülər
Yalançı sevgi ahına!

Göyün səhrasın dolanar,
Məcnun gəzər dəli kəhər.
Quşlar ot yeyən dünyada
İkimizi boğar qəhər.

Qanadlar, yuva tanışdı,
Bu, at deyil, quşdu, Tanrım.
Mizan-tərəzi dəyişib,
Yoxsa yerin boşdu, Tanrım?!

***

Bağışla məni, ay ana,
Bu yaz da gələ bilmədim.
Keçən yayı da ötürdüm,
Payızda gələ bilmədim.

Torpağını sulamadım,
Üz qoyduğun torpaq yandı.
Qəbrin üstə çiçəklərin
Gülü soldu, yarpaq yandı.

Getdiyin dağlar vəfalı,
Laçın sənə meh göndərdi.
Gülü solmuş məzarının,
Güllərinə şeh göndərdi.

Hazır eylə yurd-yuvamı,
Az qalıb, çəkib gələcəm.
Bir az yır-yığışım qalıb,
Yanına köçüb gələcəm!

***

Unutdum səni də elə
Hər şeyi unutduğum kimi.
Könlümün islaq yerini
Günəşə tutduğum kimi.

Atdım özümü bu eşqdən,
Atdım solğun aya kimi.
Eh... birtəhər yaşayacam
Könlümdəki o dənizdən
Lal sükutlu çaya kimi.

Yola verəcəm bu ömrü,
Şaxtasıyla, ayazıyla.
Səsim göylərdə qalacaq,
Azmış bir qu avazıyla.

O səs ağladacaq səni,
O səsdən eşq umacaqsan.
Sən göylərə gələnədək
O səslə bir yanacaqsan!



Yeganə Kamal CABBARLI

YASƏMƏN QOXULU XATİRƏLƏRİM

Mənə şəkərsiniz, mənə balsınız,
Hərdən uzun çəkən qalmaqalsınız,
Tanrıya şükür ki, məndə varsınız,
Məni sevgisiylə boğan qəhərim,
Yasəmən qoxulu xatirələrim.

Ruhum əsir düşüb bulaqlarında,
Sədası hər zaman qulaqlarımda,
Qanadsız bülbüləm, dodaqlarımda,
Laylaya dönüşən qəmim, kədərim,
Yasəmən qoxulu xatirələrim.

Gözümü yumaram, yuxularımda,
Dalaram uşaqlıq qorxularıma,
Sizdə saxladığım yoxum, varım da
Başına döndüyüm barım, bəhərim,
Yasəmən qoxulu xatirələrim.

Gah candan can alan zaval kimidi,
Gah haya çağıran qaval kimidi,
Əhvalın içində əhval kimidi
Gümüşü yalınlı ay ağ kəhərim,
Yasəmən qoxulu xatirələrim.

Könlümə biçilən donum oldunuz,
Azala-azala sonum oldunuz,
Gözüm baxa-baxa itirdiklərim,
Yasəmən qoxulu xatirələrim...

***

Ömrümün payızı düşüb yollara,
Sarala-sarala, nigaran gedir.
Yağış yağdırırdı, çevirdi qara,
Bağın afat vurmuş bir bağban gedir...

Yamyaşıl pöhrəli, zümrüd naxışlı,
İlləri düzmüşdü budağı üstə.
Qəfil hardan əsdi bu külək, ALLAh,
Töküldü yarpaqlar dəstəbədəstə...

Daha günəşi də isitmir, solğun,
Hərdən işıldayır başımın üstə.
İllərin köhləni dayanıb yorğun,
Dağları zor aşıb, dirənib düzdə...

Ömrümün dumanlı yoxuşlarında
Geridə qoyduğum illərdə xəstə
Nisgilim göllənib baxışlarımda,
Axır damla-damla yanağım üstə,
Axır damla-damla yanağım üstə...

"BƏYAZ GECƏ"LƏRİN SİRDAŞI

Bu sirdaşın adı Məlihə, soyadı Əzizpurdur... 1979-cu ildə Güney Azərbaycanın Əhər şəhərində doğulub... Lakin sonralar ailəsi Təbrizdə məskunlaşdığından Məlihə də bu qədim şəhərin əsrarəngiz qoynunda boya-başa çatıb. İlk və orta məktəbi də elə Təbrizdə bitirib. Ali təhsil almaq üçün sənədlərini Təbriz Universitetinə təqdim edən istedadlı gənc qız 2002-ci ildə psixologiya fakültəsindən məzun olub. Daha çox oxumaq və yeni-yeni fəaliyyət sahələrində özünü sınamaq, xalqına daha çox faydalı olmaq amacıyla qəzetçilik-jurnalistika məktəbində də dərs almağa başlayıb. Bundan sonra Təbrizdə ayrı-ayrı qəzet və dərgilərlə əməkdaşlıq edib, bir sıra maraqlı mövzularda yazdığı dərin məzmunlu məqalələrlə oxucuların diqqətini çəkib, rəğbətini qazanıb. Güney Azərbaycanda uşaq ədəbiyyatı sahəsində böyük bir boşluğun olduğunu görən gənc yazar məhz uşaqlar üçün "Qarışqa" adlı dərgi dərc etmək qərarına gəlib və nəşrinə icazə almaq məqsədilə İran İslam-e İrşad İdarəsinə müraciət edib. Lakin müraciət etdiyi vaxtdan 10 ildən də çox zaman keçməsinə baxmayaraq, "Qarışqa"ya nəşr izni ala bilməyib... "Əsr-e Azadi", "Nəsim-e Qaradağ", "Azər Türk", "Aftab-e Azərbaycan" kimi bir dərgi və qəzetlərdə uşaq ədəbiyyatı bölümlərinin sorumluluğunu üzərinə götürüb və müəyyən işlər görməyə nail olub. 2002-ci ildə "Yağmur" adlı ilk şeir kitabı işıq üzü görüb. Daha sonra "Dəmir sevgi", "Yasaq duyğular", "14 qələm bəzənmiş Ay", "Göy gözlü Tanrı" şeir məcmuələri birbirinin ardınca Təbrizdə yayımlanıb. "Su pıçıltısı" və "Mənə bir küçə bağışla" adlı iki şeir toplusu isə Bakıda "Dayaq" Dünya Azərbaycanlı Yazarlar Qurumunun layihəsi əsasında "Qanun" yayım evində nəşr olunub. Təbrizdə "Ağ gecə" adlı qısa həcmli-miniatür, Məlihənin özünün təbirincə desək, kibriti hekayələr toplusu çap edilib. "Ağ gecə" kitabı 2010-cu ildə Tehranda "İn əst şəhr-e mən" adı ilə Fars dilində də yayımlanıb. "Ağ gecə" gənc yazarın nəsr sahəsində də qabiliyyətini, təhkiyə ustalığını üzə çıxarıb. Lakin mövcud rejimin basqıları ucbatından bir çox qələmdaşları kimi doğma yurdunda yaşamaq imkanından - mutluluğundan məhrum edilən Məlihə Əzizpur bu gün Türkiyənin İzmir şəhərində yaşayır və Ege üniversitesində "Türk Dünyası ədəbiyyatları" bölümündə doktoranturada oxuyur, elmi-ədəbi-bədii yaradıcılığını isə uğurla davam etdirir...

Çağdaş və klassik poeziyanın incəliklərini mənimsəyərək modern şeirin mükəmməl nümunələrini yaradan Məlihənin bu gün Güney Azərbaycanda inkişafda olan "dirəniş ədəbiyyatı"nın formalaşmasında özünəməxsus rolu, müstəsna xidmətləri var. Məlihə dövrümüzün ən çox oxunan, sevilən şairlərindən biridir... Xalq şairi Fikrət Qoca onun bədii yaradıcılığına, poetik duyumuna və mövzuya yanaşma ustalığına yüksək dəyər verərək onu çağdaş Azərbaycan ədəbiyyatının istedadlı nümayəndəsi kimi xarakterizə edib: "Məlihə Əzizpur müasir şairdir. Müasir Qərb şeirini də yaxşı bilir. Bilmək azdır. O, müasir təfəkkürlü şeir misraları arasında şərqin və qərbin hərarətini saxlayıb. Bunu öyrənmək mümkün deyil. Buna yalnız istedad lazımdır, böyük istedad: Bu xanım şairdi, özü də çox yaxşı bir şairdi!"

İçinizdə hər an ad dəyişdirən mikroblar!
Siyasət fahişələri!
Tarix zibilliklərində sümsünərkən
Görmədinizmi köpəkliyinizin adına
Bir parça sümüyü belə yoxdur?!
Görmədinizmi
Varlığınız belə yoxluq biçimindədir!

Bu bizik, Tarix yaşlı türk!
Əsirlərin çərçivəsinə sığmayan ƏR
Dustaqlara yerləşməyən NƏR!
Söyləyin, necə quyruq bulayırsınız
soframızın başında,
Ehey, qapımızın itləri?!
Əlbəttə ki zaman, tərs geyib başmağını…
Yoxsa duyardınız
Qurdumuzun səsi necə uzanır
Altaylardan Balkanlara...
Görərdiniz, qartallarımız necə aslan ovlayır!
Göllərimiz, necə nəhəng yaşadır bağrında...

Onun modern üslubda yazdığı bu şeirini bütöv şəkildə təqdim etdim ki, oxucunun təsəvvürü aydın olsun və bu yurdsevər qızın kiçik həcmli bir poetik mətnin iç qatına necə böyük məna yüklü fikirlər, dərin mətləblər sığışdıra bildiyinə şahid olsun... Bu qabiliyyətin sahibi əsl istedaddır! Türkün bir millət olaraq kimliyini və Altaylardan Balkanlaradək ayaqda qalmaq üçün böyük bir mücadilə yolu keçdiyini, şanlı, şərəfli tarix yazdığını bədii sözün gücü ilə bircə şeirdə oxucuya çatdırmağı bacarmaq məhz istedadlı qələm sahibinin işidir...

Məlihənin şeirlərində ən çox müraciət etdiyi mövzu Vətənin azadlığı, istiqlal, müstəqillik, ana dilinin əsarətdən qurtuluşu, ədəbi dilin inkişafı, qədim Türk yurduna məhəbbət, el-obaya sədaqət hisləridir. Şeiri insanın həyat və yaşayışının aynası kimi dəyərləndirən xanım yazar müsahibələrində daim vurğulayır ki, şeirləri məhz Güney Azərbaycanı, doğma xalqının real həyatını tərənnüm edir. Milli ruhlu yazar çağdaş şair və araşdırmaçıların səylərinə, bu yöndə xidmətlərinə baxmayaraq, Güneydə bu gün vahid ədəbi dilin tam şəkildə formalaşa bilməməsindən dərin narahatlıq hissi keçirir. Güney ədəbiyyatının mövcud durumunu ayıq nəzərlərlə müşahidə edir, sağlam məntiqlə düşünür və real mənzərə qarşısında bir ziyalı, yazar kimi susa bilmir və aktiv mövqe sərgiləyir.

O, vaxtaşırı Güney Azərbaycanda çağdaş şeirin durumunun aydın xülasəsini verir, istedadlı gənc şairlər sırasında öncüllərdən biri olduğunu təsdiqləyən bitkin modern şeirlər yazır. Ədəbiyyat sahəsində bəzi qələm sahiblərinin yalnız modern və avanqard ədəbiyyatı dəstəklədiyini, bəzilərinin klassik ədəbiyyatı yenidən qavrayaraq ona yeni özəlliklər aşılamaqla çağdaşlaşdırmağın tərəfdarı olduğunu, bir qisim şairin ədəbiyyatı şeirdən, bəzilərinin isə yalnız və yalnız nəsrdən ibarət sandığını bəlirləyən şair-tədqiqatçı yazır ki, istər şeir, istərsə də nəsr əsərlərinin əsas mövzusu yenə də vətən, özgürlük, sürgünlük, sevgi, ayrılıq, həsrət və s.-dir. Pəhləvi rejimi devrildikdən sonra Vətənin fəzası bir az açılıb aydınlaşdı, Güney Azərbaycan şeirində yeni dönəm başlandı, - deyən Məlihə xanım 1986-cı ildə Səhər xanımın (Həmidə Rəiszadə) "Mavilər" adlı şeir kitabının nəşrini çağdaş Güney ədəbiyyatında yeni ədəbi hadisə sayır. "Mavilər" kitabındakı şeirlərin ədəbiyyatda yeni ruh, yeni atmosfer yaratdığına, Güney poeziyasının canlanmağa başladığına diqqət çəkən şair-araşdırmaçı Səhər xanımın fikir və duyğularının ifadəsində də tamamilə dəyişik, yeni bir forma - canlı təsvir, simvollar və rəmzlər, orijinal bədii təsvir və ifadə vasitələrindən istifadə etməklə yaşadığı dövrün, cəmiyyət və fərdlərin açıq-gizlin dərdlərini cəsarətlə açıqlamadığını vurğulayır...

Məlihə Əzizpurun gənc nəslin Şəhriyara münasibətinə, eyni zamanda ustad şairin Güney ədəbiyyatı qarşısındakı misilsiz xidmətləri məsələsinə daha həssas və içdən, həm də qlobal yanaşması düşündürücüdür: "İranda fars dili və ədəbiyyatı qarşısında türkcə uzun illər boyunca susarkən son dönəmdə çağdaş türk ədəbiyyatının ən böyük şairi Şəhriyar yetişdi. Şəhriyar, İranda farsca qarşısında yox olmağa üz tutan türk dilini "Heydər Babaya salam" əsəri ilə əbədi olaraq ayağa qaldırıb başını göylərə çatdırdı".

Təbii, həqiqətən çətindi, doğma Vətənin qoynunda dili, arzuları bağlı yaşamaq... Səhəndin təbirincə desək, "Keçmişindən, gələcəyindən söz açması, dədə-babasından

ad alması" yasaqlanmış bir rejimdə ömür sürmək... Güneyli yazarlar bu yasaqlara son qoymaq uğrunda çabalar göstərir, bu amacla qələmə sarılır, söz və əməl cəbhəsində savaşa atılırlar. M.Əzizpur insanı varından yox edən bir şeirində bu çox çətin və ağır savaşın labüdlüyünü bədii poetik sözün gücü ilə çatdırır oxucusuna... "Çatdırır" sözü çox yüngül səslənir, onun mətləbləri birbaşa oxucunun beyninə, ürəyinə millənir... Bu şeiri oxuyarkən insanın ruhu, damarlarındakı qanı donur:

Köynəyinin yaxasını aç, köksünü görüm,
Offff!
Burada ki dost izi var,
- Necə də mehriban əlləri varmış -
pambıqla kəsib döşlərini.
Heç inciməyib, gözlərindən bəllidi.
Qoy kürəyinə də baxım.
Yaralarına toxunmaram, qadan alım,
Yalnız söylə,
Bu qamçı-qamçı qan yollarının sonunu
Kimdən xəbər alım mən?
Olursa yaşmağını da aç,
Gülümsəməni görüm lütfən.
Ağlamaram, söz vermişəm Türk kimi –
Amma yaylığını götürmə kəsin,
Götürmə yaylığını.
Sənə gələrkən gördüm:
Saçlarından çatı hörmüşdülər dar ağaclarına.
Dur, yola sal məni,
Saçlarını geri almağa gedirəm
Naməhrəm əllərdən.
Dua et mənə, Maralım, Yaralım.
Bayraq edək bu dərdimizi birliyə, bütövlüyə,
azadlıq zirvəsinə ucalaq!
Qalxaq ayağa,
ey Bütöv Azərbaycan!

Üzdə dost görünən, saxta mehribançılıq oyunu oynayan düşmənin nə mehriban əlləri varmış ki, pambıqla kəsib döşlərini... Sətiraltı məna səni düşündürməyə bilmir... Ancaq şair qətiyyətlidir, gələcəyə ümidli, inamlıdır... Lirik qəhrəmanı ölümə məhkum edilmiş günahsız bir elin mərd oğul və qızlarını asmaq üçün gərək olan "dar ağaclarına çatı hördüyü sevgilinin-Vətənin saçlarını naməhrəm əllərdən geri almağa", qamçı-qamçı açılan qan yollarının sonunu bulmağa-azadlıq zirvəsinə-Bütövləşməyə aparan yol uzun və çətin yola çıxmaqda israrlıdır... Bu, maneələrlə dolu ağır bir yoldu, savaş da ağır savaşdı, ancaq bu savaş labüddü...

Məlihə xanımın Güney Azərbaycandakı real vəziyyətin, gerçək mühitin diktəsilə söylədikləri - bu acı həqiqət insanın ayaqlarını yerə mıxlayır və soydaşlarını bu barədə ciddi düşünməyə səfərbər edir: "Qurtuluşun və azad bir millət olmanın bədəli vardır. Heç bir millət öz-özünə qurtulmur. Heç bir qurtuluş dirənişsiz olmur. Bizim gənclərimizin bu yolda çəkdikləri əzablar, zindanlar və gördükləri işgəncələr, bu qurtuluş yolunda ödənilən bədəldir. Bu da nəticəsiz qalmayacaq. Çünkü tarixdə doğruluq, haqq və ədalət yolunda gedən mubarizələr sonucda qurtuluşla nəticələnmişdir, ancaq qurtuluş düşüncəsini, qurtuluş duyğularını toplumun dünyagörüşündə əkən və oluşduran yazarlar, şairlər və aydınlar olmuşlar. İndiki mərhələdə milli qurtuluş, zaman keçdikcə türk toplumunun dünyagörüşündə bir inanc şəkli almaqdadır. Bu inancı ayrıntıları ilə açıqlayan, etik və estetik tərəflərini izah edən, milli dilimizdə yazılan modern ədəbiyyatdır. O da milli dildə yazılan modern ədəbiyyatın yaradıcılarından biridir... Ənənəvi fədakarlıqlar, sevgilinin aşiqi üçün göydən ulduz qoparmaq, dənizi hədiyyə vermək, dünyanı bağışlamaq, yaxud "Sarıköynək" təki bəzi aşıq mahnılarında hətta "Anasını belə sevdiyinə qurban etmək" kimi üsullar da çağdaş Güney poeziyasında dəyişilməyə məruz qalıb, tam yeni forma və ifadə üsulu ilə əvəzlənib... Və... Məlihə Əzizpurun: "Mənə bir küçə bağışla! Gözləri tam dənizə açılan, bir sevdanın xəyalı ilə uyuyan, ürəyi uzaqdan gələn gəmilərin səsi ilə döyünən, yolçuların ayaq səsi ilə oyanan, mahnıların səsi ilə oynayan bir küçə" arzusuna, diləyinə çevrilib... Elə bir küçə ki, "Gözlərindən ürəyinə köçə bilim" kimi dəlicə bir istəyə, kövrək və israrlı

bir sevgi etirafına dönüb... Sevgilinin gözlərinə köçüb orada ömrü boyunca qalmaq! Bundan orijinal, bundan təsirli sədaqət andı, sevgi etirafı olarmı?! Elə bir küçəni hansı aşiq bula biləcək, görən? Məlihənin oxucunun gözlərinə, sonra isə qəlbinə, ürəyinə köçüb əbədi qalan küçədə yansıyan diləklər:

Mənə bir küçə bağışla!
Tam dənizə açılsın gözləri.
Martılar keçsin xəyalından səhər-axşam.
Və uzaqdan gələn gəmilərin səsi ilə
Döyünsün ürəyi...
Mənə bir küçə bağışla!
Yolçuların ayaq səsi ilə oyansın.
Mahnı səsi ilə oynasın.
Və bir sevda xəyalı ilə uyusun...
Mənə bir küçə bağışla!
Gözlərindən
Ürəyinə köçə biləcəyim bir küçə...

Modern şeir sonsuzluqda, alt qatda gizlənən mənalarla yüklü olur. Bu tipli şeirlərindən birində sərgilənən alt qatdakı anlamda "İnsan ən dəyərli varlıqdır və bu dəyərli varlıq Tanrıya aid olmur. Tanrı ilə bərabər olaraq dünyanı bölüşür. Ancaq ən sonunda bütün dünyanı Tanrıya buraxıb, təkcə "sən"i seçir. Bu "Sən" onun üçün çox önəmli, dəyərlidir. Bu, əslində varouşçuluq fəlsəfəsidir: "Sən, mən, dünya və Tanrı-inanc..." İnsan olanı yaşadan ən dəyərli nəsnələr:

Dünən, Tanrıyla bölüşürdük varlığı.
Yeri o götürdü, göyü isə mən.
Sən ortada görününcə
göyü bağışlayıb, səni götürdüm...

O, həm də kiçik hekayələr qələmə alır, şeirlə deyə bilmədiklərini yığcam nəsr nümunələrində, miniatür, özünün ifadə etdiyi kimi, "kibriti hekayələr"ində deməyə çalışır... "Ulduz"un dəyərli oxucularına çağımızın istedadlı qələm sahibinin həmin "kibriti hekayələr"ini təqdim edirəm...

Esmira FUAD

KİBRİTİ HEKAYƏLƏR

Məlihə ƏZİZPUR

LAL HACİYƏ

Bozarmış çadrasını belinə bağlayıb, yepyekə başmaqları ilə küçənin duvarına söykənib, avara-sərgərdan baxışlarını gəlib-gedənin üzünə sərir. Onun önündən keçərkən gülümsəyib başımla salam verirəm. Maraqla iki addım irəli gəlib səsinin bütün tutqunluğu ilə "Səlam... keyfin?! –deyə qarşımda dayanır. Yenidən kefini sorub getmək istəyirəm. Arxamca bağırıb deyir:

- Baci, əhbə öydü.

Yanlış duyduğumu sandım. Geri dönüb qarşısında dayandım və:

- Necə oldu? – deyə ondan soruşdum. Əlini əlinin üstünə çırpıb və isınaraq təkrarlayır: "Əhbə öydü". Sözlərindən şaşırıram, həm də gülməyim gəlir. O an mırt edib deyirəm:

- Haciyə, bəs mənim sırğamı havaxt alacaqsan? Toya gedəcəyəm, ha?!

Mənə qaşqabaq edərək başını tovlayıb başmaqlarını sürütləyə-sürütləyə gedir. Yoluma davam edirəm. Onunla zarafat elədiyim üçün üzülürəm. Axı o, özü məni gördüyü vaxtlarda ərinin ölməsi üçün sürəkli dua etməyimi istəyirdi, mənsə özümü o yola vurub deyirdim:

- O ölsə, muştuluq nə verəcəksən mənə?

O da iki əlini göyə qaldırıb ərini qarğayır və mənə sırğa alacağına and içirdi.

Ərinin ölməsindən bir həftə keçir. Haciyə küçənin başında onun tiryək-siqara qoxulu köynəyini bağrına basıb ağlayır, uşaqcasına bağırır:

- Allah... Bağışla məni... Bilmədim... Allah...

Qonşular onu sakinləşdirməyə çalışırlar, mənsə boğazımdakı qəhəri yastığımla boğmağa...

SARI SƏRÇƏ

Doqquz yaşında idim. Ən böyük bilgim "yaxşı qız" olmaq üçün çalışmağım idi. Bununla belə yerdə, göydə dayanmır, keçi kimi dam-duvara dırmaşardım.

Onlar qonşuluğumuzda olan kirayə evə yenicə daşınmışdılar. O hər axşamçağı qapılarında dayanıb küçədə şıltaqlıq edən uşaqlara baxardı. Mən isə onun yenicə bitməyə başlayan bığlarına baxıb qaqqıldayardım. O isə qıpqırmızı qızarıb evlərinə girərdi. Onların gəlişindən iki ay sovuşurdu. Bir axşam yenə də o, qapılarının önündə dayanmışdı. Məni görüb qızara-qızara yanına çağırdı. Ona doğru gedib nə söyləmək istədiyini sordum. O, arxasında gizlətdiyi əlini qabağa uzadıb dedi:

- Bax, bunu sənincün tutmuşam. Sarı sərçədi....

Sevincək ona baxdım. Elə utandım ki, gözlərindən.... Sarı sərçəni alıb evə gətirdim. Allahım!!! O nə qədər sevimli bir quş idi. Sarı sərçəm qaçmasın deyə ayağına sap bağlamışdım. Axşamlar daha küçəyə çıxmayıb yalnız o quşla oynayardım. Bir dönə nədənsə səhv edib onu gözdən qaçırmışdım. Amma ayağına sap bağladığıma görə tezliklə tapacağıma əmin idim. Sarı sərçəni nə qədər axardımsa, tapa bilmədim, o üzdən quşu tapmağa yardım istəmək üçün onların qapısına getdim.

Qapını çalarkən küçədəki uşaqlar, onların keçən gecə köçüb getdiklərini söylədilər. Üzgün-üzgün evimizə döndüm. İki gün sonra sarı sərçənin ayağındakı sap ilə bağcamızdakı qızılgül butasından asıldığını gördüm.

KÖRPƏ

Ana on üçüncü dönə doğdu. Yenə də körpəsinin "İnqə" səsini duymadan ayırdılar onları. Ana ağzını yerdən göyə qədər açıb bağırdı. Doğum sancısından deyil, ayrılıq ağrısından da yox. Döşləri partlayırdı yazıq qadının.

Quduz siçanlar onun əmziyinə daraşdılar. Bir damla südü yerə düşməməli idi. Yoxsa....

Ana acımadı. Eyni birincidən on ikinciyəcənin tərsinə. Ana güldü eyni birincidən on ikinciyəcənin tərsinə...

Körpəni bir daxmaya apardılar. Orası ölüm quyusu idi, deyəsən! Daxmanın hər bucağına orada olan köpəkləri illər boyu aclıqdan qoruyan qədər sümük qalanmışdı. Qancıqlar ulaşırdılar. Onların da əmzikləri partlayacaq qədər şişmişdi. Oysa körpəni görcək gözləri güldü. Axı körpə onları, o canalıcı ağrıdan qurtaran tək kişi idi. Qancıqlar körpəni əmizdirmək üçün sıra çəkdilər. Ancaq onların heç birisinin əmziyini tutmadı uşaq. Onlar öz-özlərini əmməyə başladılar. Onlar əmişdikcə körpə qusdu. Onlar hürüşdükcə körpə susdu.

Qancıqlar rahatlanmış kimi görünürdülər. Ancaq körpə sancıdan ağlamağa başladı. Onun qarnı elə şişmişdi ki, hamilə qadına bənzəyirdi və bu görüntü ona heç yaraşmırdı. Qancıqlar, yenə də əmziklərinin ağrısından hürüşməyə başladılar. Körpə onlardan qorxmuş kimi görünürdü. Bir azdan sonra o da bağırmağa başladı. Sanki doğum sancısı çəkirdi zavallı uşaq. Qancıqların hürüşməsi kəsilirdi asta-asta, bu hal isə köpəkləri çox şaşırdırdı. Körpə də susmuşdu artıq. Axı o da rahatlanmışdı. Körpə bir sürü siçan doğmuşdu.

KÖLGƏ

Əllərinə baxdı. Dırnaqları uzanmışdı bir az. Sağ əlinin baş barmağını ağzına aparıb dırnağını çeynədi. Nişana barmağını da... Orta barmağını da.... Üzük barmağını da.... Çulu barmağını da habelə.

Sol əlinin də dırnaqlarını çeynədi birbəbir. Barmaqlarının başı göynədi. Sağ əlinin baş barmağını ağzına aparıb o qədər sümürdü ki, barmağı partladı. Nişana barmağı da..... Orta barmağı da.... Üzük barmağı da... Çulu barmağı da habelə...

Sol əlinin də barmaqlarını sümürdü birbəbir. Əlləri əyildi. Ürəyi bulandı birdən-

birə. Yerə tüpürdü... Tüpürcəyi qanlı idi. Ağzını silmək istədi. Əlləri qalxmadı. Güzgünün qarşısına keçdi. Dodaqları parçalanmışdı. Dişləri uzanmışdı. Hörümcəyə bənzəyirdi güzgüdə. Acığı gəldi özündən. Güzgünü sındırmaq istədi, əlləri qalxmadı. Dışarıya qaçdı. Kölgəsi uzanmışdı. Özünü çeynəməyə başladı.

KİLİM

Nə duvar başında pişik, nə ağac dalında qarğa, nə sərçələr, nə də küçədə şıltaq uşaqlar var. İl bayramına iki gün qalır. Deməli, birisi gün bayram axşamı sayılır. Qışın ən son günləri olduğuna baxmayaraq, soyuq külək bütün gücü ilə əsir. Qadın çadrası boynunda, çəkmələri ayağında, qollarını çırmalayıb bir köhnə kilimi küçənin çuvər simtələri üstə açıb, zinə gələn suyu üzərinə çilləyir və bir kulə süpürgə ilə islanmış yerlərini süpürgələyir.

Külək elə sərt əsir ki, birdən kilimi ortasına qədər qalxızıb yerə çarpır. Qadın su şlanqını dəbbəyə qoyub süpürgəni yerə atır və əlləri tutar-tutmaz, kilimin qırıncını açır. Bir kərpiç parcası tapıb bir guşəsinə qoyur. Bir guşəsinə isə yarıya qədər dolmuş su dəbbəsini qoyur. Sonra kilimi yenidən süpügələməyə başlayır. külək yenə də güclənib kilimi qırışdırır. Qadın gözlərini ovuşdurur, kilimin qırınclarını açıb qalan yerlərini də süpürgələyir.

Qadın kilimin üstündən su axıdıb qatlayır. Külək hızlıca əsir. Qadınsa sabahı yox, birisi günü düşünür. Bir də haradasa gizlənmiş günəşi...

AYNA

Qapını kilidlədi. Lampanı yandırmasaydı da olardı, amma işığın saçılması daha gözəl olurdu. Bədənini bir qızışma bürüdü... Köynəyinin birinci... ikinci... üçüncü... dördüncü düyməsini belə açdı... Barmaqlarının ucu ilə köynəyinin yaxasından tutub astaca silkələdi. Ax... necə də yapışırdı o incə sərinlik! Duvardakı aynanın qarşısına keçdi. Kiçik barmağı ilə aynanın tərini çizdi. Sallanasallana köynəyini sonra da başqa geyimlərini soyundu (Ağappaq, süd kimi idi bədəni!). Hörüyünü açıb çiyinlərinə dağıtdı. Aynadan uzaqlaşdı bir az (Geştaltcasına" görünmək istəyirdi)... Hey!!!

Nə gözləmişəm mən! Bir kəşf olunmamış sirr kimi!

Mızıldandı özü ilə. Aynaya yaxınlaşdı. Yenə yaxınlaşdı... yenə də... gözlərinə baxdı. Yanaqlarına... dodaqlarına... və... Sonra gözlərini yumdu, aynadakı şəkli dodaqlarına dayadı matıklı dodaqlarını. Şampun... sabun qoxuyurdu öpüşləri.

İsti su altında gözlərini açmadı kəsin. Yalnız təmizləşməyi fikirləşirdi...

KÖPƏK

Gecə bir az da yetişdi. Gözləri qaranlığa alışmamışdı. Kor havası əlilə bir yer tapıb oturdu. Yerində rahatlanıb qarşıya göz dikdi. Neçənci gəlişi idi bilmirdi. Gəldiyi hər dönə birinci, oranı tərk edən də sonuncu adam olardı, amma nədənsə bu dönə gec qalmışdı.

Hələ özünə gəlməmişdi. Səhnə dönə-dönə təkrarlanırdı beynində. Bir tikə dialoq dilinin əzbəri olmuşdu və kəsmədən, dəlicəsinə söyləyirdi öz-özünə.

Qapı açıldı. Gözağrıdıcı işıq gözlərini qapandırdı. Bir çolaq köpək səssiz-səsiz gedirdi.

AĞ GECƏ

Tam romantikcə yaşayırdı. Birisini sevərdi ölümsüzcəsinə. Nədənsə onu itirmişdi bir türlü... Günün səksən altı min dörd yüz saniyəsini ancaq onu düşünərdi. Çevrəsində baş verən olaylarda yalnız onu anımsadan bir ələman arayırdı və ona bənzəyən hər kəsə sevdalanardı dəlicəsinə...

Bir romantik gecədə qarşılaşdılar. Ancaq onunla kəsin görüşmədi. Artıq nifrət edirdi.

TELEFON

Telefon ağappaq gözlərimə baxır. Əllərim dəstəyinə uzanır. Üzüntülü bir səs sinirlərimi pozur. Dəstəyi yerinə qoyuram. Ancaq zəng etmək üçün maraqlanıram. Dəstəyi yenidən götürüb qulağıma yaxınlaşdırıb beş saniyəyə qədər o halda saxlayıram. Yenə də bir az öncəki çıldırdan səs beynimi qazmağa başlayır. Zəng etməkdən vaz keçirəm. Dəstəyi telefonun üstünə buraxıb oturduğum yerdən qalxıram. Əllərimi tellərimdə daraqlayıb tavandan asılan lampaya göz dikirəm. Gözlərim qaralır. Birdən dizlərim üstə çöküb gözlərimi bütün gücümlə qapayıram. Azacıq rahatlayandan sonra yerimdə oturub masanın üzərindəki kitabı götürüb maraqsızcasına varaqlamağa başlayıram. Kitabın qırxa yaxın səhifəsi var, ancaq arabir oxuduğum sətirlər onun ağır düşüncə daşıdığını bəlləndirdi. Kitabın illik varaqlarına dönüb, onun yayım ilinin zamanını arayarkən telefonun gərgin səsi fikrimi dağıdırdı. Kitabı eləcə qoyub dəstəyi götürürəm. Bir yabançı səs:

– Alo, orası...-nınmı evidir? - deyə soruşur.

– Yanlışdır, deyil, - deyə qapadıram.

Əlim hələ dəstəyi buraxmayıb. Bir şeylər keçir fikrimdən... Üşüntülü bir hiss bütün gövdəmi titrədir. Naşı oğru kimi öz hənirtimdən belə qorxuram. Bu halımın nədənini isə heç anlamıram.

Dəstəyi hələ də əlimdən buraxmamışam. Astaca qulağıma doğru aparıram. Telefonun "Duuuuuud" səsi ilk nömrə yazılınca kəsilir. Hər nömrəni yazdıqca höyüşnəm çoxalır, ürəyim çılğıncasına döyünür, sonuncu nömrə yazılır. Az vaxtdan sonra telefonun açılmasını və "Alo" söyləyən səsi indidən eşidib aydıncasına hiss edə bilirəm. Hər an iztirabdan boğazım quruyur. Zaman sovuşur, lakin birisi o taydan telefonu qaldırıb tutqun səsi ilə "Alo" söyləməyir!

İldırım çalmış adam kimi yerimdə quruyuram. Öz halıma gülməyim gəlir. Yəni boşuboşunamı bu qədər iztirab çəkmişəm?!..

Dodağımı dişlərimlə sıxıb gözlərimi duvara zilləyirəm. Birdən duvarda iki gün sayar diqqətimi çəkir.

– Ah... bu gün ayın nəhs günüdür! Bunu öncədən bilməliydim! Ancaq ki... tam yeddi saatdır otaqdayam. Dışarıya çıxıb hava almaq istəyirəm.

Ancaq telefonun səsi otağı doldurur. Dəstəyi götürürəm. Yenə də o yabançı səs:

– Alo,.....orası-.....nınmı... evidir?" - deyə soruşur. "Yox....! Bu ikinci dönədir zəng açırsınız, buraxın lütfən", - deyirəm və telefonu qapadıb otaqdan çıxıram.

QAR DANƏLƏRİ

Pəncərə arxasında dayanıb asfalta qonan qar dənələrinə baxır. Əlləri qıpqırmızı qızarıb. Hərdən insafsızcasına hovxurur donmuş barmaqlarına.

Bir yadırğanmış şeyi anımsamış kimi birdən dönüb otağın bucağına atılmış qara çadrasını götürür, başına salar-salmaz qapıya doğru qaçır.

Xiyabandakı hər kəs onun neçə dəqiqə öncə döndüyünü bildirir.

Məzarlığa qar yağır....

BAYRAM

Yenicə evlənib. Ən böyük yatırımı biləyindəki gücüdü, bir də ürəyindəki ümidi.. Adı Bayramdır. Bütün bayram günləri də gözləri dolar nədənsə. Nə isə... Bir şirkətdə çalışır. İşi ağır olsa da, qatlaşır... "Kişi özünü qorxutmamalıdır çətinliklərdən", – düşünür.

Bütün işçilər nahar yeməyinə çıxıblar. Hər kəs evindən gətirdiyini yeməklə məşğuldur.

Bayramı isə yarım saat öncə apardılar. Deyirlər: «Düz biləkdən qırılmışdı əli...»

SEVGİ

Təbrizdə yazmışdı o yazını. Elə beləsi.. "Bəlkə qələmini dənəyirdi düz yazı yazmaq üzərində. Nə isə bir yazı yazmış, düz yazı". Ancaq adı yox idi o yazının. Hələ qrammatik yanlışlıqları da var idi... Onun suçu deyildi. Çünki öz ana dilində yazmağı öyrətməmişdilər - elə beləsinə öyrənmişdi "türkcə" yazmağı...

Bir qürbət şəhərdə zibil daşqası ilə dirildi birdən-birə yazının xarakteri. Ürəyi tköküldü. Zibilçini izlədi xiyabanın sonunadək. Onu sevirdi və sevgisini zibillərini verməklə bildirirdi ona.

GÖRÜŞ

Əl-ələ tutaraq yeni çiçəkləmiş ağacın yanında dayandılar. Gözləri dolan qız qəhərli səslə dedi:

– Səni burada gəzləyəcəyəm.

Oğlan isə heç nə demədən baxışlarını onun gözlərinə zillədi.

Tam o ağacın yanında dayanmışdılar. Heç nə dəyişməmişdi. Yalnız qızın qaşları incəlmiş, oğlanınsa saçları bir az seyrəkləşmişdi...

SORĞU

Bir şey çeynəyirdi beynində. Birdən soruşdu: "Mən deyirəm hələ uşaqdı. Yaşlanmağına baxma. O böyümür, yalnız köhnəlir". O deyir: "Yepyekə eşşəkdir, özünü vurub qoduqluğa insan. Sənin fikrin nə deyir?"

Mən nə deyəcəyimi bilmədim. Yalnız qah-qah çəkib güldüm.

ƏZİZ XƏYAL

Dünyanın üzərində heç nə, hətta uzaqdan ağaran yiyəsiz tikinti belə onun qədər yalqız deyildi. Ürəyi bir dost üçün sıxıldı. Və O... gecə səhərədək oyaq qalıb tanımadığı birini fikirləşdi...

YÜZ TÜMƏN

Sapsarı saralmışdı. Üzərində qan ləkəsi görünürdü. Asta-asta sürünüb dayanırdı. Maraqlandı. Ona doğru getdi. Qulağından tutub götürdü. 1383 di, 1425 ziqədə, yanvar 2005, birinci il, ikinci sayı, 12 səhifə, 100 tümən.

YEL ATI

Bir mübhəm sızıltı səsi onu küçəyə açılan pəncərəyə sarı yönəltdi. Beynində fırtına qopdu:

- İnsan nə böyük zülm edər hərdən!

Qonşu kişi balaca oğlunun Yel atını satırdı.

YAZI

Demişdi ki, yazacaq. Yadında idi, amma nə yazacağını bilərkən gərəkli sözcükləri tapa bilmədi. Bütün yazdıqlarını qaralayıb kağızı ovcuna bürgələyib fikrə daldı.

YARAMAZ

Dünyada heç işə yaramaz idi. İnsancasına yaşamağı da bacarmazdı əslində. Xiyabandakı dəli daha dəyərli birisi idi. Onunla tutuşduranda o, bir yazıçı idi.

QASIRĞA

Gözlərini qapadı. Göz qapaqlarının arxasındakı qasırğa, dərinliyinə uddu beynini. Ürək tökülməsi kimi xoşagəlməz hiss çiyinlərini titrətdi. Əlini alnına qoyub titrək səslə:

– Ola bilməz"... ola bilməz..., – deyə dizləri üstə çökdü.

– Ax... Yer kürəsi! Bu Əzrayıl yumurtasını sındırıb varlıq quşunu yenidən yumurtlada bilsəydim....

Təbriz 1386//2007

Nəsib NƏBİOĞLU

BU KƏND

Burda qayaların ədasına bax,
Qəlbimin hayına, nidasına bax,
Qadasını alım, "dayna"sına bax,
Qəlbimin ən şirin sözüydü bu kənd.

Həsrəti, nisgili yaman bol olub,
Boynuma dolanan doğma qol olub,
Bu kənd Tanrı eşqi, işıq, yol olub,
Dərəydi, meşəydi, düzüydü bu kənd

Getmir gözlərimdən hər səhər, axşam,
Onu bircə an da unutmamışam,
Gözümdə, könlümdə əbədi bir şam,
Pərvanəsi oldum, közüydü bu kənd.

Əllərim çatmayan səadətimin,
Oğultək bu yurda sədaqətimin,
Nakam bir eşqimin, məhəbbətimin
Şahidi, doğması, özüydü bu kənd.

Kim yazdı bəxtinə belə zamanı,
Çöküb dərəsinə, getmir dumanı,
Nəsibin dönməyə yoxdu gümanı,
Andına, sözünə düzüydü bu kənd.

APARMA

Hardan gəldin, asimandan yollanıb,
Hürü kimi, mələk kimi sallanıb,
Yuxumdasan - dünya, aləm ballanıb,
Gözlərimin yuxusunu aparma!

Gözlərində gizlənmişəm indicə,
Kaş ki, elə ömrüm keçə beləcə,
Kirpiklərin çəpər olsun bu gecə,
Sevənlərin duyğusunu aparma!

Bilirsənmi, könlüm gülmür bu yaz da?
Şair ruhum ayrı teldə, avazda,
Qaçıb getmə, yuxumda qal bir az da,
Məhəbbətin qoxusunu aparma!

APAR MƏNİ

Duman, tülünə bələnim,
Gəlim elinə bələnim,
Gülüm, telinə bələnim,
Gəl düzünə apar məni.

Daha doymuşam qürbətdən,
Bezdim saxta məhəbbətdən,
Çıxar məni bu zülmətdən,
Gündüzünə apar məni.

Həsrət yatar öz izində,
Tiri görməz kor gözündə,
Ədalət yox yer üzündə,
Göy üzünə apar məni.

Üzümüz günə, ayadı,
Göydə ulduzlar oynadı,
Bilirəm yalan dünyadı,
Haqq sözünə apar məni.

Çəmənində bitir məni,
Zirvələrdən ötür məni,
Ümmanlarda itir məni,
Dənizinə apar məni.

BİÇİLİB

Yavaş-yavaş alışmışam dərdlərə,
Ərimişəm qarışmışam dərdlərə,
Əzəl gündən yaraşmışam dərdlərə,
Elə billəm öz boyuma biçilib.

Bir nalədir, bir nəğmədir, bir haydır,
Ürəyimi didib-tökür bir aydır,
Allah verib bir qismətdir, bir paydır,
Acı-şirin söz boyuma biçilib.

Bir baxışdan çiliklənib sınmışam,
Çoxlarından gizlətmişəm, danmışam,
Bir gözəlin gözlərində yanmışam,
Alov, atəş, köz boyuma biçilib.

QONŞU QIZI

Yadındamı çəpər üstən tullanıb,
Gülə-gülə qaçıb bizə gəldiyin?!
İçib qızlar bulağının gözündən,
Tərs böyüyüb kənddə gözə gəldiyin.

Xəbər tutdum həsrətindən, ünündən,
Nələr çəkdim o sevdalı günündən,
Gedən deyil gözlərimin önündən
Qanad açıb süzə-süzə gəldiyin!

Ərimədi donub qalan düyünlər,
İlk məhəbbət sinəm altda hey inlər,
Nə olaydı, qayıdaydı o günlər,
Göy çəmənə, yaşıl düzə gəldiyin!

Bir dəfə də kaş keçəsən qarşımdan,
Baharım yox, çıxammıram qışımdan,
Çıxan deyil bu sevdalı başımdan
Əllərində dolu kuzə gəldiyin.

Aramızda gizli umu-küsü var,
Hər sevdanın avandı var, nəsi var,
Sinəm altda o illərin səsi var,
Yaddan çıxmaz dildə məzə gəldiyin.

SƏNİ

Eşqi saxta, əhdi yalan,
Qəlbimi eylədin talan,
Yalvarıram, qoy Yaradan
Salmasın nəzərdən səni.

Pərvazlanıb uçub getdin,
Qəlbimə od saçıb getdin,
Uzaqlara qaçıb getdin,
Çox gördün bizə sən, səni.

Verdin mənə dərdi-səri,
Nə mələksən, nə də pəri,
Nazlanmağın yoxdu yeri,
Qeyb olub bəzədən səni.

Ömür yalan, sevgi saxta,
Adın donubdu dodaqda,

Bir kuzə gördüm bulaqda,
Soruşdum kuzədən səni!

Yatan baxtı oyatsaydım,
Xoş nəğməyə boyatsaydım,
Ötən çağa qayıtsaydım,
Sevərdim təzədən səni.

BOYDAYAM

Həsrətdən qovrulan mənəm,
Nisgildən yoğrulan mənəm,
Qürbətə sovrulan mənəm,
Qürbətin özü boydayam!

Bəxtim mənə "yen!" deməyib,
"Köhləninə min" deməyib,
Xoş avazla dindirməyib,
Naləli sözü boydayam!

Yaddan hala yanan olmaz,
Hər "can" deyən canan olmaz,
Qürbət el mehriban olmaz,
Həsrətin izi boydayam!

Bizi əyən kimdi, fələk,
Ömrüm, günüm qəmdi, fələk,
Yaxşı günüm kəmdi, fələk,
Dərdimin yüzü boydayam!

El içində olmuşam pərt,
Dövran zalım, zəmanə sərt,
Canımızda köklənib dərd,
Ocağı, közü boydayam.

Moskva

MÜZAKİRƏ KLUBU

"Ulduz" jurnalı və AYB-nin yaradıcılıq məsələləri üzrə katibliyinin birgə layihəsi

"Nasir təfəkkürü", "uğurlu poetik dil" və "ideoloji məqsəd"

Vüsal Nurunun "Dorantağ" romanının müzakirəsində daha çox bu haqda danışıldı.

AYB-nin Ədəbi Seksiyalarının "Müzakirə klubu" layihəsi davam edir. Növbəti diskussiya "Nəsr seksiyası"nda keçirildi. Bu dəfə fantast yazıçı Vüsal Nurunun "Azərbaycan" dərgisinin 2015-ci il 9-cu sayında dərc olunan "Dorantağ" romanı müzakirə edildi. Müzakirədə tanınmış qələm sahibləri – yazıçı Mustafa Çəmənli, tənqidçi Nərgiz Cabbarlı, yazıçı Təranə Vahid, şairə Nuranə Nur və Azərbyacan Yazıçılar Birliyinin Yaradıcılıq məsələləri üzrə katibi İlqar Fəhmi və müəllif – Vüsal Nuru iştirak edirdilər.

Layihənin koordinatoru: Nərgiz Cabbarlıdır.

"Əsəri oxuduqca nasir təfəkkürü göz önündə canlanır"

Müzakirəni AYB-nin katibi İlqar Fəhmi açdı:

- Biz Vüsal Nurunun fantastik janrda yazılmış "Dorantağ" romanı haqqında danışacağıq. Təbii ki, əsəri oxuduqca nasir təfəkkürü göz önündə canlanır. Hadisələrin axarını, dinamikasını inkişaf etdirmək yazıçı peşəkarlığından asılıdır ki, bu da əsərdə görünür. Müəllif mövzuya məsuliyyətlə yanaşıb. O dövrü bacardığı qədər canlandırmağa çalışıb. VII-VIII əsri canlandırmaq isə çox çətindir. Çünki həm mürəkkəb dövrdür, həm də əlimizdə faktiki material azdır. Əsər İslamın Azərbaycanda təşəkkül tapdığı dövrdən bəhs edir. Mən istərdim ki, ilk fikirləri Nərgiz xanım söyləsin. O həm də layihənin koordinatorudur.

"Əsər tarixi fantastik macəra modelinin üzərində qurulub"

Nərgiz Cabbarlı:

- Əsərdə zamanlararası sıçrayışlar, zamanlar arasında adlamalar var ki, bu da təxminən son iyirmi ilə yaxındır, çox aktualdır və istər Azərbaycan ədəbiyyatında, istərsə də dünya ədəbiyyatında tez-tez istifadə edilən bir üsuldur. Eyni zamanda, bu cür adlama prosesi təkcə maraq baxımından əhəmiyyətli deyil, amma yazıçı üçün maraqlıdır və oxucunun da marağını çəkmək məqsədi daşıyır və s. Təkcə bundan söhbət getmir. Bu həm də tarixi həqiqətlərin haradasa üzə çıxarılması məqsədi daşıyır. Və mən bu məqsədi Vüsalın əsərində bir neçə istiqamətdə hiss etdim. Bu məqsədlər nələr idi? Birincisi, tarixi faktları üzə çıxarmaq və bunlara türkçülük prizmasından yanaşmaq. Yəni ideoloji istiqamət. Və bu məqsədə, mənə elə gəlir ki, nail olunub. İkinci bir məqsəd kimi Vüsalın əsərində olan dil eksperimentlərini qeyd etmək istərdim. Əsərdə, bəlkə də, müasir nəsrə çox da uyğun gəlməyən poetik dil eksperimentləri var idi ki, bu gün hər yazıçı o eksperimentlərə getmir. Amma Vüsalda bu, uğurlu alınır və elə bu səbəbdən də diqqətimi çəkdi. Və üçüncü bir məqsəd kimi müəllifin öz fəlsəfi mühakimələrini əsərə yükləmək məqsədini qeyd edə bilərəm. O, özünün dinlə, Allahla, dinlərin qəbulu ilə bağlı fəlsəfi mühakimələrini əsərə yükləməyə çalışıb və bunu bacarıb.

Əsər tarixi fantastik macəra modelinin üzərində qurulub. Belə bir yüklənmə oxucunu öz ardınca apara bilir. Roman bir model kimi, öz strukturu etibarilə tam təsir bağışlayır. Müəllif bilir ki, hardan başlayıb hara gedir. Bəzən elə olur ki, bir nöqtədən yola çıxırsan,

amma gedişat nəzərdə tutduğundan tam başqa istiqamətə aparır səni. Amma burada yol dəqiq bilinir. Təyyarədə başlayır və qəza ilə də tamamlanır. Lakin qəzaya keçid, ondan sonrakı situasiyanın təsviri bir az gözlənilməz və bir az da ideoloji istiqaməti qıran bir təsvir kimi meydana çıxır. Çünki yazıçının Əshabi-kəhfə gəlişi, mağarada axtarışı və s. o qədər təbii bir axarla davam edir, o qədər təbii proses təsiri yaradır ki, sanki məqsədli, düşünülmüş heç bir şey yoxdur.

Mustafa Çəmənli:

- Bəli, insanda elə fikir yaranır ki, bu, xəyalın oyunudur. Qəhrəman qəzaya düşür və bütün bunlar onun yaddaşında baş verir.

Nərgiz Cabbarlı:

- Əsər, dilinə görə də müsbət təsir bağışlayır. Gənclərin yaradıcılığını az-çox izlədiyim üçün bu xüsusiyyət haqqında xüsusi qeyd etmək istərdim. Yazıçının dili bilməsi, dil üzərində işləməsi lazımdır. Müasir nəsr əsərlərində isə əksərən dilin codluğu, kələ-kötürlüyü adicə oxu prosesinə belə mane olur. Amma bu əsərdəki eksperimentlər çox maraqlıdır. Bilirsiniz ki, nəsrdə poetik dil eksperimentləri, məsələn, 70-80-ci illər nəsri üçün aktual idi. O mərhələnin nasirləri dilin poetik qatına fikir verirdilər. İfadə və təsvir formaları üzərində işləyirdilər. Müasir nəsrdə isə daha çox süjetə diqqət yetirilir. Hadisələrin axarı və nəqli... Lakin dil əsasdır, materialdır, onu inkişaf etdirmək də, onu qorumaq da lazımdır, öldürmək isə yox.

İlqar Fəhmi:

- Dilin qrammatikası, təşbehlər öz yerində. Amma mən o şeylərin bir az əleyhinəyəm. Biz tarixi mühiti canlandırırıqsa, yaradırıq, o dövrü yaradırıqsa, birdən-birə müasir təşbeh vermək olmaz. Yaxud, təşbehin içində müasir element verməklə tarixi mühit dağılır, çatlayır.

Nərgiz Cabbarlı:

- Əsərin qəhrəmanı müasir dövrdən gedib. Məncə, bu, ondan irəli gələn xüsusiyyətdir.

Mustafa Çəmənli:

- Hə də... Axı əsərin qəhrəmanı indiki zamandan keşmişə yollanıb. Özü də bu qəhrəman tarixi romanlar yazan bir yazıçıdır.

İlqar Fəhmi:

- Əsərdə təyyarə məsələsi var. Salman Rüşdinin məşhur bir əsəri var - "Şeytan ayələri". Orada da təyyarə partlayır, iki nəfər yerə düşür və düşənə qədər xəyalda transformasiya baş verir. Peyğəmbərin yanına gedirlər. Təyyarədən istifadə model olaraq işlənib. Mənə elə gəlir ki, bu cür olmağı daha yaxşıdır. Bilinmir ki, reallıq hardadır, yuxu hardadır. Postmodernizmdən gələn bir şeydir bu: məlum deyil, bu hadisələr həqiqətən baş verib, ya yox...

Müasir dövrdə bu cür yanaşmalar çoxdur və maraqlıdır. Mən o cür qeyri-müəyyənliyin tərəfdarıyam. Amma romanda magik realizmlə mistika bir-birinə qarışır. Yazıçı əsəri ya magik realizm, ya da mistika ilə qələmə almalıdır. Yəni müəyyən bir istiqamət seçmisənsə, o zaman janr xüsusiyyətlərinə sona qədər riayət olunmalıdır. Amma Vüsal romanında magiyanı realizmə daxil edir, sonra bəzi yerlərdə mistika ilə qarışdırır.

Nərgiz Cabbarlı:

- Ümumiyyətlə, bu əsərdə çox şeylərdə qarışmalar var. Görünür, bu məqsədli şəkildə edilib...

İlqar Fəhmi:

- Amma janrların qarışması oxucuya pis təsir edir. Yaxud bəzən müəllif öz dilindən danışır, sonra ikinci şəxsin dilindən danışır... Sonra qəhrəmanında olan inam, inamsızlıq insanı çaşdırır.

Nuranə Nur:

- Amma mənə maraqlı olan elə bu inamla inamsızlığın qarışığı idi...

"Məncə, bu, düşüncə romanıdır"

Mustafa Çəmənli:

- Mən ilk dəfədir, Vüsalın əsərini oxuyuram. Amma bir daha əmin oldum ki, əsəri yazmaq üçün yaş bir o qədər vacib deyilmiş. Vüsalın yaşına görə çox maraqlı nəticədir. Məncə, bu, düşüncə romanıdır.

Əsərdə insanı düşündürən sətiraltı məqamlar çoxdu. Burada onun türkçülüyə, insani dəyərlərə, islama münasibəti təsvir olunub. Bu əsər mənə iki böyük yazıçımızın əsərini xatırlatdı. Üslublarında, yanaşmalarında heç bir oxşarlıq yoxdur. Amma bununla belə, müəllif əşirətdən qabaqkı illəri

təsvir etdiyinə görə Y.V.Çəmənzəminlinin "Qan içində" romanı yadıma düşdü. Qarğa ilə bağlı məqam, qeyri-adi insan təsvirləri... və s. Dinə münasibətə görə isə M.F.Axundovun "Kəmalüddövlə məktubları" yadıma düşdü. Düzdür, o açıq yazılmış bir məktubdur. Amma yenə də münasibət məsələsinə görə yadıma düşdü...

Əsərin qəhrəmanı şüurlu şəkildə mağaraya gedir. Ərəblərin necə gəlməsi, bizi necə müsəlman etməsi, maraqlıdır ki, birbaşa verilmir, insanı təəccübləndirən detallarla təsvir olunur. Vüsalın unudulmayacaq, yadda qalacaq obrazları yoxdur, onun ən yaxşı obrazı elə Yazıçıdır. Lakin əsər düşüncə əsəridir. Bunu oxuyursansa, gərək düşünəsən ki, müəllif burada nə demək istəyir. Mən istərdim ki, tənqidçilər dinə maraq məsələsini bir o qədər də qabartmasınlar. Bu məqamlar deyilməsin.

Nərgiz Cabbarlı:

- Amma, Mustafa müəllim, qabartmaqla deyil ki, bu o dərəcədə üzdəndir... İş orasındadır ki, münasibət qətiyyən qınaq doğurmur... Həqiqətləri ifadə edir...

Mustafa Çəmənli:

- Burada o, dinlə bağlı olan naqislikləri yazır və həqiqətən də onunla razılaşırsan. Fikirləşirsən ki, bunlardan nə zaman xilas ola biləcəyik. Burada obrazların adları da var. Amma müəllifin məqsədi onların taleyini yazmaq deyil.

Nərgiz Cabbarlı:

- Məqsəd qoyulan problemin göstərilməsidir. Bir də ideoloji məqsəd var.

Mustafa Çəmənli:

- Mən əsəri oxuduqca o zamanlarda hiss etdim özümü. Kiçik roman olsa da, sürətlə oxunmur. Amma müəllifin dili, təhkiyəsi xoşdur. Vüsalın yaşına görə dili qüsursuzdur, koloritlidir, yad dil deyil, fikir deməyə çətinlik çəkmir. Bəzən çox uğurlu bənzətmələr deyir. Onun yumorla danışması da mənə maraqlı gəldi.

Bir də mən bir şeyi demək istərdim. Dili gözəldir, buna söz yoxdur, amma xırda qüsurlar var ki, onları düzəltsə, yaxşıdır. Məsələn, "dəvə oturdu" deyir, amma dəvə oturmur, xıxır. Qoşqu heyvanları ilə bağlı elə detallar var ki, dilimiz kasad deyil... Vüsal eşşək arabasına daşqa deyir, amma bizdə daşqanın nə olduğunu çoxu bilmir. Daşqa balacadır. Çarxı düz deyir, amma oxa keçirilən topdur... Vüsal ona "paya" deyir, o "dəndənə"dir... Amma ümumi götürdükdə, ədalətsizlik olar deyək ki, dil qüsurludur. Bu xırda-para şeylərdir. Sözü deməyə çətinlik çəkmir. Birdən elə bənzətmələr deyir ki.... Sərrast cümlələri insanı düşünməyə vadar edir. Deyir ki, dindarlar Allah alverçiləridir. Amma ürəyində deyirsən ki, düz deyir də... Niyyəti bəllidir də.

İlqar Fəhmi:

- Ümumiyyətlə, Avropada və Şərq aləmində ənənəvi dinlərin içində olan problemlərə, müəyyən riyakarlıqlara etiraz əlaməti olaraq əvvəlki etiqadların ideallaşdırılması və o dövrlərə qayıdış cəhdi var. Belə bir qayıdış cəhdi bir zamanlar Avropada aktuallaşmışdı... Vaqnerin yaradıcılığında. Onun operalarının hamısı bunun üzərində qurulub. Amma nəticəsi olmadı. Çünki bütün materialları uydurmalıdır... Yaxşı ki, bizim "Dədə Qorqud"umuz var... "Dorantağ" əsərində olan etirazlar isə dinin özünün siyasi alət kimi istifadə olunmasına etirazdı.

Nərgiz Cabbarlı:

- Onun öz inancı var burda. Ruhun diriliyi məsələsi... Mövcud olan hər şey diridir...

İlqar Fəhmi:

- Bilirəm, amma alternativ qoyması... Bütün dinlərdə ilahi ata obrazı var... Vüsal isə insanla ana təbiət arasındakı bağlılığı verməyə çalışır. Ulu Ağ Ana obrazı yaradır və bu Ataya etiraz cəhdi olaraq qabarır. Şamanlıqda da belədir. Təbiət anadır. Bu, feminizmlə də səsləşir.

Mustafa Çəmənli:

- Ananın ağrısı var orda. Ananın ağrısını isə kişi heç zaman yaşamır, yaşaya da bilməz.

İlqar Fəhmi:

- Əslində, burada da ideal cəmiyyət axtarışları var. Çinlilər ideal cəmiyyəti keçmişdə görürlər. Burada da o şeyə cəhd var. Əsərdə təsvir olunan qəhrəmanların hamısında qəribə bir təmizlik var. Bu, utopiya yaratmaq cəhdindən irəli gəlir. Müəllifin məqsədi bu çirkabın qabağında təmizlik verməkdir. Amma, məncə, ərəbləri çox mənfi təqdim edib.

Mustafa Çəmənli:

- Məncə də, dünyanın heç bir xalqına ikrahla baxmaq olmaz. Dünyaya ərəblər, bilirsən, necə alimlər verib? Bizim ən böyük qəhrəmanımız ərəblərə qarşı vuruşub... Babək... Amma onun haqqında nə biliriksə, ərəb mənbələrindən bilirik. Onun şücaətini, qəhrəmanlığını da inkar etməyiblər. Ərəblər elə belə xalq deyil.

Nərgiz Cabbarlı:

- Amma əsərdə tənqidi yanaşma türkün özünə, lap qəhrəmanın özünə qarşı da var axı. Bu yalnız ərəbə qarşı yönləndirilməyib. Məsələn, bu günün türkünün o zamana adladığı zaman qəhrəman deyil, adi qorxuları olan insan kimi göstərilməsi... Xüsusilə də bu qorxaqlıq o zamanın türk qızı ilə qarşılaşdırılmada daha çılpaq görünür və daha çox təəssüf doğurur...

Mustafa Çəmənli:

- Mən əsərdə Vüsalın qəhrəmanının bir daşqanı dartmaq üçün çəkdiyi bütün əzab-əziyyəti gördüm. Daha sonra meyitləri aparmaq, qoyub getməmək, meyitləri basdırmamaq və s.

Zamanda azmış adam və "Dorantağ"

Təranə Vahid:

- Maraqlı, fərqli, oxunaqlı bir roman yazdığına görə Vüsal Nurunu təbrik edirəm. «Dorantağ" zamanda azmış adamın arzularından, istəklərindən, əzablarından bəhs edən

bir romandı. Zamanda azmış adam - "Əshabi-Kəhf"in keçmişini axtarır. O keçmiş heç kimə bəlli deyil, heç Qərib müəllimə də...

Amma yazıçı axtarışında israrlıdır. Zaman tuneli onu "Əshabi-Kəhf"in ilkin çağlarına – insanla Tanrı arasında möhkəm bağlar olan vaxtlara aparır və hər şey də o zamanda baş verir.

Hərdən düşünürük ki, bugündən keçmişə səyahət etsəydik, dünyagörüşümüzlə, bilgilərimilə, oxuduqlarımızla bir anda qəhrəmana çevrilərdik. Amma Vüsal Nurunun qəhrəmanı min illərin o üzündə qəhrəmana çevrilə bilmir. O dövrün ab-havası, amansız qanunları humanist yazıçını az qala "Don kixotlaşdırır".

Zamanda azmış adam ağır sınaqlardan keçir, ancaq içindəki insani hissləri ləngərlənməyə, ölməyə qoymur.

Romanda bir kibrit dənəsi yazıçı tərəfindən obraza çevrilir. Qəhrəman kibrit çöpüylə qaranlıq bir dövrü işıqlandırmağa çalışır. Zamanda işıq axtarışı arzu olaraq qalır.

Bu romanda insan əzablarının miniatür şəkilləri sərgilənir. Əli daşqaya mismarlanmış Yazıçı, ölümsüz həyata hələ də inanan Tumar, dünyanı qarğa qanunları ilə idarə etməyə cəhd edən Qarğabaş – təlxəklərin "oyunu" və saysız-hesabsız səhnələr "Dorantağ"ı oxunaqlı bir əsərə çevirir.

"Dorantağ"ın qəhrəmanı Yer üzündə dinlər olmayan – insanla Yaradanın birbaşa bağıarı, təması olan cəmiyyəti axtarır.

Əsərdə yaddaqalan obrazlar var, amma bu romanda birbaşa Vüsalın öz obrazını, yazşıçı obrazını gördüm. Tumarı, Sunqat, Omay obrazları diri və yaddaqalan obrazlardı.

Mənə elə gəlir ki, yaziçi Vüsal Nuru bu romanda "Əshabi-Kəhf"in keçmişini axtararaq əvəzində "Dorantağ"ı tapıb.

Nərgiz Cabbarlı:

- Əsərdə Yazıçı obrazı elə verilib, adamda ilkin təəssürat yaranır ki, o, qəhrəmanlıq edəcək.... Müəllifin məqsədi türkçülüyə gediş idi. Amma onu türk oğlu ilə, qızı ilə qarşı-qarşıya qoyaraq bugünkü türkün nə qədər keçmişinə uduzduğunu, geridə qaldığını, cəsarətsizliyini göstərir. Bəlkə də, onu güclü göstərsəydi, əsər bu effekti verməzdi. Amma zəif göstərməklə əsərə müsbət cəhət qazandıra bilib.

Təranə Vahid:

- Tamamilə razıyam.

İlqar Fəhmi:

- Yox, bu, romantik qəhrəman deyil. İndi o dövr deyil... Amma qəribə də olsa, kütləyə təsir baxımından romantizm öz gücünü saxlayıb. İndiki dövrdə Azərbaycanın əslində romantik qəhrəmanlara ehtiyacı var. Amma eyni zamanda da fikirləşirsən ki, birdən yaradaram, geridəqalmış kimi görünərəm. 90-cı illərdə Rusiyada bu qəhrəmanları məhv etdilər, sonra yenidən yaratmağa başladılar.

Nərgiz Cabbarlı:

- Qəhrəmansız millət millət deyil axı. Millətin də, ədəbiyyatın da belə bir qəhrəmanlara hər zaman ehtiyacı var.

İlqar Fəhmi:

- Amma mən özüm Vüsala məsləhət verməkdə çətinlik çəkərdim ki, necə olsun bu qəhrəman...

"Dorantağ" romanında ən maraqlısı inamla inamsızlıqdır"

Nuranə Nur:

- Vüsalın romanını birnəfəsə oxudum və axırda mənə elə gəldi ki, o həyatda olmuşam. Öncə dilin keyfiyyətini, şirəsini qeyd etmək istəyirəm. Bu əsər dolğun Azərbaycan dilində olmaqla yanaşı, həm də bəşəri bir dildə yazılıb. Əsərin dil potensialı imkan verir ki, başqa dillərə də maraqla tərcümə olunsun. Və əsas olan ruh dilidir ki, bu dil oxucunu ayıq saxlayır.

Vüsal Nurunu bu roman münasibətilə təbrik edirəm. Romanda Vüsal oxucunu müəllif kimi hiss elətdirir. Vüsal Nurunun "Dorantağ" romanında ən maraqlısı inamla inamsızlıqdır.

Əsərdəki təşbehlər çox xoşuma gəldi. Bu günə kimi o mağara haqqında heç nə oxumamışdım. "Dorantağ" əsərini oxuduqdan sonra isə Əshabi-Kəhfi ziyarət etmək haqqında düşünürəm. Bu hissi bizlərə yaşatdığı üçün müəllifə təşəkkür edirəm. Tanıdığın və zövqünə inandığın adamın romanını oxumaq adamı yormur, həyəcanlandırır. Mən bu həyəcanı Cek Londonun "Həyat eşqi"ni oxuyanda keçirmişdim. Şəxsən tanıdığın bir yazıçının belə bir roman yazması adama başqa cür təsir edir. Oxucu müəllifin qəhrəmanlığını gözləyir, amma düşdüyü mühitdə qəhrəmanlıq göstərə bilməməsi onu qəhrəmana çevirir.

Mən evdə bu romanı oxuduqca hərdən roman haqqında evdəkilərə danışırdım. Sonda məndən "Nə oldu, necə bitdi", – soruşanda – "Bilmirəm", – dedim. Romanı böyük maraqla oxusam da, oxuduğuma heç kimi inandıra bilmədim. Məncə, bu, elə yazıçının uğurudur. Roman sonda oxucunu müəmmalar içində qoymalı, bitməməli və düşündürməlidir. Qoy elə Vüsal Nuru romanı saxladığı yerdən hər oxucu öz abzasını başlasın.

Mustafa Çəmənli:

- O qəhrəman elə bir cəhalət dövrünə gedib ki, qəhrəmanlıq edə bilməzdi.

Nuranə Nur:

- Amma qəhrəmanlıq etməməklə qəhrəman çıxdı...

Təranə Vahid:

- Vüsal Nuru fantastik yazıçıdır, Onun öz yolu, öz üslubu, öz dəst-xətti var. Son olaraq deyə bilərəm ki, "Dorantağ" romanı ədəbiyyatımızda fantastik janrda yazılmış ən uğurlu və ən maraqlı əsərlərdən biridir. "Dorantağ"ı oxucuların və zamanın ixtiyarına verək...

İlqar Fəhmi:

- Məncə, müzakirə maraqlı alındı.

Vüsal Nuru:

- Bütün fikirlərə görə təşəkkürümü bildirirəm. Xüsusən İlqar Fəhmiyə minnətdaram ki, heç kimi diqqətdən kanarda qoymur. Yazıçı da bir əsgərdi, hansı səngərdə döyüşməsinə baxmayaraq, məqsədi, amalı hər şeyin yaxşılığa doğru dəyişməsidi.

Sonda Azərbaycan Yazıçılar Birliyinin katibi İlqar Fəhmi yeni yazılan əsərlərin AYB ədəbi seksiyalarında mütəmadi olaraq müzakirələrinin keçiriləcəyini bildirib.

Adil MİRSEYİDİN ÇAP OLUNMAMIŞ POEMASI

VAN QOQ MELANXOLİYASI

arl günəbaxanlarının
abşeron günəbaxanlarından
abşeron günəbaxanlarının
kioto günəbaxanlarından
ferqi nədir müsyö vinsent

gözlərin çox uzaqdı
bəlkə bir qədəh absent

mənim ömrüm ömür deyil
mənim ömrüm macəradı qəza qədərdi
bu gün bizim də fərqimiz
günəbaxanların fərqi qədərdi
kiotoda gün çıxıb
arlda yağış yağır
abşeronda umudların
gözləri kor qulaqları sağır

nə deyirsən müsyö vinsent
bəlkə bir qədəh absent
saqqalımda gizlətmişəm
üzümün cizgilərinə
hopmuş bütün umudsuzluqları
gizlətməyin mənası yox
gözlərimdə yuva qurmuş kədəri
bu gün mən parisin yabancısıyam
fəlakət qoxuyur paris şəhəri
mən hər an ürəyi partlaya biləcək
sərsəriyəm sərsəri

tütünün varmı müsyö vinsent
bəlkə bir qədəh absent

bu halımda heç bilmirəm
nə deyim sənə
məmləkətin nar çiçəklərini
unutmamışam yenə
an que ça fait bien dent endre parler
françıs*
bir dostum var parisdə
müsyo benjamen pere**
mən yanıqlı nəğmələr oxuyuram
dərd boğaza gələndə
müsyo pere kövrəlir
o bir şairdi zatən
əlindən nə gəlir

fərqimiz nədir müsyo vinsent
bəlkə bir qədəh absent

bu gün mən bir divanəyəm
dünya başıma dardı
röyalarımın rəsmini çəkirəm
suların aynasında
yağış yuyub apardı

***
göyərçinlər yuva qurmuşdu damda
səhərlər umudun rəsmini çəkərdi
göyərçinlər
mən ilk şeirlərimi yazırdım
təravi namazı qılırdı nənəm
gözlərindən əskik olmazdı kədər
alça ağacı vardı həyətdə
alça dadını unutmamışam
hansı fəsil idi xatırlamıram

asi könlüm qürbətlərə sovruldu
qürbət gecələrində ciyərlərim qovruldu
əcəl palyonço qiyafəsində göründü mənə
uşaqlar palyonçlArı sevərlər
cocuqlar ölümə göz dağıdır*
şairlər də cocuqlar kimidirlər zatən
unudulmuş bir duanın sözlərini
xatırlaya bilmədim mən

sənsiz yaşamaq nəyə yarar
demişdim bir gül qadına
yazdığım bütün şeirlər
onun adınadı onun adına

məmləkətin buludları
çökür başıma çökür
uzaqlarda bir qadın
qanlı göz yaşı tökür
nə günlərə qaldım allahım
ağlaya ağlaya şeir oxuyuram
akvariumda üzən qırmızı balıqlara
sevda gözləriylə baxdım dünyaya
yenildim imansız ayrılıqlara
sən yandıran şamların pərvanəsi olmuşam
divanə aşiqlərin divanəsi olmuşam
sən bir gül ləçəyiylə sil gözlərini

yuxumda vurdular məni
yıxıldım qara torpağa
təzə ot qoxusu dəydi burnuma
hansı fəsil idi xatırlamıram
göyərçinlər yuva qurmuşdu damda
təravi namazı qılırdı nənəm
bir kəpənək uçub gəldi hardansa
qanadlarıyla qapadı göyüzünü

sonra bir yağış yağdı incədən incə
yaramız açıldı yağış kəsincə
yağış yadımdadı unutmamışam
hansı fəsil idi xatırlamıram
dənizin üstündə əsir rüzgar
haralardan gəlirsən belə başı bəlalı
mən də sənin kimi yurdsuz yuvasız
xəyal məyal bir şeylər görünür gözlərimə

***
bağlı qapılar arasında boğulur hər gecə
boğulur tənhalığın sərxoş əks sədası
ağır gəlir mənə çox ağır gəlir
göydə ayın soyuqqanlı ədası
gecələr yağış səsi kimi girirəm
uğursuzluq labirintində çırpınan
qəriblərin yalqızların şairlərin odasına
macəramı yazdım şeirlərimdə
taleyimlə rus ruleti oynadım
amma dözə bilmirəm ayın soyuq ədasına
ağır gəlir ağır gəlir mənə
ay buludlar arasında gizlənir yenə
mən hər yerdə yabancıyam yabancıyam
yabancı

mən hər yerdə yalnızam yalnız
nə bir çarə nə bir əlac
hara getsəm şans məndən uzaq
hara getsəm peşimdə vəfalı köpək ehtiyac
ağır gəlir mənə göydə ayın birdənbirə
bir söz demədən çəkilib getməsi
ağır gəlir mənə çox ağır gəlir
macəramın qürbətlərdə belə qəfil bitməsi

nə deyirsən müsyö vinsent
bəlkə bir qədəh absent

***
pəncərəmin şüşəsində
qar qarışıq qaranlıq
saatların əqrəbində
zaman donub bir anlıq
yandırdım yazdığım şeirləri
sındırdım baxdığım güzgüləri
saqqalımda gizlətmişəm üzümdəki cizgiləri
ah bizim zavallı analarımız
bilmədik bu dünyada nə imiş günahımız
ah gözləri yaşlı sonalarımız
nə dünənimiz var nə sabahımız
mən qafa tasında çiçək bəslədim
zaman dışına çıxıb mələkləri səslədim
ölümü düşünməkdən qorxmadım heç bir zaman
ölüm də heç bir zaman unutmadı kölgəmi
qara sevdaların qəhərini çəkdim
umud dediyin indi uzaqlarda bir gəmi
biz çol göyərçinləri kimiyik böyük şəhərlərdə
xəyallarımızı çalıblar gözlərimizdən
vitrinlərdə işarır qürbət qızdırmaları
vitrinlər gerçəkləri gizlədir bizdən
qar qarışıq qaranlıq
zaman donub bir anlıq

***
provansda bir bordeldə van qoqla bir süfrədə
bir şüşədən şərab içir qərib ruhum

sərxoş deyiləm hələ
yat vinsent gözünü yum
teonun gözləri girəcək yuxuna
teonun gözlərində ölümün kölgəsi

niyə qogenə qoşulub taitiyə getmədin
niyə aldatmadın müsyö ölümü

qəfil yağıb birdən kəsən yağışdan sonra
yağış alma qoxuyur qədim provans
mefisto ilə gizli saziş bağladıq biz
axirətdən öncə həyat bir avans

yaşıl alovla yanır yol boyu
cərgə cərgə düzülmüş sərv ağacları
ehtiyac döyür yenə bir rəssam qapısını
əlimizdən nə gəlir allah doyursun acları

yat vinsent yum gözünü
səhər günəbaxanlar boylanacaq pəncərədən

gecə ay çəkib aparacaq səni
səhər başqa adam kimi doğulacam mən

***
solğun qış səhəri sərsəri rüzgar
qar yağacaq sulu qar
adamların gözləri sanki qara uçurum
mən şəhərin üzərində dövrə vurub uçuram
sərvət şöhrət qürbət səfalət
umurumda deyil bu gün
luvrda gülümsəyən cakondaya daş atan
cənubi amerikalı zavallı kimiyəm bəlkə sənincün
sol döşümün altında yaralı bir ürək var
hər an partlaya biləcək
ağrıdan çıldırdığım gecələrin birində
ölüm gəlib hər şeyi yaddaşımdan siləcək
gecə yatmazdan qabaq bir siqaret çəkirəm
kağız qələm dərman umud
və bir fincan su qoyuram yanıma
gecə yatmazdan qabaq
xatirələr qarışır canıma
gecənin qurd saatında
van qoq çıxır aynadan
o başqa bir dünyada yaşayır
mən başqa bir dünyada

amma hərdən görüşürük
biz eyni bir röyada
axşamlar bistroda araq içən rəssamlar
içki məclislərində xatırlayarsız məni
luvrda gülümsəyən cakondaya daş atan
sərsəri kimiyəm bu gün
bir qadın sevirəm şair olduğumu bilmir
solğun qış səhəri rüzgar
indicə qar yağacaq sulu qar
sol döşümün altında yaralı bir ürək var

***

arl şəhərciyində məşhur gecə kafesi
umudların arzuların sevdaların qəfəsi
yaddaşımda çox sevdiyim misra var
şair demiş bir qapıdı hər divar
hanı şair qapı hanı göyüzü hanı
soyuq divarlarda qan izi hanı
nə kaman səsi var nə də quş səsi
sarı rəngin melanxolik qüssəsi
istər suteper ol istər şair ol
bu kafedə sən hər şeyə hazır ol
arl şəhərində gecə kafesi
umudların arzuların sevdaların qəfəsi
fransız şərabında cinayət qoxusu var
şüşəsi qırmızı qoyu kinovar
şair demiş bir qapıdı hər divar
divarlar qırmızı masalar yaşıl
acı zeytun yaşılı parlayır işıltılı

mən talesiz adamam müsyö baş qoşma
mənə
rus ruleti oynamaq keçir könlümdən yenə

... Sənilə bir başqa yaşardım

Nuranə Nur

Hər yerdə adını köks ötürüb çəkdiyim və bir neçə saniyəlik düşünüb sonra haqqında danışa biləcəyim bir şair var – Nazim Hikmət. Əslində, adını çəksəm də, haqqında danışmamışam heç vaxt. Dediyim həmin bir neçə saniyəlik düşüncə o qədər dərin olub ki, qorxmuşam hər dəfəsində o dərinliyə baş vurmağa. Bəlkə, onun həyatı kimi, şeirlərində də olan çarpıntılı və məxfi məqamların sirri qoymayıb məni nəsə deməyə. Başqalarından fərqli şairin həyatı, taleyi, eşqi, şeiri dünya idrakına, duyğularına yerləşməyəcək qədər müəmmalıdır.Uşaq yaşlarından adını eşitmişəm. Milliyyətcə azərbaycanlı olmadığını bilirdim. Şeirlərini türkcə oxuyurdum. Onun şeirlərindən Türkiyə türkcəsinin gözəlliyini, şəhdi-şirəsini duyurdum. Elə bilirdim, Nazim Hikmət heç vaxt uşaq olmayıb, elə beləcə qosqoca bir kişi kimi doğulub. Bilirdim ki, o, Türkiyə vətəndaşlığından məhrum olan ən böyük türk şairidir. Millətinin azadlığı naminə ömrünün 28 ilini həbslərdə keçirdi Nazim Hikmət! Bu müddət ərzində də daim inqilabi mübarizəyə çağırış şeirləri yazdı, xalqını maarifləndirdi. Amma şairi məmləkətinə həsrət qoyan hökumət onu xalq düşməni kimi cəzalandırdı.Vətəndaşlıq məhrumluğundan 58 il , ölümündən 46 il sonra yenidən vətəndaşlığa alınan türk şairi .

Bir faktı xüsusilə qeyd etməyi lazım bilirəm. Türkiyə son vaxtlara kimi Nazim Hikməti qəbul etmirdi, kommunist şairi deyərək onu təhsil sisteminə, geniş oxucu auditoriyasına buraxmırdı. Onun şeirlərinin oxunması və çapı ölkəsində yasaq edilmişdi.

Azərbaycan elitası, başda Anar olmaqla böyük ziyalılarımız Nazim Hikmətin Türkiyəyə dönüşündə, qəbul olunmasında mühüm rol oynadı.

Nazim Hikmət, nəinki Türkiyə ədəbiyyatında, bütövlükdə dünya şeirində sərbəst şeirin yeni formalarını yaratdı, şeirləri ilə dünya azadlıq hərəkatına, sülh və demokratiyaya böyük təkan verdi. Nazim Hikmət novator şair idi. Əsərləri müxtəlif dünya dillərinə tərcümə olundu, pyesləri bir çox ölkələrin dram teatrlarında tamaşaya qoyuldu.

Dialektik materialist şair kimi tanınan Nazim, şeirləri ilə təpədən-dırnağa müstəmləkə siyasətinə qarşı yönəlmişdi. O, türk insanını yeniliyə, mübarizəyə səsləyir, nəinki doğulduğu məmləkətin, bütün dünyanın şüurunda bir rezonans yaradırdı. Müasir Azərbaycan ədəbiyyatının formalaşmağında müstəsna rolu olan Nazim Hikmət Azərbaycan xalqının yaxın dostu idi. Bir çox yazıçı və şairlərimizlə dostluq və yaradıcılıq əlaqələri saxlamışdı. İlk şeirlər kitabı olan "Günəşi içənlərin türküsü" də Bakıda işıq üzü görmüşdü. Azərbaycanda Nazimsevərlər onun şərəfinə öz övladlarına Nazim adını verirdilər.

Onu sevən qadınlar, şeirlərinin həyəcanını yaşayıb , mübarizəyə qoşulmuş gənclər, demək olar ki, xoşbəxt ola bilmədilər. Şair özü də əslində, təbliğ etdiyi Kommunist rejiminin caynağına düşmüşdü, hər yeni kitabının nəşrindən sonra öz ölkəsində həbsə məruz qalırdı.

Onun poeziyasında ən gözəl və yaddaqalan ştrixlər bu əsərlərin içində bir gizli eşqin olması idi. Mən onun poeziyasındakı sevgini sevdim. Başda anası Cəlilə xanım olmaqla, "Vətən xaini" nin sevdiyi qadınların hamısının taleyində bir Nazim qüruru, bir Nazim yanğısı, bir Nazim mücadiləsi olub. Sevdiyi qadınlara həsr etdiyi şeirlərin hər birində sevginin son dərəcə böyük səmimiyyətinə rast gəlirik. Bu şeirləri gözəl yazdıran həbsxana həyatı,həsrət idimi, yoxsa özü idi şeirləri belə gözəl yazmaq üçün bu həyatı seçən ?

"Pirayə üçün yazılan saat 21-22 şeirləri" silsiləsində həsrət sonsuzdur. Həbsə alındığı gündən hər gecə bu saatlarda yazırmış şeirlərini:

Necə də gözəl duyğudur xatırlamaq səni
Ölüm və zəfər xəbərləri içində.
Həbsdə
Və yaşım qırxı keçəndən sonra…
Necə də gözəl duyğudur xatırlamaq səni
Bir mavi parçanın üstündə unudulan əlində
Və saçlarında
Vüqarlı yumşaqlığı canımın içi İstanbul torpağının…
İçimdə ikinci bir insan kimidir
Səni sevmək səadəti…

Şeirlərini yazarkən əlini şeirin ritminə uyğun masaya vurur və ya kağızın kənarlarında o ritmə düşənə kimi cizgilər çizirdi. O, həm də rəssam idi axı. Bəzən kağızın bir üzündə şeiri yazar, o biri üzündə o şeirə uyğun rəsm çəkərdi. Həmişə daha öncə yazmadığı şəkildə yazmağa çalışardı. Dili dəyişər, bəzən şeirin əvvəlini hecalarla yazıb, ortasında çox sadə danışıq dilinə keçdiyi anlar da olardı. Həm çox aydın, həm çox məntiqli... Bəzən ya sadə, ya tam qəliz..." Şərabı su ilə qarışdırmağa nə gərək var ki, ya su iç, ya şərab " düşündüyü anlar ...Xaotik təfəkkürlü, dəmir məntiqli bu adam düşüncə "günahları" nın qurbanı idi. Mən onun düşüncə şeirlərində özümü dəfələrlə itirib, tapmışam. Hər dəfə özümü tapanda sanki həyatın yeni bir pilləsini qalxmış oluram. "Ceviz ağacı " şeiri haqqında saatlarla düşünmüşəm.

Yarpaqların əllərimdir, düz yüz min əlim var,
Yüz min əllə toxunuram sənə, İstanbula.
Yarpaqların gözlərimdir, baxıram heyrətlə
Yüz min gözlə seyr edirəm səni, İstanbulu.
Yüz min qəlb kimi çarpar, çarpar yarpaqlarım.
Mən bir ceviz ağacıyam Gülhanə parkında,
Nə sən bunun fərqindəsən, nə polis fərqində.

Onun şeirlərini Türkiyə türkcəsində oxumağı sevirəm. Haqqında 2007-ci ildə

çəkilmiş möhtəşəm "Mavi gözlü Dev" filminə baxdım və 2-3 gün təsirindən yayına bilmədim. O filmdə böyük şairin həbsxana həyatı ,o ağır rejimdə milli mücadiləyə əzmi, qadınına olan həsrəti tamaşaçıya çox həssas biçimdə çatdırılır. Filmdə də daha çox qadınına yazdığı sadə və səmimi şeirlər ürək yandırır.

O indi neyləyir
hal-hazırda, indi görəsən?
Evdədir, küçədədir,
İşləyir, uzanıb, ayaq üstədir?
Qolunu qaldırıb, bəlkə də,
- hey gülüm,
O ağappaq biləyini necə də göstərər bu hərəkətin!…
-
O indi neyləyir,
hal-hazırda, indi görəsən?
Bəlkə dizinin üstündə bir pişik balası var,
Sığallayır,
Bəlkə də harasa gedir, indicə addım atacaq…

"Həbsxanadan məktublar" silsiləsində ilk baxışdan bəsit təsir bağışlayan dərin poeziya təsvirləri yer alır. Bu təsvirlər həbsxana həyatında bütün kişilərin xəyalına gələ biləcək şeylər olsa da, onu oxuyan adamın xəyalı ola biləcəkləri aşır. Onun həsrətinin gözü ilə baxırsan artıq hadisələrə. Yoluxursan həsrətinə, bürünürsən nisgilinə...

Bir dənəm!
Son məktubunda:
"Başım ağrıyır,
ürəyim dolu qəm"-
deyirsən.
"Yaşamaram səni asarlarsa,
səni itirsəm" -
deyirsən.
Yaşarsan, bir dənəm.
Qara duman kimi xatirəmi dağıdar küləklər.
Yaşarsan, qəlbimin qızıl saçlı bacısı,
Ən artıq bir il çəkər
iyirminci əsrdə
ölüm acısı.

Şairin bütün şeirlərində yaşamaq eşqi, yaşamaq fəlsəfəsi dərin bir düşüncə olaraq zəngin ədəbiyyat materialıdır. Nazim yeknəsək həyatı ədəbiyyata çevirə bilirdi. "Hər şeyi görmək azdır, yaşamaq lazımdır" deyirdi şair. Və yaşamaq çox ciddi işdir, sevmək kimi...

Geniş meydanda saat zəng çaldı.
Bir azdan kameraların qapıları bağlanacaq
bu dəfə məhbəs uzun çəkdi:
8 il
yaşamaq: ümidli bir işdir, sevgilim,
yaşamaq:
səni sevmək kimi ciddi bir işdir…

Sonralar belə deyirdi Nazim Hikmət: "Ürəkli bir qadının başı, ürəksiz bir kişinin çiyninə ağır gəlir!" Həyatı bu qədər gözəl bilən adamın qənaəti ilə yaşamı uyğun gələ bilmirdi. Onunla bərabər düz 8 il həbs həyatının ağrılarını yaşamış həyat yoldaşı Pirayə Altınoğlu şairin saf məhəbbətinə qarşılıq olaraq bütün çətinliklərə dözmüşdü. Həbsxana həyatının sonu bu inanılmaz, böyük eşqin də sonu oldu. Həbsdən azad olmasına az qalmış dayısı qızı Münəvvər xanım ziyarətinə gəlir və Nazim ona vurulur. Azadlığa çıxıb Münəvvərlə evlənir. Mehmet adlı bir oğlu da olur. Münəvvərə və oğlu Mehmətə yazdığı şeirlərdə də son dərəcə səmimi bir eşqin şahidi oluruq. Amma hərbi çağırışdan yayınmaq üçün Münəvvərdən də xəbərsiz Rusiyaya gedir. Və bu zaman türk vətəndaşlığından çıxarılır. Münəvvər isə hələ də onu ürəyindən çıxarmamışdı. Bu qədər cəsarət saçan şeirlər müəllifi canının parasını qoyub kilometrlərlə uzaq bir diyara getmişdi. Zaman və həyat bu qəhrəman insanı aciz bir adama çevirmişdi. Oğluna yazdığı "Mehmətə son məktubumdur" şeirindən onu nə qədər sevdiyi və nə qədər çarəsiz olduğu məlum olur.

Bir yandan cəlladlar girdi araya,
Bir yandan oyun etdi mənə
bu məndəki ürək,
Nəsib olmayacaq Məhmətim, yavrum,
səni bir daha görmək.

Bilirəm,,.

buğda başağı kimi dəliqanlı olacaqsan,
mən də elə idim gəncliyimdə,
qumral, incə, uzun;

gözlərin ananınkı kimi iri,
bəzən də bir az qəribə, qəmli;
Ananı üzmə, oğlum,
mən güldürmədim üzünü,
sən güldür.

Anan,
ipək kimi möhkəm, ipək kimi yumşaq;
anan,
nənə olanda da belə gözəl olacaq
onu ilk gördüyüm günkü kimi,
Boğaz içində,
on yeddi yaşında,
ay işığı, gün ışığı,
dünya gözəli.

Anan,
ayrıldıq bir sabah,
Görüşmək üzrə,
görüşə bilmədik..
Anan,
anaların ən yaxşısı, ən ağıllısı,
yüz il yaşar inşallah...

Ölməkdən qorxmuram oğlum,
amma nə də olsa
iş arasında bəzən
diksinib qəflətən,

və ya yuxudan öncə yalqızkən
günləri saymaq çətindir.

Dünyadan doymaq olmur, Mehmət,
doymaq olmur...

Şeirin ən sevdiyim yerlərini ixtisarla Azərbaycan türkçəsinə çevirdim. Nələri alıb aparmadı ondan ayrılıq?! Kilometrlərlə ümidi, tonlarla kədəri, daradığı saçları, sıxdığı əlləri və söyləmək istədiyi ən gözəl: hələ söyləməmiş olduğu sözü ... Həyat eşqi, millət eşqi, qadın eşqi, övlad eşqi nə qədər imiş bir insanın qəlbində. Budur şair ömrü, budur şairi şair edən, sevdirən, yaşadan. Bəlkə, kədərə, yalqızlığa, əzablara olan eşqi bütün eşqləri üstələyib şair etmişdi bu adamı? Amma bu qədər acıya rəğmən, bütün şeirlərində gələcəyə ümid var.

Üzüntülər içində yaşayan bu adamın təsəlliləri bitib tükənməyən qadın sevgisi olub. Ömrünün sonlarına yaxın başqa bir rus qadını ilə ailə qurmuşdu. Son sevgisi olan Veraya da dəlicəsinə aşiq olmuşdu şair. Vera xatirələrində Nazimin ona "Sizi ürəyimin qanadığını hiss edəcək qədər çox sevirəm" deyib bərk ağrıdığını yazırdı. Görünür, ömrü sona yetməsəydi, bu da son sevgisi olmayacaqdı. Bu qədər sevgiyə rəğmən, heç bir qadını xoşbəxt edə bilmədi o "mavi gözlü div", özünü edə bilmədiyi kimi... Əvəzində türk ədəbiyyatını xoşbəxt etdi. Dünya poeziyasının nəhənglərindən olan bu şair Beynəlxalq Sülh mükafatı laureatı, türk inqilabi poeziyasının banisi və böyük ictimai xadim kimi tarixə tarix yazdı.

"Bəli, bəlkə, ümidim qalmadı gələcəyimə, amma əsla peşman deyiləm keçmişimə. Amma əsəbiyəm yaşaya bilmədiklərimə" deyən Nazim Hikmət insanlığa miras qoyub getdiyi misraları ilə bəşəriyyətə əvəzsiz dəyərlər verdi. Son illərdə onun Pirayə xanımdan olan nəvəsi tərəfindən heç harda çap olunmayan bir şeiri və üç yarımçıq romanı tapılmışdı. Bu əlyazmaları Pirayə xanım qoruyub saxlamışdı.

Bilmirəm, aşağıdakı misraları Nazim Hikmət hansı qadınına həsr edib, amma bu sözləri qovuşa bilməyən sevənlər həmişə bir-birlərinin ruhunun qulağına pıçıldayıblar. Və dərin bir ah çəkirəm: "Mən sənsiz də yaşayıram, amma sənlə bir başqa yaşayardım".

Əbülfəz ÜLVİ

PAYIZ

Nəhayət, qurtarır yayın son anı,
Yaşamaq növbəsi payıza düşüb.
Elə qaralır ki, buludun qanı,
Elə bil borc alıb, faizə düşüb.

Xəfif meh içinə çəkir səsini,
Sanarsan qaçmağa maşın axtarır.
Yel elə dolanır yer kürəsini,
Sanki itirdiyi başın axtarır.

Dağlar yenə düşür lal "koma"sına,
Üstünə çən, duman boşuna gəlmir.
Uzaqdan bənzəyir qar komasına,
Elə bil dağ olmaq xoşuna gəlmir.

Solur təbiətin əzəl ahəngi,
Yarpaqlar budaqdan torpağa köçür.
Elə sozalır ki, günəşin rəngi,
Elə bil rəngini çəmənə tökür.

Soyuq tüğyan edir, çox fəallaşıb,
Üfürsən şüşəyə dərhal tər çıxır.
Sanki zökəm tutub, səsi kallaşıb,
Göyün bağırtısı birtəhər çıxır.

Bir söz deyəcəyəm, kaş etməsin qəm,
Payız məndən küsüb kədər saçmasın.
Harda olur-olsun soyuq, duman, çən,
Təki məhəbbətə ayaq açmasın.

YOL VERİN

Çoxları çıxmadı imtahanımdan,
Layiq olmadılar "beş"imə mənim.
İşini sahmana saldığım nadan,
İşiylə pəl vurdu işimə mənim.

Füzuli ənənə qoydu boxçama,
Onuntək çatmadım mən də axçama,
Səpdim gül toxumu ömür bağçama,
Tikanı çıxartdı qarşıma mənim.

Azacıq sürüşüb laxladığımda
Yox oldu hər sabah yoxladığım da,
Qanadım altında saxladığım da
Torbanı keçirdi başıma mənim.

Daş atdı yolunda baş qoyduqlarım,
Çaş qaldı, heyrətdən çaş qoyduqlarım
Acanda önünə aş qoyduqlarım,
Soyuq su əndərdi aşıma mənim.

Ülviyəm, sevmirəm kiçilim, gedim,
"Bic"lik də bilmirəm əkilim, gedim,
Siz Allah, yol verin çəkilim, gedim,
Bu dünya gəlmədi xoşuma mənim.

DEDİ

Bir eşqi qıc olmuş ömrümü çaldı,
Yolunda gül əkdim, qara kol dedi.
Soruşdum:-bəs əhdin harada qaldı?
"O adi rol idi, adi rol" - dedi.

Bir məhəl qoymadı könül şəhrimə,
Dedim, gəl bürüyüm səni mehrimə,
Gözucu baxmadı mehrin sehrinə,
Mehrə də, sehrə də köhnə çul dedi.

Vermədi qoruyam macal, canımı,
Sanki iki böldü Qacar canımı,
Dedim: - Əzrailsən, gəl, al canımı,
Onsuz, alacağam, - hazır ol, - dedi.

Sevgi ocağından köz çıxarmadı,
Düzdür dedikləri göz çıxarmadı,
Ağzından bir şirin söz çıxarmadı,
Rişxəndi yağdırdı, bolabol dedi.

Belə gəlməyəydi gərək qapıma,
Fələktək üz tutdu mələk qapıma,
Tənəni vurduqca ürək qapıma,
Sanki futbolçuydu -"ura", "qol"-dedi.

Ay Ülvi, gör hələ nə oldu sonda,
Səsini qaldırdı ən uca tonda,
Dedim, cəhənnəmə gedirəm onda,
Bir ona yandım ki, yaxşı yol-dedi.

KEÇƏ

Gör səni qısqanclıq nə hala salıb?
Az qalır aradan dava, qan keçə.
Ömrüm nə bilirsən, nə qədər qalıb,
Bəlkə, qurtaracaq bircə an keçə.

Teli darayıram, dodaq büzürsən,
Nömrə arayıram, dodaq büzürsən,
Kimə yarayıram, dodaq büzürsən,
Gərək aramızdan toz-duman keçə?

Səni niyə belə incidir fələk?
Üzümə mən necə çevirim ələk?
Gülməli deyilmi, deyirsən gərək
Yanından baxan yox, göz yuman keçə.

Suyulub özgəyə axmaram, canım,
Yoxsa el üzünə çıxmaram, canım,
Birinə gözucu baxmaram, canım,
Düzülüb önümdən min heyran keçə.

Ülvi özgəsinə göz dikən deyil,
Bir də ona görə bəzənirəm, bil,
Səndən can almağa gəlsə Əzrail,
Məndən xoşu gələ, səndən yan keçə.

SINAR

Analar o qədər müqəddəsdirlər,
Bu varlıq önündə qızıl, ləl sınar.
Məhvə məhkum olar anasız bəşər,
Analı daşa da gələn pəl sınar.

Onlarsız qəm gələr qarğışlarıyla,
Göz yuyar üzləri yağışlarıyla,
Onların bir həlim baxışlarıyla
İnsana tuşlanan hər xələl sınar.

Gör necə varlıqdır, istəməz şəri,
Bir sözü dağı da döndərər geri,
Şumlasan analar sevməyən yeri,
Poladdan düzəltsən, yenə vəl sınar.

Fikri uzatmayım, qoy deyim qısa,
Bu varlıq önündə baş əyir yasa,
Ana duasıyla qoyulubdusa,
İnanma, qoyulan o təməl sınar.

Bir şux baxışıyla sağalar yaram,
Anasız nə varsa haramdır, haram,
Dərdin də anası olsa, qıymaram,
Çünki analara qalxan əl sınar.

AVTOBUSUN TƏRLİ ŞÜŞƏSİNDƏN HƏYATA BAXMAQ

(Vəfa Mürsəlqızının şeirləri haqqında)

Qəşəm NƏCƏFZADƏ

Vəfa Yazıçılar Birliyinin tədbirlərinə uzaqdan gəlir - Ələtdən. Heç vaxt da gecikmir, Natəvən klubunda əyləşən kimi yanındakı boş stula da çantasını qoyur. Bu boş stula qoyulan çanta haqqında sonra.

Vəfa şeirdə birdən-birə dəyişdi. Elə bil qabaqkı şeirlərinin üstündən xətt çəkib ayrı bir səhifə başladı. Bu səhifənin başında ayın, ilin tarixi yoxdur. Çünki şeirlərinin yazılma tarixi olmur.

Bəlkə də, günah məndə. Vəfanın qabakı şeirlərinin içində son şeirlərinin havası varmış, yüz faiz. Olmamış olmazdı. Olmasaydı, belə yazılmazdı. Bəzən biz eynəyimizin tozunu silmirik.

Vəfa Mürsəlqızının son axtarışları onun şair həqiqətini təsdiqləyir. Başqalarının asan yolu ilə irəliləməkdənsə öz cığırını açmağa üstünlük verir. Təkrar fikir istehsalına arxalanmır. Daim yeniliyə can atır.

Vəfanın şeirlərində Bakı-Ələt yolu var. Bu yolların avtobusları yorğun olur, həm də "qoca" olur, bir az da səsi bərk çıxan xoruldayan, təpəl avtobuslar olur. Bakı ətrafı yaşayış massivlərinin avtobusları hamısı belədir, məncə.

Vəfa əyləşir avtobusa, çantasını da qoyur yanındakı boş yerə. Avtobusun şüşələri tərlidir, Vəfa barmaqları ilə şüşəyə nəsə yazır; ya xətt çəkir, ya da şüşənin tərindən bir gözlük açır ki, çölə baxsın. Çöllər, yol kənarındakı dirəklər yuxuludur hələ.

Başını pəncərə şüşəsinə də söykəmək olar. Uzun nəsə düşünmək olar. Başını avtobus şüşəsinə söykəyib düşünməyin dadını bilirsinizmi heç?

Özü də bu, səhərlər gözəl olur. Buna bax-Vəfa deyir- elə bil qara asfalt valdı, təkərlər valı oxudur. Burda üç element, əşya iştirak edir. Qara asfalt, təkər, əyləc, asfaltdakı azacıq nəmişlik, avtobusun harasındasa boşalmış bir hissənin cırıldayan yeri və başdakı fikir. Bu fikir dünəndən qalıb, həm şirindir, həm də kədərli. Avtobusun səsi ilə uzlaşır. Bir sözlə, Bethoven.

Bu yollar adama şeir yazdırır. Amma metro zəif nəsrdir. Avtobusların səhər çağı sərbəst şeiridir. Günortası qoşmadır, axşamı nasirin şeir, ya da şairin nəsrə başlamasıdır. Bir sözlə, avtobusların axşamı biabırçılıqdır.

Vəfa Mürsəlqızı haqqında mənə ilk dəfə gözəl şair, əziz dostum Eldar Səfa demişdi.

Günlərin bir günü Vəfa gəldi Yazıçılar Birliyinə. Tanış olduq.

Amma mənim Vəfa ilə əsl tanışlığım "Azadlıq" radiosundakı şeirləri, hekayələri ilə başladı. Sonra bu tanışlığı kimə dedimsə, inanan olmadı, heç inanmasınlar, özüm inansam, elə ədəbiyyat üçün bəs eləyir - dedim - və həmin şeirləri bir də oxudum. Bəlkə, bu şeiri Vəfa Bakı - Ələt avtobusunun şüşəsinə yazmışdı və ya o şüşənin tərinin altında hazır halda tapmışdı. Çünki avtobus şüşələrinin təri altında əvvəldən yazı olmamış deyil. Mən də şeirlərimi bəzən hazır halda tapıram. Elə bilirəm, bu şeirləri nə vaxtsa itirmişəm, indi qarşıma çıxır. Vəfa da belədir, yəqin. "Yazıq Gülnar" şeirindən bir sətrə, yarım saatlıq "Ələt-Bakı yolu"na baxın:

Gəlin oldu, ərinin yumruqlarını daşıdı üzündə, gözünün altında

Elə bil bu misra bir dram əsəridir. Səhnələşdirmək olar. Tamaşa hazırlamaq olar bu misradan. "Daşımaq" burda ömür sürmək deməkdir. Ədəbiyyat həm də sinekdoxadır, ad qoymaqdır. Şair şeirdə yaşamağın adını daşımaq qoyub.

Mən 10-cu sinifdə oxuyanda, 1978-ci ildə bir şeir yazmışdım, Vəfanın "yazıq Gülnar" şeirinin əvvəli kimi.

Ay kişi, döymə arvadını,
Ay əllərin qurusun,
Heç bilirdin onu kim sevirdi?

Vəfa da "Yazıq Gülnar" şeirini bu il yazıb, 2015-ci ildə. Gör neçə ildi Azərbaycan qadını döyülür, üzündə təbəssüm gəzdirməliykən, qara qançırlar gəzdirir.

Bir gün də Gülnarın cansız, balaca vücudunu daşıdı çiynində səkkiz kişi,

Onların içində əri də vardı, oğlanları da, qardaşı da.

Heç kim anlamadı ki , tabut niyə belə ağırdır axı?

Gülnar yox idi tabutda, ömrü boyu daşıdıqları vardı çünki.

Yenə deyirəm, bu şeir deyil, dramdı, tamaşadı, səhnədi və olduqca gözəldi. Açığı, bir az da əsəbiləşirəm. Gülnarı bu günə qoyan cəmiyyətə və Vəfanın istedadının qəddarlığına.

Vəfanın "Yazıq Gülnar" şeiri Cəfər Cabbarlı dramaturgiyasının davamıdır. Onun obrazlar səltənətinin yenidən doğuşudur. Gültəkindir, Firəngizdir, Dilarədir, Füruzədir, amma Almaz deyil. Yaxşı ki, Almaz deyil.

Avam getdi dünyadan Gülnar!
Amma bircə şeyi daşıya bilmədi!
Ərinin ürəyində ömrü boyu başqa qadını daşıdığını.
Yazıq Gülnar!..

Amma günah həm də Gülnarındır, Vəfa, bunu bilirsənmi? Gülnar onu sevəni yox, yumruqlarla gözünə sürmə çəkən kişini seçdi. Ramiz Rövşənin "Qara paltarlı qadın"ının taleyi var bu şeirdə. Bəli, sonra kişilər peşman olacaq, öldürdükləri qadınlar üçün. Nüsrət Kəsəmənli "Etiraf"da, Ramiz Rövşən "Qara paltarlı qadın" da.

Bakı - Ələt avtobusunun təkərlərinin oxutduğu qara val - asfalt. Ətrafa yayılan səs - vals. Tərli pəncərə şüşəsində çölə baxmaq sevgi kimidir və tərli pəncərə şüşəsinə yazılan şeirlər heç vaxt silinmir.Vəfa, düz demirəmmi?

Bilmirəm, Ələt - Bakı avtobusu səhər Bakıya saat neçədə çıxır, bax, o saatlarda onun tərli şüşələrinə söykənən üz, müxtəlif xətlər çəkən barmaqlar yenə var. O, yenə dünən baş verən kədərli və ya sevincli hadisəni tərli pəncərə şüşəsinə pıçıldayır. Şüşə yenidən tərləyir. Kimsə o tərin altında o yazını nə vaxtsa tapacaq.

Vəfa Yazıçılar Birliyinə çatır, tədbir hələ başlamayıb, çantasını yanındakı boş stula qoyur. Bir az keçir, oturmağa yer tapılmır, ayaq üstə qalanlar Vəfadan çanta qoyulmuş boş stulda əyləşməyə icazə istəyirlər. Vəfanın səsini eşidirəm: "Zanitdi". O boş yerin sahibi haqda növbəti yazımda.

ZƏRİF HİSSLƏR, LİRİK DUYĞULAR

Vaqif YUSİFLİ

Zərif hisslər, lirik duyğular... Qadın dünyasını, onun incə aləmini bu sözlər olmadan təsəvvür etmək mümkün deyil. Azərbaycan ədəbiyyatı, xüsusilə poeziyası əsrlər boyu o zəriflərin gözəlliyini, onlara pərəstişi, sevgini vəsf etməkdən yorulmayıb.

Azərbaycan zəriflərinin özləri də təkcə şeir qəhrəmanı yox, həm də şair olublar, poeziyanın müxtəlif janrlarında yazıb-yaradıblar. Məhsətidən Firuzə Məmmədliyə, Natəvandan Fərqanəyə, Heyran xanımdan Nurəngiz Günə, Umugülsümdən Afaq Məsuda, Mirvarid Dilbazi, Nigar Rəfibəyli və Mədinə Gülgündən bu günün ən gənc zəriflərinə qədər... Bu yazar xanımlar (bu sıraya digər adları da əlavə edə bilərəm) öz lirik duyğularını, zərif hisslərini, yeri gələndə isə qəhrəmanlıq çağırışlarını, həm də nisgil və fəryadlarını məhz ədəbiyyat vasitəsilə dünyaya çatdırıblar.

Mən istedadlı jurnalist və nasir Zemfira Məhərrəmlini də bu ənənəni yaşadan bir yazar hesab edirəm. Jurnalist sözünü ön sıraya çıxarmağımda məqsəd odur ki, Zemfira xanımı, ilk növbədə, onun "Döyüşə qızlar gedir" kitabında toplanan publisistik yazıları, sənədli hekayələri ilə tanımışam. Həmin yazılarda Azərbaycan qadınının yurdsevər, vətən uğrunda savaşlara atılan mübariz obrazı yaradılıb. Zemfira xanımın təsvir etdiyi həmin qadınlar zərifliyin qəhrəmanlığa, qızılgülün qılınca çevrildiyini təcəssüm etdirirlər.

Sonra mən onun "Qırx qız dastanı" kitabını da oxudum. Daha sonra "Qarabağda savaş var" kitabını. Bizim bir çox jurnalistlərin, yazarların düçar olduğumuz müharibə haqqında bir sətir belə qələmə almadığı, Qarabağ müharibəsinin ağrı-acısını içində yaşatmadığı bir çağda Zemfira Məhərrəmlinin bu kitabları çox dəyərlidir, həm də qəlbində düşmənə qarşı savaş əzmi olmayanlara ibrətdi, utancdı.

Z.Məhərrəmli bədii nəsrlə də məşğul olur. Mən "məşğuliyyət" sözünü peşə anlamında işlətmirəm. Təbii ki, bədii ədəbiyyat məşğuliyyət olmamalıdır. Zemfira xanımın "sadəcə oxumaq üçün" mənə təqdim etdiyi nəsr əsərlərini də onun yazıçı olmaq iddiası kimi qəbul etmirəm. Bu yazılar ürək çırpıntılarından, qəlbin qarşısıalınmaz istəyindən yaranıb.

Savaş publisistikasından lirik nəsrə keçməklə Zemfira Məhərrəmli Azərbaycan

zəriflərinin sevgi dünyasını, ailə-məişət aləmini, ən başlıcası isə hisslər dənizini bədii sözə çevirib.

"Oyuncaq" povestində Nərgiz və Rəsul sevgisi Leyli-Məcnun silsiləsinin bir çalarıdır. Leyli Məcnuna qovuşmadığı kimi, Nərgiz-Rəsul sevgisi də baş tutmur. Müəllif onların qəlb çırpıntılarını, mehriban, isti münasibətini, ünsiyyətini real təsvir edir. Həm də belə bir həqiqəti sübuta yetirir ki, sevgi yaşayır – böhranlı çağlar, ortaya çıxan maneələr, mənəvi fırtınalar olsa belə...

Zemfira Məhərrəmlinin hekayələrinin, məncə, bir mövzusu var – qadın həyatı, qadın psixologiyası. Onun hekayələrinin süjeti də sadədir. Bu yazıların dili rəvan, axıcı, təmizdir. Bir sözlə, o, bir hekayənəvis kimi püxtələşə bilər.

Böyük qırğız yazıçısı Çingiz Aytmatov deyirdi ki, hekayə qravüra sənətinə oxşayır, hekayə mozaikadır, müxtəlif xırda və zərif hissəciklərin qaynağıdır. Zemfira xanımın hekayələrində də ayrı-ayrı "hissəciklər" bir tam halında birləşməyə can atır.

"Yuxunu suya danış" kövrək bir hekayədir. "Bir qaranlıq gecədə" kənd qadınının dolğun, dönməz xarakteri açıqlanır. "Analıq haqqı" Ana istəyinin, sevgisinin təcəssümüdür. "Beş saniyənin hökmü" həyat və ölüm qarşıdurmasını əks etdirir. "Qisas qiyamətə qalmaz" hekayəsi isə şərin iflasını, xeyirin qələbəsini canlandırır.



Ədalət SALMAN

* * *

Bizimki yaşamaq deyil,
Canı çürütməkdi, bala.
Başına bir ip keçirib
Ömrü sürütməkdi, bala.

Baxıb əmlik quzulara, -
Dadmadığın ruzulara,
Çatmadığın arzulara
Xəyal yürütməkdi, bala.

Ömrü-günü bilə-bilə
Nahaq yerə verdik yelə.
"Düzələcək"- demək elə
Özün kiritməkdi, bala.

* * *

Köhnə ildə qoydum
əlimdən yox,
ətəyimdən tutub
sallanan dostları.
Unutdum
dünya malına allanan dostları.
Köhnə ildə qoydum
nəfsi iti,
yaxabiti dostları.
Çörəyi diz üstə imiş
çörək kəsdiyim o adamlar,
Bir gün
çörək qənim olacaq,
geci-tezi var.
Köhnə ildə qoydum
köhnədən dost bildiklərimi.

Ayrıldım,
köhnə ildən ayrılan kimi.

* * *

Ustad Rəsul Rzanın xatirəsinə

Bu bizik...
Yaxşıların qədrini
sağlığında bilməmişik,
fərəhinə uçunub,
dərdini bölməmişik.
Nadanlığımızla
çərlədib öldürmüşük,
aləmi
özümüzə güldürmüşük.
Öldürüb
sonra da
üstündə ağı deyib ağlamışıq,
dəfninə arsız-arsız
çələng də bağlamışıq.
Bu bizik, ustad...
Şeirimizə dodaq büzənlər,
səndən,
məndən gen gəzənlər
qəbrimiz üstə
tərif yarışına çıxırlar,
yalandan ağlamsınırlar,
yalandan gözlərini sıxırlar.
Bu bizik...
Heyif ki, bu bizmişik,
belələrini görməkdən
bezmişik,
ustad,
bezmişik!..

3 RƏSSAMIN ÜÇ DÜNYASI

1. Məmməd Dəmirçioğlunun rənglər dünyası

Bəri başdan etiraf edim ki, tanınmış rəssam, heykəltəraş və Azərbaycan ədəbiyyatında öz dəst-xətti olan süfi şair, Məmməd Dəmirçioğlunun rəsm əsərləri haqqında nə qədər yazsam belə, həmin əsərlərin daxili aləmini, məziyyətlərini sözlə ifadə edə bilməyəcəyimdən bir təəssüf hissi keçirirəm. Açığını deyim, Dəmirçioğlunu peşəkar rəssam, mahir heykəltəraş və əvəzsiz tərtibatçı olmasına baxmayaraq, şair kimi daha çox tanıyıram və rəssam kimi səciyyələndirmək mənim üçün bir qədər çətindir. Lakin müəyyən qədər məlumatım var ki, o hələ uşaq yaşlarında öz taleyini rəssamlıqla bağlayıb. Erkən gənclik illərindən şeir yazsa da, "Uzun illər şeirlərimi çap etdirməyə qorxurdum. Çünki məndə şeirə münasibətdə bir Ağamalı Sadıq, Akif Səməd, Məmməd İlqar xofu var idi"-deyir. Beləliklə, bu kiçik yazıda çalışacam ki, rəssam Məmməd Dəmirçioğlunun portretini "çəkməyə" cəhd edim. Öncə onu demək istəyirəm ki, Dəmirçioğlu Böyük Yaradanın ən sevdiyi bəndələrdəndir. O, bu övladına bir neçə istiqamətdə istedad verib.

Yuxarıda qeyd etdiyim kimi, o, nadir istedad sahibi olaraq Azərbaycanda və eləcə də, onun hüdudlarından kənarda istedadlı heykəltəraş, maraqlı dizayner, mahir söz ustası və təkrarsız rəssam kimi tanınır.

Ancaq maraqlıdır, görəsən, ilk növbədə onda hansı istedad özünü büruzə verib. Təbii ki, bu, yalnız özünə bəllidir. Lakin mən də Məmməd Dəmirçioğlunu tanıyan adam kimi deyə bilərəm ki, onun ilk istedadı rəssamlıq sahəsində üzə çıxıb. Əvvəla, ona görə ki, Dəmirçioğlu son dərəcə həssas adamdır. Onun ovqatı bir əsən mehdən, bir xoş sözdən, bir çiçəyin duruşundan, bir gülün baxışından, bir quşun səsindən, bir sözlə, ətrafda baş verən ən xırda hadisədən dəyişə bilər. İkincisi, Məmməd Dəmirçioğlunun dünyaya göz açdığı məkan elə mənzərələr diyarıdır. Fikrimcə, əvvəlcə bu əsrarəngiz mənzərələr Dəmirçioğlunun şair xəyalını, rəssam duyğusunu vəcdə gətirmiş, sonra o, həmin mənzərələri kətana köçürərək insanları heyrətə gətirmişdir.

Çox qəribədir, Məmməd Dəmirçioğlu nə yaradırsa, istər şeir olsun, istərsə tablo, istərsə də heykəl – yaratdıqlarının hamısında bir rəssam dəst-xətti var. Ən maraqlısı odur ki, ədəbiyyatımızda yeni olan "insan mənzərələri" seriyasından yazdığı əsərləri o məhz mənzərə şəklində yaradır. O, müasirlərinin, tarixi şəxsiyyətlərin, qəhrəmanların obrazını "İnsan mənzərələri" adı altında oxuculara təqdim edir.

Bir çox hallarda şair kimi də sözlə qeyri-adi rəsmlər çəkir:

Leysan olur göylərdəki hay-həşir,
Külək döyür, söy vələslər gərnəşir,
Quzeylərdə buz bulaqlar göynəşir,
Dodağımla ovuşmasa, ovunmaz.

Təsviri incəsənət yaradıcılığın elə bir növüdür ki, sərhəd tanımır. Bu əsərlərin dili, milləti yoxdur. Bu əsərlər dünyada nə qədər dil, xalq varsa, danışa bilir və bu mənada, bütün rəssamlar kimi, Dəmirçioğlunun əsərləri də sərhəd tanımır. Onun portretləri, peyzajları, tabloları neçə-neçə xalq nümayəndələrinin şəxsi kolleksiyalarını bəzəyir.

Məmməd Dəmirçioğlunun rənglər dünyası çox maraqlıdır, deyir ki, mövcud olan əsas yeddi rəngin hamısı onun xoşuna gəlir.

Lakin rəssamlıqdan məlumatı olan hər kəs bilir ki, bu yeddi rəngin qarışığından minlərlə çalar əmələ gəlir və elə rəssamlar da əsərlərində bu rənglərdən möcüzələr yaradır. Məmməd Dəmirçioğlunun da bütün rənglər xoşuna gəlir, yalnız birindən başqa. Bu rəng ağla qaranın qarışığından əmələ gələn boz rəngdir. Və qəribəlik də bundadır ki, qara fırçanı ağ kətan üzərində gəzdirəndə Dəmirçioğlunun elə ilk rast gəldiyi rəng də boz rəng olur.

Məmməd Dəmirçioğlunun portret janrında yaratdığı əsərlərdən biri – atası Musa kişinin portretidir. Əsər qeyri-adi dərəcədə səmimidir. Tamamilə zəhmətdən yoğrulmuş Musa kişinin obrazını yaratmaq, onun xarakterini açmaq müəllif üçün çox çətin olsa da, atasını – onun məhz özünün tanıdığı, hiss etdiyi doğma bir insanı yarada bilib.

Dəmirçioğlunun yaradıcılığından söhbət açarkən sevimli şairimiz Akif Səməddən yan keçmək mümkün deyil.

Bu yazının bir neçə yerində mən Akif Səmədin Dəmirçioğlu ilə,Nəvai Mətinlə münasibətləri barədə müəyyən detallar vermişəm. Ümumiyyətlə, bütün söz və sənətsevərlər üçün Akif Səməd qeyri-adi bir şəxsiyyət olub.

Akif Səməd obrazı Dəmirçioğlunun (elə Qafar Sarıvəllinin də, Nəvai Mətinin də) daimi obrazıdır. Hamımıza məlumdur ki, Akif Səmədin qəbirüstü abidəsinin də müəllifi Dəmirçioğludur. Onun Akif Səmədə həsr etdiyi çoxsaylı əsərləri var.

2. Qafar Sarıvəllinin danışan obrazlar qalereyası

Qafar Sarıvəllinin yaradıcılığı ilə tanışlığım ötən əsrin 90-cı illərindən başlayır. Amma mənə elə gəlir ki, Qafarı lap uşaqlıqdan tanıyıram. Onun yaradıcılığı çox zəngin, obrazlarının əhatə dairəsi müxtəlifdir. Qafar özü də şəxsiyyət kimi bizim el-obanın köhnə kişilərini xatırladır. Yerişi, duruşu, sözü, söhbəti, ünsiyyəti və koloriti ilə. Bu mənada, habelə əsərləri baxımından onu klassik rəssamlara aid etmək olar. Onun əsərləri ciddi, mənalı, düşündürən və müxtəlif "izm"lərdən uzaqdır.

Qafarın yaradıcılığında rəssamlığın bütün janrları öz əksini tapıb. Klassik ənənələrə söykənən, rəssamlığın ən sərt qanunlarına ciddi riayət edən Qafar Sarıvəlli özünün dəst-xəttini yaradıb.

Rəssamlığın ən qədim janrlarından biri olan portret janrı Qafar Sarıvəllinin yaradıcılığında mühüm yer tutur.

Onun yaratdığı portretlərə fikir versək, görərik ki, ən çox yaradıcılığına və şəxsi kefiyyətlərinə görə dərin hörmət bəslədiyi şəxsiyyətlərin, yaxından tanıdığı insanların obrazlarını yaradır.

Diqqət edin Qafar Sarıvəllinin qəhrəmanlarına, - Səməd Vurğun, Nəriman Həsənzadə, Aşıq Ədalət, Zəlimxan Yaqub, Nizami Cəfərov, Mirvarid Dilbazi, Ağamalı Sadiq, Məmməd İlqar, Akif Səməd və daha kimlər. Onun şairlərə, yaradıcı insanlara müraciət etməyinin səbəbi elə şeirə, sənətə, saza-sözə olan böyük məhəbbətdən, sevgidən irəli gəlir.

Təbii ki, bu kiçik yazıda Qafar Sarıvəllinin nəinki bütöv yaradıcılığı haqda, heç onun yaratdığı portretlər haqda da ətraflı fikir yürütmək mümkün deyil. Lakin Qafar Sarıvəllinin yaradıcılığına və şəxsiyyətinə məhəbbəti olan adi bir seyrçi kimi, onun bir neçə əsəri haqqında öz fikirlərimi sizinlə bölüşmək qərarına gəldim.

Qafar Sarıvəllinin obrazlar qalereyasının bəzəyinə çevrilən qəhrəmanlarından biri böyük şairimiz Səməd Vurğundur.

Heç kəsə sirr deyil ki, Səməd Vurğun dövrümüzün ən böyük şairi kimi Azərbaycan poeziyasının nəhəng nümayəndələri Şeyx Nizami, Mövlana Füzuli, Seyyid Nəsimidən sonra hələ min illər yaşayacaq və ona nə qədər əsərlər həsr edilsə belə, Səməd Vurğun şəxsiyyətini bütövlüklə aça bilmir. Qafar Sarıvəllinin yaratdığı Səməd Vurğun portreti də bu əmələ, bu arzuya xidmət edir. Hazırda şairin ev muzeyinin ən dəyərli eksponatlarından biri olan bu portret Səməd Vurğun şəxsiyyətinə məhəbbətdən yaranıb. Tale elə gətirib ki, nə Qafar Sarıvəlli, nə də bu yazının müəllifi böyük şairin müasirləri olmamışıq. Lakin onun haqqında yazılmış əsərlərdən, məqalələrdən, xatirələrdən bilinir ki, Səməd Vurğun həm şair kimi, həm insan kimi, həm də ictimai xadim kimi bütöv bir şəxsiyyət olub. O, xarici görkəm etibarı ilə də yaraşıqlı, nurani bir insan idi.

Qafar Sarıvəlli, mənim fikrimcə, bu əsərində Səməd Vurğunun bütün böyüklüyünü, yuxarıda qeyd etdiyim xüsusiyyətləri, habelə müəllifin öz içində illərlə cücərdib böyütdüyü, yalnız onun özünə məlum olan böyük Səməd Vurğun obrazını nümayiş etdirməyə, tamaşaçıya çatdırmağa cəhd edib və buna nail olub.

Qafarın işlədiyi bütün portretlərə diqqət yetirərək dərhal duyursan ki, onlar canlıdır. Sənlə söhbət edir, sənə nə isə danışır. Bir sözlə, Qafar Sarıvəlli öz portretləri ilə "danışan obrazlar qalereyası" yaratmışdır.

3. Nəvai Mətin və impressionizm

Bu il rəssam Nəvai Mətinin 50 yaşı tamam oldu. Sənət dostları, yaxınları, doğmaları onun bu yarım əsrlik yubileyini sevinclə qeyd etdi. Mən də həmin təbriklərə qoşularaq onun rənglər dünyasına bir az səyahət etdim.

Uşaqlıq illərindən rəssamlıq sənətinə dəlicəsinə vurulan, o illərdə öz uşaq aləmi ilə mənzərə və portretlərini yaradan Nəvai Mətin rəssamlıqla daha ciddi məşğul olmaq istəyirdi. Rəssam olmaq Nəvai Mətinin uşaqlıq arzusu idi. Bu arzu onu Pedoqoji İnstitutun bədii qrafika ixtisasına gətirib çıxartdı. Ali təhsil almaqla yanaşı, öz yaradıcılığında davam etdirdi. O illərdə Nəvainin dostu, mərhum şairimiz Akif Səməd onun haqqında yazırdı: "Rəssam var ki, adam, at, it şəkli çəkə bilmir, nəsə çəkir və adını da nəsə "izm" qoyur, amma Nəvai adam, at, it şəkli çəkə bilir..." Sənət və həyat dostu, onun həmyerlisi böyük sənətkarımız rəssam heykəltəraş, şair Məmməd Dəmirçioğlu isə Nəvai Mətin yaradıcılığını belə səciyyələndirir: "O zamankı APİ-də rəssamlıq təhsili alarkən işlədiyi bir neçə tablo, onun böyük istedad sahibi olduğundan xəbər verirdi..."

Bir müddət rəssamlığın daşını atan Nəvai məmurluqla, bizneslə, kommersiya ilə məşğul olur. Lakin bu uzun çəkmir və o, böyük enerji və coşqu ilə yenidən sənətə qayıdır. Nəvai haqqında fikirlərini davam etdirən Dəmirçioğlu yazır: "Düzünü söyləsəm, onun rəssamlığa bu cür sürətlə dönüşünə inanmırdıq və qısa zaman kəsiyində etdiyi sıçrayışlar sözün həqiqi və yaxşı mənasında mənim özümü də heyrətləndirdi. O, özünü tapa bildi, öz palitrasını kəşf etdi".

Bəli, indi ömrünün və sənətinin püxtələşən bir çağında Nəvai Mətin sözün həqiqi mənasında şedevrlər yaradır.

Düzdür, Nəvai Mətin Uluslararası Aktivist Sənətçilər Birliyinin Azərbaycan təmsilçisi və Rəsm komitəsinin başqanı kimi, Azərbaycan mədəniyyətinin, eləcə də, türk dünyasının sənət incilərinin və sənətkarlarının dünyaya tanıdılmasında gərgin və uğurlu iş aparır.

Yaradıcılıq Nəvai Mətinin stixiyasıdır. Mənim bildiyimə görə, o gözəl rəssam, tərtibatçı, reklamçı olmaqla yanaşı, şeir də yazır, gözəl saz çalır və hərdən pəsdən oxuyur da.Lakin hər şeydən əvvəl,o rəssamdır. Onun xarici görkəmi də, davranışı da, danışığı da, hərəkətləri də bunu sübüt deyir.

Rəssam olmaq Tanrı vergisidir. Lakin böyük rəssam olmaq üçün sənin biliyin, dünyagörüşün, informasiyan, duyum qabiliyyətin, zəhmətsevərliyin və daha nələr olmalıdır. Nəvai Mətin rəssam kimi doğulub.

Nəvai Mətin çoxprofilli rəssamdır. Onun portretlərinin, peyzajlarının, etüdlərinin, natürmortlarının hər biri ciddi müzakirə obyektidir. O, rəssamlığın texnologiyasını mükəmməl mənimsəyib, istər yağlı boya ilə işləsin, istər akvarellə, istərsə də qrafika, nə işləyirsə, hamısı çox canlıdır. Seyrçini heyrətləndirə, düşündürə bilir. Bu əsərlər seyrçiyə sirayət edə bilir, onun ovqatını dəyişə bilir, özü də müsbət mənada. Təbii ki, rəssam olmaq təkcə gördüyünü kətana köçürməkdən ibarət deyil. Əgər elə olsaydı, fotoaparat icad edildikdən sonra rəssamlara ehtiyac qalmazdı.

Rəssamın fotoqrafdan fərqi odur ki, məhz o, heç kəsin görmədiyi və ya görüb hiss etmədiyi şeyləri görür və seyrçiyə təqdim edir.

Deyirlər, bir gün bir müəllim yazı taxtasına bir ağ vərəq yapışdıraraq kağızın ortasına bir nöqtə işarəsi qoyur və şagirdlərdən lövhədə nə gördüklərini soruşur.

1-ci şagird "nöqtə", 2-ci şagird "qara nöqtə", 3-cü şagird isə "yağlı qara nöqtə" cavabını verir. Müəllim təəssüf hissi keçirir ki, siz burada bu boyda ağ kağızı görə bilmədiniz.

Yadıma gəlir ki, uşaq vaxtı Novruz bayramı ərəfəsində ilaxır çərşənbə axşamı dan atardılar. Sübh tezdən, lap o başdan hamı yanan lopalarla dəstə ilə axar suyun üstə gedərdi. Deyərdilər ki, səhər təbiətdə elə bir məqam, elə bir an olur ki, bir an içində sular dayanır, ağacların budaqları yerə dəyir, atlar gülür və s. Həmin anı görmək üçün gərək yatmayasan, gözlərini qırpmayasan, hər şeyə diqqət kəsiləsən ki, həmin məqamı görə biləsən. Lakin bu vaxtadək həmin anı görən olmayıb.

Mənə elə gəlir ki, rəssamlar, xüsusilə, mənim qəhrəmanım Nəvai Mətin o anın bir məqamını görür. Görür və həmin mənzərəni kətana köçürür.Heç kəsin görə bilmədiyi, hiss etmədiyi anı görür. O, təkcə gözləri ilə görmür,sanki onda bəsirət gözü var, bir fəhm var, hansısa altıncı bir hiss var.

Deyəsən, Nəvai Mətinin yaradıcılığından yaza-yaza gəlib impressionizmə çıxdım. Bir vaxtlar rəhmətlik Akif Səməd deyirdi ki, Nəvai Mətinin yaradıcılığında hansısa "izm" yoxdur. Ancaq, mənim qənaətimcə, onun rəssam taleyinə də bir "izm" yazıldı. Ancaq bu "izm" - impressionizm abstraktlığın əksidir. İmpressionistlər real həyatı daha təbii və qərəzsiz əks etdirməyi xoşlayırlar. Nəvai Mətin kimi...

Fikrimcə, Nəvai Mətin impressionist rəssamdır.

İmpressionizm fransız dilində "təəssürat" deməkdir. Təəssürat isə ətraf aləmdəki əşya və hadisələrin insan şüurunda buraxdığı iz, onların əksi, ona təsiri deməkdir. Bu, təsviri incəsənətin XIX əsrin 60-cı illərində yaranan istiqamətidir. İmpressionist rəssamlar əşyanın rəngdən- rəngə düşməsi təəssüratını yaratmaq üçün bir-birini gücləndirən rənglərdən istifadə etməyə üstünlük verirlər.

Bir qayda olaraq, onlar öz əsərlərini emalatxanada deyil, açıq havada yaradırlar.

Bəli! Nəvai Mətin öz əsərləri üzərində işləyərkən axtardığı ən əsas faktor işıqdır. İşıq Nəvai Mətin üçün hər şeydir.

Mən deyə bilmərəm, Nəvai Mətin rənglərin texnologiyasını, onların qarışığından alınan çalarları ali məktəbdə oxuduğu illərdə öyrənib, yoxsa ona bu istedad fitrətən verilib. Lakin bilirəm ki, rənglərin qarışığından məharətlə istifadə etməklə güclü işıq effekti yarada bilir ki, bu da əsərləri daha cəlbedici, baxımlı və düşündürən edir.

Dediklərimə misal olaraq, onun "Sınmış kərpic" əsərini diqqətinizə çatdırmaq istərdim.

Əslində obyekt olaraq, cansız əşya olaraq kərpic heç bir şeydir. Lakin rəssamın peşəkarlığı bu cansız, soyuq əşyanı o qədər baxımlı təsvir edib ki, müəllifin ustalığı qarşısında baş əyməli olursan.

Nəvai Mətinin əsərlərinə baxdıqca onlardan rənglərin ətri gəlir, onun mənzərələrində, portretlərində bir lirizm var. Heç şübhə etmirəm Nəvainin əsərləri üzərində işləyərkən pəsdən oxumasına. Sanki oxuduqca musiqi onun yaratdıqlarına köçür və bu səbəbdəndir ki, onun əsərlərində bir harmoniya var.

Nəvai Mətini fərqləndirən cəhətlərindən biri də odur ki, o, yaratdığı əsərlərin əvvəlcədən eskizlərini çəkmir, obrazları birbaşa naturadan, açıq hava altında yaradır. Özü də çox qısa bir müddətdə.

Bu gün ömrünün 50-ci baharını yaşayan Nəvai Mətin böyük bir coşqu, həvəslə, böyük bir həyat eşqi ilə öz əsərlərini yaratmaqdadır.

Nəvai həm də daim axtarışdadır və rəssamlıq sənətində yeni bir ilkə imza atmışdır. O, tərtibatçı – rəssam kimi vitraj və peyzajın ideal vəhdətindən 3D formatında əsərlər yaradır.

Həmin əsərlərə tamaşa etdikcə iftixar hissi keçirirsən: bu əsərləri yaradan sənin xalqının nümayəndəsi, sənin elinin oğlu, sənin dostundur.

Qazaxda bir dağ var-Göyəzən dağı...

Azərbaycanımızın bəxtinə düşmüş nadir geoloji təbiət abidəsi olan bu dağ haqqında çox yazılıb. Yazılı ədəbiyyatda Hacıkərim Sanılıdan başlayan Göyəzən mövzusuna əslən Qazax mahalından olan bütün şairlər müraciət ediblər. Lakin Göyəzən haqqında şah əsəri Səməd Vurğun yaradıb (bəzən mənə elə gəlir ki, Səməd Vurğunun adı və təxəllüsü qarşısında nəsə yazanda o adın böyüklüyünə bir xələl gəlir).

Göylərə baş çəkir Göyəzən dağı,
Axşam açıq olur ayın qabağı...

Və həqiqət budur ki, Səməd Vurğunun bu bircə bəndi Göyəzənin şöhrətini bütün dünyaya yaydı.

Bununla yanaşı, Göyəzən elə bir möcüzədir ki, haqqında nə yaratsan, onun hüsnünə yaraşır. Üç rəssam dostumuzun "Göyəzən" dağının rəsmini yaratması da onun "Şöhrətini ellərə yaymağa" xidmət edir.

Akvarellə işləmiş Dəmirçioğlunun Göyəzəni öz əsrarəngiz gözəlliyi ilə insanı valeh edir. Müəllif dağı bahar çağında təsvir edib.

Əsər sanki bütün seyrçiləri "Gəlin, mənə tamaşa edin" - deyə səsləyir.

Qafar Sarıvəllinin Göyəzəninin öz gözəlliyi var. O, Göyəzəni qış fəslində, axşam çağı təsvir edib. Yəqin... "Axşamlar başını dumançən alan, Göyəzən dağı yadına düşübmüş" *(Hüseyn Arif).*

Nəvai Mətinin Göyəzəni bir başqa aləmdir. Əsərə baxdıqca baxmaq istəyirsən. Hər baxdıqca Göyəzən bütün əzəməti ilə təsəvvüründə canlanır. Gözəl şairimiz Eldar Nəsibli Sibirelin "Göyəzən" haqqında yazdığı aşağıdakı şeir parçası sanki Nəvai Mətinin Göyəzən əsərinə həsr edilib:

Baharda gül-çiçək,qışda qar ilə
Təbiət bu dağa "göy bəzən" deyib.
Zirvəsi oynayır buludlar ilə,
Onunçün babalar göy əzən deyib.

Mən bu üç rəssamın hər birini Göyəzənə bənzədirəm - Ucalıqda, məğrurluqda, yaradıcılıqda, sənətdə... Bu yazının başlığı da təsadüfən seçilməyib. Onların hər birinin həm də Göyəzənə böyük məhəbbəti var və mən onlara Göyəzən vüqarı, Göyəzən ucalığı və Göyəzən ömrü arzulayıram.

Ramiz GÖYÜŞOV

Günel EYVAZLI

Azərbaycan Dövlət Pedoqoji Universitetinin filologiya fakültəsini bitirib.

Sumqayıt Dövlət Texniki Kollecində çalışır.

2013-cü ildə Azərbaycan Yazıçılar Birliyinin üzvlüyünə qəbul olub. Prezident təqaüdçüsüdür.

"Yuxumu xeyrə yozun" şeirlər kitabının müəllifidir.

Nəsr kitabı çapa hazırlanır.

Mona Liza

MONA LİZA

Deyilənə görə, İstanbul sözünün mənası "İslam bol" sözündən götürülüb. Osmanlı dövrünün Türkiyə üçün ən böyük ərmağanı İstanbul idi. Qədim Konstantinopol islam ab-havasından fərqli libas geyinmişdi əyninə. Bu libas onu daha da cazibədar və özünəməxsus göstərirdi. İstanbul, sinəsində xaç gizlədib, özünü müsəlman kimi qələmə verən, inamını, dinini eşqinə qurban verən xanıma bənzəyirdi. İstanbul mənə bənzəyirdi.

Mən Deyala Salvador Vera sadə xristian ailəsində anadan olmuşam. Ailəmizdə üç nəfərik. Atam, anam və mən. İstanbulda mən hələ körpə ikən məskunlaşmışdıq. Yadıma gəlir, ilk dəfə şəhər mənim üçün nəhəng görünmüşdü. Hətta heyrətimdən və qorxumdan ağlamışdım da. Evin tək övladı olduğumdan valideynlərim məni çox ərköyün böyütmüşdü desəm, yanılmaram. Böyük qız olana qədər atamın dizlərinin üzərində otururdum. Deyəsən, atam böyüməyimin fərqində deyildi. Mən onun üçün balaca, şıltaq Deyala olaraq qalırdım.

Hər bazar günü kilsəyə gedib dua edirdik - bütün xristianlar kimi. Həftə içi isə heç boş vaxtım olmurdu. Dərslərim, fransız dilindən hazırlığım zamanımı büsbütün alırdı. Əslində, həyatımda Mustafa peyda olana qədər hər şey çox gözəl davam edirdi.

Biz ikimiz də kursda fransız dilini öyrənirdik. Qrup elə iki nəfərdən ibarət idi: Mən və Mustafa.

Həddən ziyadə ciddi olan müəlliməmiz missis Forleni razı salmaq çətin məsələ idi. Mustafa qəliz fransız sözlərini düzgün tələffüz edə bilmirdi. Miss Forlenin nazik çubuğu hər dərs Mustafanın kafasına dəyərdi. Mən isə Mustafanı pərt etməmək üçün gülüşümü içimdə boğurdum. Güləyən olduğumdan bu məndə bəzən alınmırdı. Mustafa isə utandığından qızarardı.

Qəribə oğlan idi. Qaraqabaq, qaradinməz. Bu qədər heyranım olduğu halda, təmkin nümayiş edib mənə baxmamasından qıcıqlanırdım. Olsun. Mən özüm də çox lovğa birisi idim. Mustafanın çöhrəsinə ya bir dəfə baxmışdım, ya da heç baxmamışdım.

Bəzən öz-özümə düşünürdüm, - bu yaraşıqlı göygöz, sarışın türk erkəyi məni sevsə və mən onu sevsəm belə, nə olacaq ki? Bir xristian qızının müsəlman bəyəfəndisinə aşıq olmağı nə dərəcədə doğrudur?

Yəni mənim onu sevməyim yasaqdan yasaq idi. Bu o demək deyil ki, biz müsəlmanları sevmirik. Yox. Hətta onların bayramlarını belə qeyd edirdik. Ramazan, Novruz, Qurbanlıq. Artıq adətlərimiz qarışıq idi. Və ya Pasxa bayramında müsəlman uşaqları qapımıza gəlib, "Bayramınız kutlu olsun!" deyərkən, biz də şirniyyat verərək onların könlünü xoş edirdik. Onlarla mehribancasına, birgə yaşayırdıq.

Mustafanın atası ziyalı birisi idi. Mustafa fars, ərəb dillərini mükəmməl bilirdi. Üstəgəl təbiət elmlərini öyrənir və fransız dilinə bələd olmağa çalışırdı. Onun çox yaxşı rəsm çəkmək qabiliyyəti var idi. Bir dəfə sinfi tərk etməsindən istifadə edib dəftərini vərəqləmişdim. Sonuncu səhifədə şəklimi çəkmiş, sonra qaralamışdı.

O, mənə gülərkən çox baxardı. Atam da sənin çox gözəl təbəssümün var, deyərdi - daima. Mən də saatlarla güzgü önündə dayanıb gülüşümün necə olmasını yoxlayırdım. "Belə gülsəm yaxşıdır, yoxsa bir başqa cür?" Dərsə gəlməmişdən öncə

güzgü önündə pozlarımı aydınlaşdırırdım. Və dərs boyu fransız dili bir kənarda qalardı, mən isə Mustafanın qarşısında poz verirdim. Onun mənə baxan ciddi, guya laqeyd baxışları çox xoşuma gəlirdi.

Hə, Mustafa məhz mənim gülüşümə heyran qalmışdı, şıltaq gülüşümə. Bəs mən Mustafada nəyi sevmişdim? Deyim ki, savadlı olsa da, nisbət baxımından savadı məndən az idi. Mən fransızcanı tum kimi çırtlayanda Mustafa hıqqınırdı. Doğrudur ərəbi, farsı onun kimi mükəmməl bilmirdim. Yenə də, mən ondan qat-qat savadlı və bilikli idim.

Həm də o, çox qaraqabaq idi. Bəs nə idi bizi bir-birimizə bağlayan? Niyə mən onu unuda bilmirdim? Niyə beynimin içində həmişə o yaşayırdı? Niyə onu görəndə ürəyim titrəyirdi? Niyə o məni görəndə üzümə baxa bilmirdi? Niyə əlləri əsirdi, dili topuq çalırdı? Niyə bu qaraqabaq oğlan mənim üzümə baxarkən çöhrəsində gülüşünü gizləyə bilmirdi? Niyə onu görəndə daxilimdə kəpənəklər uçuşurdu?

Mustafa! Bir adı bəs edirdi ki, mən milyon dəfə rəng alıb, rəng verim.

Mənim ona hər gün daha çox öyrəşməyim düzgün deyildi. Bunu bilirdim, "O mənim dostumdur" sözünü bəlkə yüz dəfə özümə əzbərlədirdim. Yox, alınmırdı. Axı o da mənə qarşı laqeyd deyildi. Qısqanclığını hiss edirdim.

Hə, "sevirəm" demirdi. Heç nə demirdi. Demədi də. İnsan sevəndə deyirmi? Bax bunu bilmirəm. Bəlkə, həqiqi eşq elə buna deyilir?

Mən onun emalatxanasında olmuşdum. Doğrusu, oraya getməyi o mənə təklif etmişdi. Razılaşmışdım. Atam bilsəydi... Nə yaxşı ki, bilmədi. Valideynlərim mənim Mustafaya

olan hisslərimdən şübhələnmişdilər. Keçəridir, deyə düşünürdülər. Keçəri olmurdu. Mustafadan "sevirəm" sözünü eşitmək ümidi ilə mənə doğru gələn hər kəsi özümdən uzaqlaşdırırdım. Amma o, heç nə demirdi... demirdi...

Əgər "məndən uzaq dur" desəydi, əgər hər şeyi mənə başa salsaydı, belə olmazdı. Hər gün məni evə ötürəndə "gələn dəfə olmasın, istəmirəm", deyərdim. Amma ötürmələr davam edirdi və hər gün onunla olan söhbətim məni ona daha çox bağlayırdı.

Ara-sıra yazdığı məktublarını evin bir köşəsində saxlasam da, sonra dönə-dönə oxumaqla məhv olurdum.

Bir xanıma nə lazımdır? Diqqət. Mən onun diqqətinin, şirin sözlərinin içində

üzürdüm. Yadımdadır, Mustafadan, "Sevdiyin varmı?" deyə soruşmuşdum. "Yox" demişdi. Hə, indiki kimi yadımdadır, "yox" demişdi. İndi hisslərimin ona açıq-aydın olan zamanında, ona bu qədər öyrəşəcəyim bir anda qəflətən özündən uzaqlaşdırması məni öldürürdü.

Ətrafım insanla dolu olduğuna baxmayaraq, içimdəkilərlə sızlayırdım, ölürdüm. Onun isə vecinə də deyildi.

Bilmirəm, bəlkə Mustafa məni sıradan biri hesab etmişdi? Həyatına gələcək növbəti qadın, eləmi, Mustafa? Bu kimə nəsib olmuşdu ki, indi sənin də ağlından keçmişdi. Bacarmadın. Alınmazdı. Səhv düşünmüşdün haqqımda.

Mustafanın atası ziyalı olduğu qədər də qatı dindar və millətçi idi. O, öz dinindən, millətindən, dilindən olmayan birisini özünə gəlin etməzdi. Mən sonralar bildim ki, Mustafanın göbəkkəsdisi var imiş. Bizdən aralı məhəllədə yaşayırdı. Mustafa, demək, hər məni evimizə ötürdükdən sonra o qıza da baş çəkərdi. Məni özünə bağlamaqla, ondan da əl çəkməzdi.

Mən o qızı Mustafanın emalatxanasında görmüşdüm. Rənglərin, fırçaların arasında, kağızların üzərində. Rənglərə bulaşmış bədənlər məni görcək çaşıb qalmışdılar. Mustafanın sirrini tapmış olmuşdum.

Mustafa, əslində, hökmlü valideynlərini belə razı salmağı bacaran birisi idi. Hətta istəsəydi, məni də özünə övrət etməyi bacarardı. Sadəcə içindəki balaca vicdan onun yolunu kəsirdi. Göbəkkəsdisi Tellinaz ona təslim olmuşdu günlərin bir günü. Mustafa küçücük qızın bakirəliyini pozduğundan özünü günahkar bilmiş və ona sahiblənəcəyinə söz vermişdi. İndi məni sevərək məndən uzaqlaşmış, vaxtı-vaxtında ona kişilik borcunu ödəyirdi. emalatxanasında. Xanımlara layıq olmayan yerdə. Kağızların, fırçaların arasında.

Kim bilir, bəlkə bir zamanlar məsum görünən Mustafa məni də emalatxanasına bu niyyətlə dəvət etmişdi? Zavallının başına açdığı oyunları mənim də başıma açmaq istəyirdi. Bilmirəm. Onun dinməz baxışlarından, susqun görkəmindən heç nə anlamamışdım.

Həyat sınaqdır...

Bu gün yenə külək əsir. Əsən külək dənizin duzunu dodaqlarıma gətirir. Bu, insanı çox susadır.

Evə dönmək və hər şeyi yenidən başlamaq zamanıdır. Zaman kimi çökdürmək istəməz ki? Amma məni yox. Bacarmaz!

Mən Mustafanın toyunda iştirak da elədim. Sonra onların oğul övladı dünyaya gəldi. Sonra ayrıldılar. Mustafa tək qaldı. Mənim kimi...

Bu gün Mustafanın rəsm sərgisi idi. Getmək istəmirdim, Marta məcbur etdi. Niyə getdiyimi özüm də bilmirəm.

Qapı ilə üzbəüz böyük bir portret asılmışdı.

Leonardo da Vinçidən sonra "Mona Liza"nı çox rəssamlar işləmişdilər. Bənzər təbəssümü heç kim yarada bilməmişdi. Çünki müəllifi Mustafa olan "Mona Liza"nın üzünə qonmuş təbəssüm, məndən oğurlanmış təbəssüm idi.

...Deyilənə görə, İstanbul sözünün mənası İslam bol sözündən götürülüb. Osmanlı dövrünün Türkiyə üçün ən böyük ərmağanı İstanbul idi. Qədim Konstantinopol, islam ab-havasından fərqli libas geyinmişdi əyninə. Bu libas onu daha da cazibədar və

özünəməxsus göstərirdi. İstanbul, sinəsində xaç gizlədib, özünü müsəlman kimi qələmə verən, inamını, dinini eşqinə qurban verən xanıma bənzəyirdi. İstanbul mənə bənzəyirdi.

İstanbulun tarixində bir xristian qızının da göz yaşı əbədiləşib. İndi, Deyala Salvador Vera İstanbul üçün sadəcə təbəssümü oğurlanmış Mona Liza idi.

TUTEN XATUN

Nə azadam bu aləmdə, nə də ixtiyarım var.
Nə qüssə əl çəkir məndən, nə dildə bir qərarım var.
Dilim bağlı, gözüm bağlı, qulağım kar, üzüm gülməz.
Günə həsrət qalan günsüz, səfasız laləzarım var.
(Bir müəllifin)
Əmon. Amon. Ay Amon.
Külək danışır...

Misir dünyanın ən sirli məkanıdır. Sarı qumlu səhra üzərində yerləşən bu yerin yaşını heç kim bilməyir. Deyilənə görə, izi itirməkdən ötrü Tanrı buraları qum səhrasına çevirmişdir. Kim bilir bu dövrümüzə kimlərin izi daşlaşmış şəkildə gəlib çatacaqdı?

İlanlar sürünür üzərində. Cızılmış müvəqqəti naxış bir müddət sonra əsən küləklə yox olar. Qızmar günəş altında gözlərin qaralar. Uzaqlara baxdıqca sonsuzluqdan usanarsan. İçinə çökmüş istilik həm də sənə xoş gələr. Həmin anda Məcnuna dönərsən, ya özünü elə hiss edərsən. Yalnız zınqırov səsi səni sevindirə bilər. Səhrada tək deyilsən.

Sarvan böyük bir dəvə karvanının önündə gedir. Hara gedir? Niyə gedir? Bilinməz...

Qoca Dadon dizlərinin ağrısını unutmaq üçün onları quma basdırardı. İstilik canına elə yayılardı ki... Canı qızışardı. Başının üzərində iki qara qul çətir tutardı daima. Günəş yalnız dizlərini isidərdi Dadonun. Qocalıq pis şeydi. İnsanın içinə çöküncə yaşı bilinməz. Bir də elə bir qoca ruhlu cavan görərsən ki, öz halına baxıb şükr edərsən.

Dadonun cavan ruhu var idi. O, şeirlər yazıb, nəğmələr qoşardı. Misir əkinçiləri əməklərinin yüngül olması üçün zümzümə edərdilər onları. Gizlicə. Asta, çox asta.

Çünki ruhu oxşayan ilahi nəğmələr qara kütlə üçün nəzərdə tutulmamışdı. Bu nəğmələrə fironlar qulaq asmalı, bu kəlmələri fironlar eşitməliydi.

Dadonun nə az, nə çox, yüz əlli yaşı var idi. Dərd ortağı kahin babası idi.

Kahin qocanın əldən düşməsinə baxmayaraq, hələ də ağlı üzərində idi. O, məbəddə fironların dəfninə hazırlıq işinə baxar, onları mumyalayardı. Bütün bu işləri elə zövqlə edərdi ki... Hətta mumyalamanın yetmiş günü bitənə qədər məbəddən çölə bir addım belə atmaz, çörəyini, suyunu orada nuş edərdi.

Bir zamanlar sarayın ən adlı-sanlı adamlarından biri idi. Exnatonun qəlb sirdaşı indi onun ölümündən sonra nədənsə məbəddə yaşamağı qərarlaşdırmışdı.

İşi çətin, ürəyi isə dolu idi. Bu illər ərzində susmağı öyrənmişdi. İçində qocalıb, büzüşmüş ürəyi "hələ yaşa, zaman yetincə gedəcəksən", deyirdi. Zadəganlar ölümlərindən öncə mumyalanmasını kahinin tərəfindən olunmasını vəsiyyət edərdilər.

Qədim misirlilər cəsədin ürəyinə toxunmazdılar. Daha doğrusu, ürəyi gipslə bərkidib yenidən sinədə yerləşdirərdilər. Ürək gipsə alışana qədər cəsədləri günəş altında qurudar,

bədənin rütubətinin tamamilə yox olmasını gözləyərdilər. Sonra isə ənənəvi işlər: On beş gün ərzində sarğı ilə cəsədi sarımaq, balzamlamaq və ətirləmək.

Göz oyuqlarının yerinə qiymətli daşlar yerləşdirər, kişiləri qırmızı, qadınları isə sarı rənglə boyayardılar. Vaxtilə dirilik rəngi sayılan və ölülərin üzünə çəkilən yaşıl boya sonralar qızıl maskalarla əvəzlənmişdi.

Bir gün...

Misir üzərinə bəla gəldi. Gənc Tutenxamonun ölüm xəbəri keşişlər arasında yayıldı. Ölkəni çaxnaşmaya salmamaqdan ötrü xəbəri kütlədən gizlətmək lazım idi. Bu müddət ərzində onun şərəfinə tikilən ehramda tamamlama işləri gedirdi. Rəssamlar, nəqqaşlar öz əməklərini sərf edərək gənc Tutenxamon üçün yatacaq, duracaq hazırlayırdılar.

Fironun ölüm xəbərini çox gizlətmək mümkün olmadı. Hakimiyyət uğrunda mübarizənin kəskinləşməməsindən istifadə edib mərhumu öz adına, sanına layiq dəfn etmək lazım idi. Saray dəfnetmə ritualını həyata keçirmək üçün tam hazır vəziyyətdə idi. Qızıl kəcavədə uzadılan gənc fironun üzərinə bəyaz örtük çəkmişdilər. Sarayda qəribə bir sükut və ağırlıq var idi.

Sıra ilə düzülmüş qullar fironun tabutunu çiyinləri üzərində qayığa tərəf apardılar. Nil onu gözləyirdi.

Geyiniləcək paltarları - silahları, atı onun yanında - sərdabədə gömüləcəkdi.

Exnaton - Tutenxamonun atası.

Exnaton çox gənc evlənmişdi. Onun hakimiyyətə gəlişi yeni dövrün başlanğıcı idi. Çünki o, yeni dini islahatlar, dəyişikliklər gətirmişdi Misir üçün. Minilliklər boyu çoxallahlığa sitayiş edən əhali indi Exnatonun əmri ilə Atona səcdə etməli idi. Doğrudur, gözdən pərdə asmaq üçün hakimiyyətə gəldiyi ilk dövrlərdə Fiv allahı Amona sitayiş edirdi, amma bir müddət sonra Aton allahına sitayiş etmə kultunu gətirdi və ona tapınmanı vacib saydı. Aton hamının allahı olmalı idi.

Bütün saray əhli, keşişlər ona nifrət edirdilər. Tayfa başçıları, kahinlər bunu qəbul edə bilmirdi. Necə yəni? Rəiyyətlə ağaların eyni Allahımı olsun? Yox, mənim Allahım dəbdəbə sevir, o murdar əkinçinin Allahı isə özü kimi palçıqlı və çirklidir, deyirdilər...

Exnaton gətirdiyi dinə balaca bir əlavə də etdi. Əslində, bu əlavə onun bacısına doğan eşqindən qaynaqlanırdı. Bunu bir Exnaton bilirdi, bir də evinin küncündə olan bütü. İnandığı Atonun ruhunu özündə daşıyan bütü. O büt ki, gənc Exnatonun sirlərinin ortağı idi. O büt ki, ölü doğulan övladlarını görmüşdü. O büt ki, Exnatonun yeni arzularının reallaşması xatirinə qızıla bürünmüşdü.

Uzun müddət övladının olmamasını kahinlər Allahların onu qarğıması ilə əlaqələndirirdilər. Exnaton sarsılmış vəziyyətdə dolaşırdı sarayının içində. Varisinin olmamasına yas tuturdu. O, döyüşlərə həvəssiz gedirdi, həvəssiz dönürdü xanımının yanına. Bəzən daxilində - "bəlkə, həqiqətən Ra Amon məni cəzalandırıb", - deyə düşünürdü.

Yoldaşına yaxınlaşmayan Exnaton başqa kənizlərlə könül əyləndirirdi. Firon könlünü ovlamaq elə də asan məsələ deyildi. Sarayda məhz bunun üçün hazırlanan, müəyyən qaydalar çərçivəsində böyüyən, tərbiyələnən qızlar var idi. Onlar Exnatonun bir baxışı ilə onun ağuşuna atılmağa hazır idilər. Həddindən artıq incə və həssas davranardılar hökmdarları ilə.

Və bir gün...

Uzun müddətdir analıq yükünü daşıyan həyat yoldaşının sancı çəkməsi xəbəri gəlir Exnatonun otağına. Kənizi kənara itələyib uşağının yanına qaçır.

Sirr doğulur. Bu sirdən Exnaton və ən yaxın dostu kahin xəbərdar idi. Exnaton bilirdi ki, sona qədər bunu daşıya bilməyəcək. İlahi Aton onu bağışlamayacaq. O bilirdi ki, doğulmuş qız övladını kişi kimi böyütməklə səhv edir. Müəyyən yaş dövründən sonra qızının inkişafını, yetkinləşməsini heç kimdən gizlədə bilməyəcək. Nə etməlidir?

Çox götür-qoy edərək keçmiş əcdadlarının və şəcərəsinin naminə kahinə övladının sinəsinə damğa vurması əmrini verir. Ufaq körpə damğa basılandan sonra huşunu itirir. Deyilənə görə, həftələrlə cansız cəsəd kimi səsini belə çıxarmır. Süd anaları onu yedirdə bilmir. Exnaton peşmançılıq keçirərək yeganə varisinin ölümünə fərman verdiyi üçün canına qıymaq istəyir. Bıçağı köksünə batırmaq istədikdə körpənin çığırtısına diksinir, son anda onu ölümdən saxladığı üçün tapındığı Allahına ömrünün sonuna qədər ibadət edir.

Sinəsi möhkəm sarınan körpə sərin otaqda saxlanılırdı. Acından süstəlmiş bədəni bir müddət sonra özünə gəlir. Qayğı və sevgi ilə əhatələnir.

Tutenxato(u)n

Beləcə Tutenxaton böyüyürdü. Hərbi təlimi ilə xüsusi müəllimlər məşğul olur, oğlanlardan uzaq saxlanılırdı. Kahin ona kişilik dərsləri keçər, hərbi müəllimi isə ox atmağı, nizə tutmağı, silahla davranmağı öyrədərdi.

Şəninə nəğmələr qoşulardı Tutenxatonun. Kənizlər onun üzünü görmədən belə ona aşıq olardılar.

Qızıla bürünmüş kəcavələr qara qulların çiyinləri üzərində şəhər meydanından keçərdi. Tutenxatonun siması yaxasına çəkilmiş qızıl piltələrdən par-par parlayardı. Bu işıqdan onun üzünü görmək mümkün olmurdu. Adətən fironlar bunu Allah olduqlarını xalqa nümayiş etdirməkdən ötrü edərdilər. Tutenxaton bu iddiadan uzaq birisi idi. Əsas məqsədi sinəsi üzərində qaralan damğa yerini, ləkəni gizlətmək idi. Halbuki bu ləkənin niyə onun üzərində olmasını anlamırdı. İşıqdan gözü qamaşan kütlə fironların üzünə nur qonduğunu düşünər, onları ilahiləşdirərdilər.

Tutenxatonun yeniyetmə çağları çox çılğın idi. O sanki özünü axtarırdı. Bəzən həddindən artıq kobud, bəzən isə həddindən artıq mülayim olurdu. Onu bəzəməyə gələn kənizləri heç sevməzdi. Ona toxunan qadın əllərini tənindən qovlayardı daima.

Exnaton çox dərd çəkirdi. Hər şeyi yenidən bərpa etmək üçün çox gec idi. Övladına içirdilən xüsusi məhlullar onun səsini kobudlaşdırar, daxili orqanlarının inkişafını saxlayardı. Exnaton, əslində, bu minvalla övladının çox yaşamayacağını bilirdi. Amma nə etməli? Özü də artıq köç karvanına qoşulmaq üçün məqam gözləyirdi. Anası Tiyin qəfləti ölümü onu bir az da zəiflətmişdi. Nefertitinin heç olmamış kimi qeybə çəkilməsi, sarayda başlayan hərc-mərclik, kahinlərin ədavəti onu sarsıdırdı.

Tutenxaton meylini qoca kahinə salmışdı. Ondan heç nəyi gizlətmirdi. Saatlarla başını kahinin dizləri üzərinə qoyub məsləhətlərinə qulaq asardı. Özü də olanlardan ona nəql edərdi. Günlərin bir günü Tutenxaton qəlbinin dərinliyində onu narahat edən bir hissi kahinlə bölüşür.

- Kahin, mən qəribəyəm. Bax burda, sol sinəmin altında nə isə çırpınır. O nədir?

- Ürəyindir, balaca.

- Bax, qulaq as, sənin yanında çox sakitdir, amma Amentonu gördükdə elə şiddətlə döyünür ki... Anlamıram.

- O sənin dostun, qardaşındır. Sənin ona olan sevgindən, hörmətindən irəli gəlir.

- Ola bilər. Dostlarım çoxdur, niyə ona qarşı beləyəm, anlamıram?

- Böyüyəcəksən, keçəcək.

- O zaman tez böyümək istəyirəm. İncidir.

Tutenxaton taxta çıxır. O, Amon Allahının şərəfinə Tutenxamona çevrilir. Taxta çıxmasından iki il sonra atası keşişlər tərəfindən bıçaqlanır. Onun gözü qarşısında Exnatonun səltənətindən qalmış abidələr, izlər məhv olurdu. Exnaton Misir tarixindən silinməyə başlayırdı.

Bəlkə də Tutenxamon bu səltənətin sonuncu hökmdarı idi. Bəlkə də tarix onun atasını unudan kimi bir gün Tutenxamonu da unudacaqdı? Şəninə ucaldılan abidələr Exnatonun abidələri kimi yerlə yeksan olacaqdı? Kim bilir...

Hər şey əksinə olur. Tale, qismət onu Misir tarixi üçün sona qədər qoruyur. Sərdabəsindən bir quruş belə oğurlanmır, talanmır. Çünki qız doğulub kişi həyatı yaşamının ağırlığını çəkən zərif çiyinləri qarşısında bütün bəşəriyyət günahkar idi. Bu tale yolunu o yaşayırdı, bu iztirabı o çəkirdi. Bu hisslərin ağırlığını o daşımalı idi və daşıyırdı da.

İndi.

İndi, vaxtilə hamını öz cazibəsinə salmış Tutenxamon qoca kahinin qarşısında ölü vəziyyətində uzanmışdı. Kahin beş gün ərzində qarşısında uzanmış gənc, baxımlı bir cəsəddən ancaq zövq almağı bacarırdı. Onun bədənini deşmək, yaralamağı fikrindən belə keçirmək istəmirdi. Kahinə kömək etmək üçün gələnlərin hamısı geri göndərilmişdi. Gənc Tutenxamonu özü mumyalamalıydı.

Dininə, dövlətinə sadiq kahin yerdə qalan bir ömrünü susaraq keçirməli, qarşısındakı on doqquz yaşlı gəncin həyat hekayəsini özü ilə dəfn etməli idi. Amma necə...

Söz, sirr elə bil bıçaqdır ki, içəridən səni yaralayır. Qoca kahin bu boyda ağırlığın öhdəsindən gələ bilmirdi. Ona görə sevimli nəvəsi Dadon onun daxilində gizlənən sirrinin daşıyıcısı oldu. Dadon ona nəql olunan hekayələri mətnlərdə, nəğmələrdə səsləndirirdi. Zərif Tutenxamonun həyat hekayəsi dodaqdan-dodağa qonub yayılırdı. Bu ilahi nəğmələri dinləyən Misir xalqı həqiqətdə onların kimə aid olduğundan xəbərsiz idi.

Külək gəlir, külək gedir
Sən gəlirsən, tələsirsən.
Mən yazığam, mən nökərəm,
Sən ağasan, sevilirsən.
Mən susuram, susmalıyam.
Sən danışma, danışarlar.
Bu Allahlar yenə gəlib
Taleyimə qarışarlar.
İndi gecdir, mən ölürəm.
Salamat qal, salamat ol.
Mən bilirəm, sən sevirsən,
Ağrılara alışqan ol.
Bəlkə, geri dönən zaman
Mən həyata, mən həyata
İsidatək dönəcəyəm.
Sən belə qal, sən belə qal.

Hər şey belə olmuşdu...

Exnatonun qarışıq röyasını yozan Haumata onu qız övladının dünyaya

gələcəyindən xəbərdar etmişdi. Exnaton övladı doğulana qədər əsəb və gərginlik içində idi.

Nəhayət, doğum vaxtı yetişincə, bu işdə yardım etmək üçün çağırılan kənizlər uşaq dünyaya gəldikdən sonra edam edildilər. Dünyaya gəlmiş qız övladı Exnaton üçün göz dağı idi. Sirri məndən başqa bir kimsə bilmirdi, Dadon.

Exnaton öz bacısı ilə evlənir. Uzun müddətdir bir-birinə qan qohumluğu ilə bağlanan şəcərə artıq məhv olmaq üzrə idi. Exnatonun həyat yoldaşı ard-arda iki dəfə ana olmağa hazırlaşır və hər iki körpə doğulmadan ana bətnindəcə ölür. Üzgün Exnaton arvadının üçüncü hamiləliyində onunla daha diqqətli davranmağı əmr etmişdi. Gördüyü yuxu onu məyus etsə də, uşaq doğulmamışdan onun gələcək həyatını özü yazır. Dünyaya gələn qız övladı oğlan adını qazanır, oğlan libası geyinir.

Misir fironu Exnaton, bir müddət sonra yeniyetmə olacaq qızının dikəlib göz deşəcək yerlərini gizlətməyin yolunu fikirləşirdi. Onun sinəsinə dağ basmağı mənə həvalə etmişdi. Firon bunarı ondan sonra taxta gəlməyə layiq olan övladı və öz şəcərəsi naminə etmişdi. Mən qoca kahin isə baş verən hadisələrin sadəcə iştirakçısı idim.

Ruhu ilə qadın olan Tutenxamon incəliyini gizləyə bilmirdi. Ona elə gəlirdi ki, erkək belə də olmalıdır. O sığaldan, bəzəkdən tamamilə uzaqlaşdırılmışdı. Yalnız kişilərə məxsus bəzəklərlə bəzədilirdi. Öz həmcinslərinə olan hissinin doğru olmadığını anlayırdı. Özü ilə də bacara bilmirdi. Yaxın dostu Amentona olan hisslərindən mənə də bəhs edirdi. Mənim qarşımda ağlayırdı. Əsl həqiqət hər dəfə dilimin ucuna gələrək geri qayıdırdı. Mən Tutenxamona, "sən zərif xanımsan və bir kişini sevməyin qəribə deyil" - demək istəyirdim. Çox istəyirdim. Onun göz yaşlarına, hıçqırtısına dözə bilmirdim.

Bu sirr qəbir evinə qədər getməli idi. Artıq Misir əvvəlki Misir deyildi. Xalqın arasında gedən canlanma, hökmdarı taxtdan salma eşqi güclənirdi. Exnatonun nəsli ondan öncəkilərə və ondan sonrakılar məsxərə obyekti olmamalıydı. Mən də çox qocayam, bundan o tərəfə yaşamaq istəmirəm. Bəlli bir zamanda, bəlli bir yerdə gənc Tutenxamonun ölümünə fərman verdim. Yeməyinin içinə zəhər qatdım. Bir neçə saat öncə, hansı yeməyi daha çox yemək istərdin, sualını vermişdim hökmdarıma. O, uzun-uzadı gözlərimin içinə baxdı. Elə bil hər şeyi hiss edirdi. "Fərq etməz", - dedi. Mənə inanırdı. Ona görə də yeməyini yoxlatmadı. Mən isə ən sevimli təamını onun üçün hazırlatmışdım. Həmişəki kimi geniş süfrə açılmışdı. Masanın ətrafında heç kim yox idi. Təkcə Tutenxamon həvəssiz oturmuşdu. Mən də qarşısında. Üçüncü qaşıqda artıq onun rəngi gömgöy idi.

Onun hıçqırtısı indiyənə kimi qulaqlarımda səslənir... "Düz etdin. Çox sağ ol. Nə yaxşı ki, gedirəm. Ona deməyin..."

Hər şeyin əvvəli olduğu kimi sonu da var. Bu onun taleyi, bu onun qisməti idi. O, bu yükü daşımalı idi. O, bu yüklə ölməli idi. Məni incidən onun ölümü deyil, bəlkə də, mən düz etdim. Ölüm onun üçün ən asan yol idi. Əzab çəkirdi. Məni incidən onun məhəbbəti idi.

Hətta sevdiyi dostunun yanına getməmək üçün ayağını belə sındırmışdı. Saraydan Amentonun səsi gəlincə əsanı əlinə alıb onun yanına qaçırdı. Üz-üzə dayanıb saatlarla

susardılar. Böyük saray bu eşqin qarşısında lal idi.

- Çox maraqlıdır. Tutenxamon qadın olduğundan bu hissi yaşayırdı, bəs Amenton? O necə? Məgər düşünmürdü ki, bir erkəyə vurulub - Dadon soruşur.

- Məncə o, hər şeyi çox gözəl bilirdi. Tutenxamon təpədən-dırnağa xanım idi. Zərif idi, gözəl idi. Çox gözəl idi.

Yetmiş günün tamamında Tutenxamonun şərəfinə bəzədilmiş sərdabədə iş tamamlanmışdı. Bütün naxışlar qızılla işlənmişdi. Əzəmətli gənc, on doqquz yaşlı Fironun nəşi qızıl tabuta yerləşdirildi. Boynuna bənövşə və çobanyastığı çiçəklərindən hörülmüş çələng asıldı. Qayığa yerləşdirilmiş tabut "Ölülər diyarı"na yan aldı.

Xəfif aprel küləyi Nil çayını qadın zərifliyi ilə dalğalandırıb qayığın sahilə çatmasını ləngidirdi. Ağ yelkənlər uzaqdan hamilə qadına bənzəyirdi.

Deyilənə görə, Amenton döyüşlərin birində həlak olmuşdu. Bəlkə də, ölmək istəmişdi sadəcə...

Kahin öz missiyasını yerinə yetirdikdən sonra öz ölümünə fərman vermiş və Exnatonun ayaqlarının altında basdırılmışdı. Qoca Dadon isə hakimiyyətə yeni gəlmiş sülalə üçün nəğmələr qoşaraq könülləri əyləndirərdi.

Qədim, sirli Misir gənc Tutenxamonu unutmadı. Və bu sirr, özündə iz saxlamayan səhra qumunun üzərindən əsən xəfif külək ilə hamarlandı.

ENAREY (KAHİN)

Aydını çoxdan tanıyırdım. Lap çoxdan. Doğrudur, onun dediklərinin bir faizinə də inanmırdım. Danışdığı uydurmaları isə dinləməyi çox sevirdim.

Hər yeni rəvayətə başlayanda düymə boyda gözlərini yumar, sonra söhbətə başlanğıc verərdi. Əllərini də bir-birinə elə bərk sıxardı ki, elə bil mühüm bir şeydən söz açacaq. Uydurmalarına özü də inanardı hərdən. Yalan tez unudulduğu üçün qəsddən bir neçə gündən sonra ona eyni hadisədən hissələr danışardıq. "Aydın, o hadisənin axırı necə olmuşdu?" deyərdik. Nağılları su kimi yuyulub beynindən getdiyindən öncə gözlərini qırpar, sonra söhbətin ucundan-qulağından çırpışdıraraq birinin üstünə beş də qoyub yeni rəvayət uydurardı özündən. Biz də ona inanardıq.

İndi isə Aydın yadıma yuxu kimi gəlir. Nə yaxşı ki, həyatımda tanıdığım belə bir adam olub.

İyirmi ildən sonra Qatura getmək iməkləməyə başlayan uşağın dünyanı lap yenicə tanıması kimiydi. Kənddə yalnız qocalar qalmışdı. Bütün cavanlar bir qarın çörək üçün buraları tərk etmişdilər. Cansıxıcı idi kənd. Əvvəlki təravəti də qalmamışdı. Palçıqdan yapılmış komalar bir az da ot basmış görkəmi ilə adamın ürəyini sızladırdı.

Uzaqda, lap uzaqda damın üzərində oturan bir nəfəri gördüm. Qamış uzunluğunda ayaqlarını qucaqlamışdı. Aydın olmasın bu? Oturuşu eynilə ona bənzəyir.

Biz tərəflərdə meyvə ağaclarının gövdəsinə balta çalarlar. Üstündən bərəkətinin əskik olmaması üçün. Ahıllar, bax, "təbiətin də gözünü gərək belə qorxudasan", deyərdilər.

Aydıngildən yuxarı sıra ilə düzülmüş çinar ağacları var idi. El arasında çinarlıq deyərdilər buralara. Nədənsə o ağacların da gövdəsinə balta çalınmışdı.

Üçüncü çinardan o tərəfə nələrin olmasından bixəbər idik. Ora getmək olmaz. Güz var deyərdilər. Dilimizdə də əzbər idi. Filənkəs güzlükdə itdi. Üçüncü çinardan keçdiyindən başına belə gəldi. Nə isə, bizim oralara getməyimiz yasaq idi. İçimdə nə qədər qorxu olsa belə, üçüncü çinardan o tərəfə keçməyin arzusunda idim.

Ayağımdan pıtraqları qopara-qopara uzaqdan gördüyüm o adama sarı gedirdim. Balaca palçıq evin dövrəsində iki nar, üç armud, səkkiz alma ağacı var idi. Həyətin dörd bir yanında it bağlanmışdı. İtin ikisinin qarşısında sümük, ikisinin qarşısında isə ət var idi. Dörd itin heç biri hürmürdü, qarşılarındakı yeməyi də yemirdilər. Alma ağacının birində ağ kəlağayı asılmışdı. Külək kəlağayının bir ucunu evin damına sancmışdı. Evin qapısı arasında üzərlik var idi. Kələğayının ucu ona sancılmışdı. Külək isə əsərək üzərliyi çaqqıldadırdı. Damın üstündəkinin isə insan olmadığını gördüm. Yəqin, üç gün bundan öncə əsən külək ağacın kötüyünü buraya atmışdı.

Biz tərəflərdə güclü küləklər əsir. Necə olub ki, kötük parçasını insana bənzətmişəm? Bilmədim.

Yadımdadır, Aydın bir rəvayət danışmışdı bizə. O zaman onu məsxərəyə qoymuşduq. Deyirdi, vaxt gələcək bir gecənin içində hamı qocalacaq. Uşaqlar isə alma ağacına çevriləcək. Biz də onu əsəbiləşdirib, "yox, biz alma yox, armud ağacına çevriləcəyik", deyərdik. O isə: gülün, gülün, bir vaxt gələr, siz də görərsiniz - deyə təkrarlayardı. İki gündən sonra rəvayəti ona xatırlatmaq istəyəndə danışmaq istəməmişdi. Danışmıram, danışmıram - söyləmişdi.

Qazanın altında alov yanmazdı. Yer kürəsi başına hava gəlmiş adam kimi dövr edərdi

kainatda. Nənə isə halvanı hey qarışdırardı. Deyilənə görə, Aydının ulu babası da uşaq olarkən Ulu dağdan qaynayan halvanın püskürərək ətrafa sıçramasını görmüşdü. Deyir, nənəm o dəqiqə əlinə qazan alıb soyuq bulağa qaçmışdı. Sonra bulaq suyunu evə gətirib yeddi yerə çömçə ilə su tökmüşdü. Babam isə hər su tökülən yerə arpa basdırmışdı. Yeddinci arpadan sonra Ulu dağ sakitləşmişdi. Sonra hər evdən bir qoç gətirib Ulu dağın ətəyində qurban kəsmişdilər. Nənəm isə alnıma qurban qanından nöqtə qoymuşdu.

Soruşanda ki, ay Aydın, dağ qurbanı neynir? Aydın cavab verərdi ki, kəsilən qurban

insanın malından asanlıqla keçməsinə işarədir. Axı mülk, mal şirin şeydi. Heç kim balaca qəpiyindən də keçməz. O ki qaldı qoç olsun. Tanrı səxavəti sevdiyindən insanların bu canfəşanlıqlarına biganə qala bilmir. Hər qurban ayinindən sonra onlarla bir az da yumşaq davranarmış.

Ulu dağın arxasında dilək ağacı var idi. Ağacın, bəlkə də, milyon yaşı olardı idi. Aydının babasının, babasının babasının da yadına bu ağac gəlirdi. Heç kim onun dəqiq yaşını bilmirdi. İçi boş, üstü yaşıllıq, altı kölgənəcək. "Belə ağaclar əbədiyyət simvoludurlar", - Aydın deyirdi. Hər əşyanın sonu var. Əşyaların da, ağacların da taleyi var.

Bu dilək ağacına da dilək edib kəlağayı asardılar. Hər böyüyən gənc nəsil bu ayinə məsxərə ilə yanaşar və inanmazdılar. Yaşlılar isə, həqiqət olduqda söylənilər, deyirdilər. Yalandan həqiqət doğmaz. Əgər təsadüfən doğubsa, o zaman mütləq cəzası çəkiləcək.

Yüz il sonra gələcək, min il sonra gələcək, amma həqiqəti yerində oturtmaq üçün kimsə mütləq gələcək.

(Kitabda belə yazılıb: Onların əməlləri zəngin dənizin zülmətinə bənzər. Onu bir dalğa, o dalğanın üstündən bir dalğa, onun da üstündən bir bulud (dalğa) – zülmət üstündən zülmət örtər. O, əlini çıxartdıqda, hardasa onu görməz. Allah bir kəsə nur bəxş etməsə, onun nuru olmaz).

Həqiqəti susdurmaq üçün bürüyərlər. Sonuncu bir dalğa üzərindən bir dalğa deyilişi, qaraya bürünən qadınları, çadranı yadıma salırdı. Qadın həqiqətdir. Və hər kişi öz həqiqətini gizlətmək istəyir. O zaman həqiqətə yalnız özü şahid olur. O həqiqət onun olur. Və günlərin bir günü həqiqət boğulur və səssiz-səmirsiz itir. Vaxt gəlir, yenə də həqiqətləri aydınlatmağa başlayırlar. Həqiqət aydınlaşdıqca, qadın göründükcə bəşəriyyət hərəkətə gəlir. Sonra həqiqəti yenə zülmətə bürümək üçün onu kirlədirlər. Sonra kişilər həqiqətləri xilas etməyə başlayır və başqasının görməməsi üçün onu yenə də bürüyür, bürüyür və bu silsilə sonsuzluğa qədər davam edir.

Onu bir dalğa, o dalğanın üstündən bir dalğa, onun da üstündən bir bulud (dalğa) - zülmət üstündən zülmət örtər. O, əlini çıxartdıqda, hardasa onu görməz...

Həmin günü çox yol getdim. Ağ atın tərkində çinarlığa yollanmaq maraqlı idi. Uzun müddətdir at çapmamışdım. Ayaqlarımın arasından qalxan ağrı bədənimi keyidirdi. Doğru deyirlər insan nəyə adət etsə, ona asan gələr.

Çinarlığa çatmaq Feyzulla babamın nağılları kimi - saqqız kimi uzanırdı. Niyə saqqız kimi uzanmasını bilmirdim, demə, dünya sonsuzdur. Məkanlar isə yer dəyişən. Babam mənə deyəndə ki vaxtilə Xəzər dənizinin suları indiki Böyük Qafqazın üzərini örtürdü, inanmırdım. Sən demə, Xəzərin yerində Pətək ölkəsi mövcud imiş. Adının Pətək olması isə təsadüfi deyildi. Yerin tərkində oyuq açan insanlar orada yaşayırdılar. Kənardan baxanda pətək kimi deşik-deşik görünərdi düzənlik. Dəliklər arasına ağ təbaşirdən yol çəkilərdi və bütün dəliklər sap üzərinə düzülmüş muncuğu xatırladardı insana. Babama, "bəs dəniz ölkənin üzərinə axmırdı?", sualını verirdim. O, hər dəfə fikrə gedib, "səddə idi"- deyərdi. "Sədd isə həqiqət məhv olanda dağılır". Demək, kainatda olan bütün canlılar, əşyalar, dağlar, dənizlər, çaylar gözəgörünməz sədlə

haşiyələnib. O vaxt ona həqiqətin niyə yox olduğu sualını verməmişdim. İndiki ağlım olsaydı, sualı sualın üstündən yağdırardım babama. Amma vaxtından əvvəl hər şeyi bilməyin də mənası yoxdur. Hər kəs öz həqiqətinə nə zamansa çatır.

İndi mən də çinarlığa nə üçün getdiyimin fərqinə varırdım; bu yolun niyə bu qədər uzun gəlməsini dərk edirdim.

Skiflərdə falçılıq və öncəgörmə geniş yayılmışdı. Enarey adlanan kişiyəbənzər qadınlar söyüd çubuqları ilə fala baxardılar keçmiş zamanlarda. Onlar kişi görkəmli olsalar da, qadın libasları geyinər və falabaxma mərasimlərində xüsusi ayinlər yerinə yetirərdilər. Hətta səsləri belə qadın səsinə bənzəyən cəngavər qadınlar Skiflər üzərinə gələcək bəlaları öncədən sezər və zamanında çara xəbər verərdilər. Onların həqiqətdə kişi və ya qadın olması bilinmirdi. Deyilənə görə, tanrılar yalnız və yalnız qadınların qulaqlarına pıçıldamağı sevərdi. Qadınlar isə söz saxlaya bilmədiklərindən o dövrün adamları tanrıları aldatmaq üçün kişilərə qadın paltarı geydirərək fala baxmaq ayinini gerçəkləşdirirdilər.

Kainatda başlanğıcın adı qadındır. Adəm özü də Həvvanı içində gəzdirirdi. Adəm yarı Həvva, yarı Adəm idi. Allah öz ruhundan ona üfürmüşdü.

İndi Xəzər sularının altında qalan Pətək ölkəsinin varlığını düşündükcə tüklərim bizbiz olur. Həqiqəti gizlətmək üçün Yaradan bütün dünya üzərinə müxtəlif örtüklər çəkmişdi. Həqiqət həmişə nəyinsə altında - gizlindədir. İnanıram ki, nə zamansa Pətək ölkəsinin sakinləri yeni dünyanın adamlarına kim olduqlarını söyləyə biləcəklər.

Çinarlığa çatmağa dörd ağaclıq yol qalmışdı. Ulu dağın üzərində at ayağının zərbələrini gəzdirmək mənə əzab verirdi. Düşünəndə ki, daşlar da canlıdır və yer üzərində addımlayan insanların zərbələrindən qeyzlənə bilər, Yerin nifrətindən qorxurdum...

Hər şey eyni silsilə ilə davam edir: keçidlərlə, dolanbaclarla, üstüörtülü, tanınmaz, sirli, unudulmuş, tapmacavari, gizlin şəkildə... Sözlər kimi. Ağızdan-ağıza ötürülmüş şəkildə qulaqlara çatar. Qulaq, bütün gerçəklərin və bilinməzlərin qara dəlikli giriş qapısıdır.

"Əkil, bəkil quş idi. Meydana qonmuş idi..."

Bu deyimləri çinarlığa az qalmış xatırladım. Atdan endim. Böyük bir meydanda insanlar əyləşmişdi. Kimə danışsam, inanmaz.

Ölkənin şahı rəhmətə getmişdi. Demə, bura gəlməyimin elə bir önəmi yox imiş. Əvvəl-axır həqiqət azad olacaqdı. Bunu ürəyimdən keçirəndə yanımda əyləşən ağsaqqal, "hələ sona qədər dinlə, səbrin olsun" - dedi.

Yeni doğulmuş uşaq gətirdilər meydana. Hamı ona baş əyməyə başladı.

"Diqqət, diqqət! Eşidin və agah olun, bundan sonra taxtın sahibi Yunis ibn Adəm olacaq. Bundan sonra bu taxta o keşik çəkəcək və qanunları o verəcək".

Yanımdakı ağsaqqalın qulağına pıçıldadım: "Siz heç bilirsiniz, bu nə deməkdi? Siz indi açılması gərəkən həqiqətin üzərini yenidən bağlayırsınız".

O, mənə bir rəvayət danışdı. Və mən orada qalmağımın bir mənasını görmədim. Atın tərkinə minib geri qayıtdım. Anladım ki, "çinarlığa getmə, orada Güz var" deyənlər əslində doğru deyirdilər. Uzaqlara həqiqət axtarışına getməyin mənası yoxdur. Adəmdən Xadəmə insanlar alın yazısı qarşısında qul

kimi ikiqatdırlar. Taleyin yalnız istiqamətini bir balaca dəyişmək olar. Onu yenidən yazmağa heç kimin cürəti çatmaz. Hamımız müəyyən qabiliyyətlərlə və kodlarla doğuluruq. Əsas missiyamız daxilimizdə yerləşən o sirri tapmaqdır.

Və qoca mənə deyəndə ki, Yaradan insanı yaratdıqdan sonra, ona ruh üfürməmişdən öncə yaratdığı bütün varlıqları yanına yığır. Deyir, ey yaradılanlar, mən uşaq kimi ərköyün, bəzən tənbəl, azdan doymayan, çoxla qane olmayan, qanı sevən, ölümə sitayiş edən, bəzən rəhmli, bəzən rəhmsiz, həm özünü tanıyan, həm də tanımayan bir məxluq yaratmışam. Adını İnsan qoymuşam. Bu insanın həqiqəti mənim əlimdədir, amma bilmirəm onu harada gizlədim. Harada gizlətsəm, tapacaq. Yerin altına da gedəcək, yerin üstünə də... Hər canlı, "ver mən saxlayım, - dedi - məndən ala bilməz". Yaradan çox düşündü: Yox, mən bu sirri dərin quyunun içində gizlədəcəyəm. O sirr, yalnız işığa doğru qalxa biləcək. Zülmətdə isə köz kimi qaralacaq.

- O quyu, nə quyudur elə?

- İnsanın daxili.

Mən anladım ki, insan istəsə də, özündən qaça bilmir. Özündən qaçmanın bir yolu yoxdur, əslində. Bu mümkünsüzdür. Daha çox içinə enməlisən, özündən qopmamalısan. İndi düşünürəm ki, Aydın hər şeyi doğru deyirdi. Vaxtilə güldüyümüz ağıllı insanlara sonradan inanmağa başlayırıq, indi isə öz axmaqlığımızı dərk edirik.

Kəndimizə dönəndə hər kəsin işində-gücündə olduğunu gördüm. Bura necə də gözəl, necə də yaraşıqlı və abad imiş. Onu görmək üçün dərk etməmin lazımlığı gərəkirdi. Gözün və qulaqların olması azdır. Onlar yalnız vasitədir, əsl həqiqət isə qəndil içində yanan çıraqdır.

İndi Enerey bir dua oxuyacaq...

Bilmirəm, günəş nə zaman sıyrılıb yerə düşəcək. Bircə onu bilirəm ki, o, bizə nöqtə boyda görünən, əslində isə böyük bir həqiqətin üzərini açacaq. Və həmin an biz yerlə göyü birləşdirən dayaqları gözlərimizlə görəcəyik və bütün həqiqətlər örtüyünü öz üzərindən yerə salacaq. Gəlinin üzündən çəkilən duvaq kimi...